

AZƏRBAYCANIN ŞƏRƏF VƏ QÜRUR TARİXİ

ŞANLI ZƏFƏR - 6 İL

RƏSMİ DÖVLƏT QƏZETİ

AZƏRBAYCAN



№ 206 (10226) 7 noyabr 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



OTUZ İLLİK İŞĞALIN 44 GÜNLÜK ZƏFƏR YEKUNU

44 günlük Vətən müharibəsində Azərbaycan üçqat qələbə qazandı!

* Həm hərb meydanında düşməni diz çökdürərək ona kapitulyasiya aktını imzalatdırdı;

* Həm diplomatiya sahəsində bütün təsir, təzyiq və təhdid cəhdlərinə sinə gərərək ortaya qoyduğu şərtlərə əməl olunmayanadək hərbi əməliyyatları dayandırmadı;

* Həm də informasiya cəbhəsində böyük üstünlük qazanaraq bütün feyklәri ifşa edərək əsl həqiqətləri dünya ictimaiyyətinə çatdırdı.

44 gün ərzində qazanılan Zəfər sonrakı müddətdə daha üç istiqamətdə möhkəmləndirildi;

* 2023-cü ilin 23 aprelində keçirilən hərbi əməliyyat sayəsində Həkəri çayı üzərindəki post ələ keçirildi, Laçın dəhlizi tam nəzarətə alınmaqla Azərbaycanın ərazi bütövlüyü təmin olundu.

* Həmin ilin 19-20 sentyabrında baş tutan antiterror əməliyyatı sayəsində Qarabağda qalan Ermənistan silahlı qüvvələrinin tör-töküntüləri və terrorçu qruplaşmaları ağ bayraq qaldıraraq təslim oldular, dinc və itkisiz şəkildə ərazilərimizi tərk etdilər, bununla da Dövlət Suverenliyimiz və Konstitusiya əsasları da bərpa olundu.

* Bir il sonra isə görəcəyi bir iş qalmayan Rusiya sülhməramlıları da ölkəmizdən çıxarıldı!

Mənəvi sahədə də üçqat qələbə baş verdi:

* Azərbaycan 30 il havada qalan BMT qətnamələrini öz gücü hesabına icra etdi;

* ATƏT-in Minsk qrupu sülh yolu ilə münaqişəni həll edə bilmədiyindən buna hərbi vasitələrlə nail oldu;

* Beynəlxalq hüquq "dəmir yumruq"la öz yerini tutdu!

Azərbaycan bütün düşmənlərinə və bədxahlarına qalib gəldi:

* Bütün gücünə və imkanlarına baxmayaraq, dünya ermәniliyi məğlubiyyətə uğradıldı;

* Xaricdəki bütün erməni diasporlarının gördükləri və görmək istədikləri işlər puça çıxarıldı;

* Ermənistanın dostlarının və havadarlarının da bütün dəstəkləri, hərbi və siyasi canfəşanlıqları havayı getdi!

Müzəffər Ali Baş Komandan İlham Əliyev ikiəsrlik Qarabağ münaqişəsinə 44 gün ərzində əbədi son qoymaqla düşmən üzərində mütləq, tam və qəti qələbəmizi təmin etdi!

"Dəmir yumruq" sayəsində qazanılan bu Zəfər İlham Əliyevin sərkərdəlik məharəti, xalqla iqtidarın möhkəm və sarsılmaz birliyi, əsgər və zabitlərimizin kütləvi qəhrəmanlıqları sayəsində gerçəkləşdi.

Yuxarıda deyilənlərə Müzəffər Ali Baş Komandan İlham Əliyevin 1 dekabr 2020-ci ildə televiziya ilə xalqa müraciətində qürurla səsləndirdiyi fikirlə yekun vururuq:

"Biz yeni reallıq yaratdıq, qələbə çaldıq, düşmənin başını əzdik, düşməni torpaqlarımızdan qovaraq yeni reallıq yaratdıq.

Hər kəs bu reallıqla barışacaq, məcbur olub barışacaq, necə ki, Ermənistan barışdı!"

Baş Sərkərdəmizin söylədiyi bu fikirlər artıq reallığa çevrilib!

Möhtəşəm Zəfərimizi bütün dünya qəbul edib!

9

◆ Prezident İlham Əliyevlə birinci xanım Mehriban Əliyevanın Cəbrayıl və Zəngilan rayonlarına səfəri

İLHAM ƏLİYEV: "Cəmi 6 il ərzində 100 minə yaxın insanı Qarabağa və Şərqi Zəngəzura qaytarmışıq"

Cəbrayıl rayonunda alkoqolsuz içki istehsalı müəssisəsinin açılışı olub













Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 6-da Cəbrayıl rayonunda "Sunbeverage" MMC-nin alkoqolsuz içki istehsalı müəssisəsinin açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, "Azərsun Holdinq"in müşahidə şurasının sədri Tahir Gözəl dövlətimizin başçısına və birinci xanıma müəssisə barədə məlumat verdi.

Bildirildi ki, Holdinq tərəfindən Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılan bu müəssisədə qazlı və qazsız sular, soyuq çay, meyvə tərkibli, vitaminli və azkalorili içkilər istehsal olunacaq. Ərazisi 10 hektar olan müəssisənin illik istehsal gücü 150 min tondur. Məhsulların daxili bazarla yanaşı, xarici bazarlara ixracı nəzərdə tutulur. Burada İtaliya istehsalı olan müasir avadanlıq quraşdırılıb. İstehsal prosesi suyun təmizlənməsi, şərbət hazırlanması, qarışdırma, qazlaşdırma, məhsulun plastik butulka və şəffaf qida qablarına doldurulması, qapaqlanması, etiketlənməsi və qablaşdırılması mərhələlərini əhatə edir.



Layihənin ümumi dəyəri 70 milyon manatdır. Maliyyələşmədə özəl vəsaitlə və bank kreditləri ilə yanaşı, İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondunun (ABİF) dəstəyi ilə 5 milyon manat məbləğində güzəştli kreditdən, həmçinin əlavə 5 milyon manat kredit üzrə zəmanət və faiz subsidiyası mexanizmindən istifadə edilib. Burada 300 nəfər daimi işlə təmin ediləcək.

Qeyd edək ki, müəssisə Şərqi Zəngəzur iqtisadi rayonunda qida sənayesinin inkişafına töhfə verməklə yanaşı, əhalinin məşğulluğunun təmin edilməsində də böyük rol oynayır. Eyni zamanda bu layihənin reallaşması ölkəmizin ixrac potensialının artırılmasına öz töhfəsini verir.

Cəbrayıl rayonunun Soltanlı kəndinin birinci mərhələsinin açılışı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 6-da Cəbrayıl rayonunun Soltanlı kəndinin birinci mərhələsinin açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlətimizin başçısına və birinci xanıma Soltanlı kəndində görülən işlər barədə məlumat verdi.

Soltanlı kəndi 1993-cü ildə Ermənistan tərəfindən işğal edilmişdi. İşğal dövründədək əhali əsasən pambıqçılıq, taxılçılıq, baramaçılıq, üzümçülük və heyvandarlıqla məşğul olub. Azərbaycan Silahlı Qüvvələri 2020-ci il oktyabrın 19-da kəndi işğaldan azad edib.

Ümumi sahəsi 108,5 hektar olan Soltanlı kəndində 420 fərdi ev inşa edilib. Evlər 2, 3, 4, 5 otaqlıdır və müasir kommunikasiya şəbəkəsi - su, işıq, qaz, Günəş panelləri, yüksəksürətli internetlə təmin olunub. Kənddaxili yollara asfalt döşənib. Layihə üzrə Soltanlı kəndində ikimərtəbəli inzibati bina, uşaq bağçası, həkim-tibb məntəqəsi, həmçinin çoxfunksiyalı bina tikilib. Kənddə aptek, market, dərzi, gözəllik salonu və digər xidmət mərkəzləri üçün nəzərdə tutulmuş bir və ikimərtəbəli hissələrdən ibarət olmaqla çoxfunksiyalı bina inşa edilib.













Kənddə inşa olunmuş 140 yerlik körpələr evi-uşaq bağçasında balacaların rahatlığının təmin olunmasına xüsusi diqqət yetirilib. Bağçada metodika, kompüter, oyun, musiqi otaqları, yeməkxana uşaqların ixtiyarına veriləcək.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilanın Cahangirbəyli kəndinin birinci mərhələsinin açılışında iştirak ediblər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 6-da Zəngilan rayonunun Cahangirbəyli kəndinin birinci mərhələsinin açılışında iştirak ediblər.

Qeyd edək ki, Cahangirbəyli kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdu. İşğal dövründədək kənddə məktəb, uşaq bağçası, mədəniyyət evi və rabitə şöbəsi fəaliyyət göstərib. Əhali isə əsasən baramaçılıq, taxılçılıq, üzümçülük və heyvandarlıqla məşğul olub. Azərbaycan Silahlı Qüvvələri 2020-ci il oktyabrın 21-də kəndi işğaldan azad edib. Cahangirbəyli kəndinin təməlini Prezident İlham Əliyev 2023-cü ilin mayında qoyub.

AZƏRTAC xəbər verir ki, ümumi sahəsi 179,5 hektar olan Cahangirbəyli kəndində birinci mərhələ üzrə 62,57 hektar ərazidə 242 fərdi evin, məktəb binasının, körpələr evi-uşaq bağçasının, ikimərtəbəli inzibati binanın, bazar kompleksinin və çoxfunksiyalı binanın tikintisi həyata keçirilib. Evlər 2, 3, 4, 5 otaqlıdır. Onların hamısı su, işıq, qaz, Günəş panelləri və yüksəksürətli internetlə təmin olunub. Kənddaxili yollar da asfaltlanıb.

Kənddəki çoxfunksiyalı binada həkim-tibb məntəqəsi, aptek, market, dərzi, gözəllik salonu fəaliyyət göstərəcək.



Cahangirbəylidə 80 yerlik körpələr evi-uşaq bağçasında balacaların rahatlığının təmin olunmasına xüsusi diqqət yetirilib. Buradakı otaqlarda uşaqların istirahəti, həmçinin onların ilkin bilik və bacarıqlarının üzə çıxarılması üçün zəruri şərait yaradılıb.

Kənddə inzibati binanın yaxınlığında Bayraq meydanı da inşa edilib. Bayraq meydanının yaxınlığında isə uşaq oyun meydançası, sakinlərin sağlam həyat tərzinin təşviqi və fiziki aktivliyinin artırılması məqsədilə idman zonası və park yaradılıb.

Elm və təhsil naziri Emin Əmrullayev 264 şagird yerlik Cahangirbəyli tam orta ümumtəhsil məktəbinin binasında yaradılmış şərait barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Bildirildi ki, məktəbdə tədrisin yüksək səviyyədə aparılması üçün geniş imkanlar mövcuddur. Təhsil ocağının sinif otaqları lazımi dərs vəsaiti və avadanlıqla təchiz olunub. Burada 13 sinif otağı, kimya və fizika fənləri üzrə 2 laboratoriya, musiqi, informatika, hərbi hazırlıq, rəsm və qrim otaqları, kitabxana, 160 yerlik akt zalı, qapalı idman zalı, yeməkxana müəllim və şagirdlərin ixtiyarına veriləcək. Məktəbin ərazisində 2 açıq idman meydançası da yaradılıb.

Ardı 3-cü səh.

◆ Prezident İlham Əliyevlə birinci xanım Mehriban Əliyevanın Cəbrayıl və Zəngilan rayonlarına səfəri

İLHAM ƏLİYEV: "Cəmi 6 il ərzində 100 minə yaxın insanı Qarabağa və Şərqi Zəngəzura qaytarmışıq"

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilanın Cahangirbəyli kəndinin birinci mərhələsinin açılışında iştirak ediblər

Əvvəli 2-ci səh.













❖ ❖ ❖

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cahangirbəyli və Cəbrayıl rayonunun Soltanlı kəndlərinə köçən sakinlərlə görüşüblər.

Görüşdə çıxış edən **Prezident İlham ƏLİYEV** dedi:

- İlk növbədə qarşıdan gələn Zəfər bayramı münasibətilə sizi təbrik edirəm. Bu bayram ərəfəsində görüşürük və bu bayram artıq 6 ildir ki, dövlət bayramı kimi qeyd olunur. Altı il bundan əvvəl şanlı ordumuz düşməni torpaqlarımızdan qovaraq haqq-ədaləti bərpa etdi. Artıq 6 il ərzində biz quruculuq işləri ilə məşğuluq. Yeni salınan kəndlər, şəhərlər, köçkünlərin doğma torpaqlara qayıtması - yəni biz bu məsələlərlə məşğuluq və deyə bilərəm ki, bütün Azərbaycan xalqı bu fikirlə yaşayır. Uzun illər ağır şəraitdə yaşamış köçkünlərin doğma torpaqlara qayıtması hər bir vətəndaşımızın böyük arzusu idi, ilk növbədə, əlbəttə ki, köçkün şəklində, köçkün şəraitində yaşayan insanlar üçün. Amma siz də bilirsiniz ki, hər bir vətənpərvər insan sizin tezliklə doğma diyara qayıtmağınızı arzulayırdı.

Bu gün biz demək olar ki, müntəzəm olaraq yeni gözəl kəndlər, şəhərlər salırıq, sıfırdan qururuq. Çünki mənfur düşmən bizim bütün şəhər və kəndlərimizi yerlə yeksan etmişdi, o cümlədən Cahangirbəyli, Soltanlı kəndlərini də tam dağıtmışdı. Bu gün bu iki kəndə təqribən 700-ə yaxın ailə qayıdır. Sizin üçün gözəl evlər tikilib. Əminəm ki, siz bu şəraitdən səmərəli şəkildə istifadə edəcəksiniz. Əsas məsələ odur ki, artıq köçkünlük həyatı arxada qalır.

Azərbaycan xalqı 44 günlük Vətən müharibəsi zamanı bir yumruq kimi birləşmişdi. Bu Zəfər bizim qəlbimizdə əbədi yaşayacaq. Xalqımız və gələcək nəsillər bu Zəfərlə daim fəxr edəcəklər. Çünki biz ədaləti bərpa etdik, öz ləyaqətimizi bərpa etdik və döyüş meydanında qan tökərək öz haqqımızı bərpa etdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların əziz xatirəsi daim qəlbimizdə yaşayacaq. Əminəm, onların yaxınları bilirlər ki, onların qanı yerdə qalmayıb. Onların qisası döyüş meydanda alınıb və bu gün onların əziz xatirəsinə ən böyük hörmət əlaməti bax, Qarabağın, Şərqi Zəngəzurun belə gözəl dirçəldilməsidir.

Biz müharibədə Qələbə qazanmışıq. Sülh şəraitində yaşayan xalqımız da qurub-yaradır. Ermənilər 30 il bu torpaqları viran qoymuşdular, bir daşı daş üstə qoyulmamışdır. Biz isə cəmi altı il ərzində 100 minə yaxın insanı Qarabağa və Şərqi Zəngəzura qaytarmışıq, onlar üçün mümkün olan ən gözəl şərait yaratmışıq.

Sizi həm Zəfər Günü münasibətilə, həm də doğma torpaqlarınıza qayıtmağınız münasibətilə təbrik edirəm, sizə cansağlığı arzulayıram.

❖ ❖ ❖

Sonra dövlətimizin başçısı sakinlərə mənzillərin açarlarını təqdim edib.

❖ ❖ ❖

Daha sonra dövlətimizin başçısı və birinci xanım sakinlərlə söhbət edib, xatirə şəkilləri çəkdiriblər.

Qadın sakin: Hörmətli cənab Prezident, hörmətli Ali Baş Komandan, dəyərli Mehriban xanım.

Mən həm Soltanlı kənd camaatı adından, həm də Zəngilan rayonunun köçkünləri adından bugünkü gün münasibətilə, Zəfər Gününün bir addımlığında olduğumuz bir vaxtda Sizin gözəl, müdrik siyasətiniz, xalqımızın birliyi və ordumuzun şücaəti sayəsində, şəhidlərimizin qanı bahasına azad olunmuş bu torpaqlarda sizləri salamlamaqdan qürur hissi duyuram. Bir daha deyirəm: "Xoş gəlmisiniz".

Prezident İlham ƏLİYEV: Sağ olun.

Qadın sakin: Yaralı, əsir düşmüş vətənimizin yeganə xilası onun yaralarını ancaq Zəfərlə sarımaq olardı ki, bu mümkünsüz işi Siz bacardınız, əziz Prezidentimiz. Bunun üçün Sizə təşəkkür edirik. Hər zaman dövlətimizin qayğısını üzərimizdə hiss etmişik bu otuz ildə, yenə də hiss edirik, həm bir şəhid ailəsi kimi, həm də məcburi köçkün kimi.

Nə deyək?! Ulu Öndərimizdən və şəhidlərimizdən bizlərə əmanət qalmış bu Vətən torpağının bundan sonra bərpa olunub yenidən dirçəlməsi üçün qalan vəzifə artıq biz vətəndaşların borcudur. Sizə söz veririk ki, yurdumuzun abadlığı üçün biz də hər zaman dövlətimizin və Sizin arxanızdayıq. Yaşasın Azərbaycan, yaşasın Ali Baş Komandan, yaşasın Azərbaycan Ordusu!

Prezident İlham ƏLİYEV: Sağ olun, çox sağ olun, təşəkkür edirəm.

Kişi sakin: Cənab Prezident, mən də söz demək istəyirəm.

Prezident İlham ƏLİYEV: Buyurun.

Kişi sakin: Otuz ildən sonra yox, otuz üç ildən sonra Sizin bizi buraya qaytarmağınız, əslində, möcüzədir. Mənim üçün möcüzədir. Mən fikirləşirəm ki, bəlkə yuxu görürəm, inanın səmimiyyətimə. Sonra baxıram ki, yox, yuxu deyil. Allah Sizi qorusun, Allah Sizə cansağlığı versin. Allah Vətənimizi qorusun. Şəhidlərimizə Allah rəhmət eləsin.

Prezident İlham ƏLİYEV: Amin.

Kişi sakin: Qazilərimizə cansağlığı versin. Hamısı Sizin sayənizdədir. Fəxr edirik biz Sizinlə, cənab Prezident.

Prezident İlham ƏLİYEV: Sağ olun, təşəkkür edirəm. Bu şanlı Zəfərimiz, qeyd etdiyim kimi, daim bizim ürəyimizdə qalacaq, tarixdə qalacaq. Bu elə bir hadisədir ki, bunun misli-bərabəri yoxdur. Ona görə bu münasibətlə bir daha təbrik edirəm. Gəlin, birlikdə şəkil çəkdirək.

Digər kişi sakin: Bu günü bizə yaşatdığınız üçün Sizə çox minnətdaram.

Prezident İlham ƏLİYEV: Burada yaşamısınız?

Kişi sakin: Bəli, bu kəndin sakiniyəm. Bəli, burada doğulub, burada böyüyüb, sürücü işləmişəm. Nəvələrim xahiş etdi ki, cənab Prezidentlə şəkil çəkdirərsən, gətirərsən, biz də başımızın üstündən asacağıq.

Prezident İlham ƏLİYEV: Bəs işğal dövründə harada yaşayırdınız?

Kişi sakin: Bakıda.

Prezident İlham ƏLİYEV: Bakıda? Şərait necə idi?

Kişi sakin: O qədər yaxşı deyildi, 33 ili yola verdik, Allah canını sağ eləsin.

Prezident İlham ƏLİYEV: Hansı işlə məşğul idiniz?

Kişi sakin: Orada da öz maşınımla işləmişəm, "QAZ-53"üm var idi.

Prezident İlham ƏLİYEV: İndi burada yenə sürücü?

Kişi sakin: Sürücülük. Maşının daşını atmışam, gedib.

Prezident İlham ƏLİYEV: Burada nə işlə məşğul olacaqsınız?

Kişi sakin: Burada kənd təsərrüfatı ilə. Bizim camaat işlək camaatdır, cənab Prezident, əkəcəklər, biçəcəklər.

Prezident İlham ƏLİYEV: Siz nə ilə məşğul idiniz?

Digər kişi sakin: Orduda xidmət etmişəm.

Prezident İlham ƏLİYEV: Siz bu kənddənsiniz, yoxsa Soltanlıdan?

Kişi sakin: Bu kənddən.

Prezident İlham ƏLİYEV: Nə işlə məşğul idiniz o vaxt?

Kişi sakin: Şofer işləyirdim.

Prezident İlham ƏLİYEV: Kolxoz var idi?

Kişi sakin: Bəli, kolxoz var idi.

Prezident İlham ƏLİYEV: Bəs işğal dövründə harada?

Kişi sakin: İşğal dövründə Sumqayıtda yaşayırdım.

Prezident İlham ƏLİYEV: Sumqayıtda. İndi burada nə ilə məşğul olacaqsınız? Pensiya?

Kişi sakin: Pensiya.

Prezident İlham ƏLİYEV: Təbrik edirəm.

Kişi sakin: Sağ olun, Allah Sizi var eləsin.

Prezident İlham ƏLİYEV: Burada kənd təsərrüfatı ilə məşğul idiniz - əkinçilik, heyvandarlıq?

Kişi sakin: Bəli, indi maşının daşını atmışam, gedib. Yaşlaşmışam, yetmiş iki yaşım var. Ancaq kənd təsərrüfatı ilə məşğul olacağam.

Prezident İlham ƏLİYEV: Torpaq yaxşıdır.

Kişi sakin: Bəli, bizim torpağımız qızıl torpaqdır. Nə əksən bitər.

Prezident İlham ƏLİYEV: Su da var?

Kişi sakin: Suyu da var, bəli, hər bir şey də var. Bu torpağa biz öyrəşmişik. Mən buradan çıxanda 39 yaşım var idi. Elə 39 yaşınacan əkinlə, biçinlə məşğul olmuşam. Həyət-bacam var idi.

Prezident İlham ƏLİYEV: İndi biz keçirdik, baxıram, Ağalı kəndində artıq elə ağaclar əkiblər ki, belə bağa dönüb. Belə olacaq.

Ardı 4-cü səh.

◆ Prezident İlham Əliyevlə birinci xanım Mehriban Əliyevanın Cəbrayıl və Zəngilan rayonlarına səfəri

İLHAM ƏLİYEV: "Cəmi 6 il ərzində 100 minə yaxın insanı Qarabağa və Şərqi Zəngəzura qaytarmışıq"

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilanın Cahangirbəyli kəndinin birinci mərhələsinin açılışında iştirak ediblər

Əvvəli 3-cü səh.



Kişi sakin: Cənab Prezident, bir ildən sonra buraya gələndə tanımayacaqsınız buranı, gül-çiçək, ondan da üstün olacaq, edəcəyik.

Prezident İlham ƏLİYEV: Həm o həyətyanı sahə, orada da indi bostan, meyvə ağacları da əkilə bilər. Sonra burada ayrıca torpaq da nəzərdə tutulur sakinlər üçün.

Kişi sakin: Verilib, bəli, verilib.

Prezident İlham ƏLİYEV: Burada heyvandarlıq yaxşı inkişaf edə bilər. Taxılçılıq olub.

Kişi sakin: Hamısı edilə bilər, bəli. Vaxtilə hamısı olub axı və biz onu yenə təkrar edəcəyik.





Prezident İlham ƏLİYEV: Havası da təmiz.

Kişi sakin: Bizim camaat işləməyi sevir. Dediyim kimi, gələn dəfə gələndə buranı tanımayacaqsınız. Burada həyat başqa cür olacaq, Allah haqqı. İndiyədək Siz etmisiniz, bundan sonra biz edəcəyik. Təbii ki, yaşayıb-yaradacağıq.

Prezident İlham ƏLİYEV: Artıq sizin işinizdir. Bizim üzərimizə nə düşübsə, bu kənd üçün etmişik.

Kişi sakin: Bəli, Siz öz borcunuzdan çıxmısınız. Buradan beləsini, Allah qoysa, biz edəcəyik. Çox sağ olun, çox sağ olun.

Prezident İlham ƏLİYEV: Təbrik edirəm. Siz nə işlə məşğul idiniz o vaxt?

Kişi sakin: Mən də burada traktorçu olmuşam. 1978-1979-cu illərdə. Sonra şofer olmuşam, kolxozda, üzümlükdə işləmişəm.

Prezident İlham ƏLİYEV: Sonra bəs?

Kişi sakin: Otuz yaşımda da müharibə.

Prezident İlham ƏLİYEV: Hara getdiniz?

Kişi sakin: Bakıya getdik, Buzovnada qalırdıq.

Prezident İlham ƏLİYEV: Qonşuyuq?

Kişi sakin: Qonşuyuq. Allah köməyiniz olsun. Allah Sizi saxlasın.

Prezident İlham ƏLİYEV: İndi də Allaha şükür, qayıtmısınız. Burada məşğulluqla problem var?

Kişi sakin: Yox, yox. Sürücü işləyirəm hələ ki.

Prezident İlham ƏLİYEV: Burada iş çox olacaq. Zəngəzur dəhlizi də kəndin ərazisindən keçir. Burada böyük inkişaf gözlənilir, dəmir yolu da işləyəcək.

Kişi sakin: Çox sevinirik. Allah Sizi sevindirsin. Hər dəfə deyirsiniz, bizi sevindirirsiniz.

Prezident İlham ƏLİYEV: Sağ olun. Məktəbi də soruşmuşam, müəllimlər məktəbdə, bağçada işləyəcəklər.

Kişi sakin: Xoş gəlmisiniz, Mehriban xanım, Allah Sizi qorusun.

Mehriban xanım: Sağ olun, Allah bütün xalqımızı qorusun.

Prezident İlham ƏLİYEV: Allah Soltanlı uğrunda döyüşlərdə şəhid olanlara rəhmət eləsin.

Qadın sakin: Şəhid anasıyam. 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeninin sahibi Ziyadxan Əliyevin anasıyam.

Prezident İlham ƏLİYEV: Allah rəhmət eləsin.

Qadın sakin: Necə deyim, yaşamadığımız, düşünə bilmədiyimiz bir möcüzəni Siz bizə yaşatdınız, əsgərlərimizlə, ordumuzla bərabər, xalqın birliyi ilə bərabər. İnşallah, birliyimiz pozulmasın. Allah Sizi var eləsin. Siz bizim əbədiyaşar Prezidentimizsiniz.

Prezident İlham ƏLİYEV: Həmişə birlik olacaq, həmişə bir-birimizə arxadayaq olacağıq.

Qadın sakin: Bəli, həmişə arxanızdayıq, Sizi sevirik.

Prezident İlham ƏLİYEV: Çox sağ olun, təbrik edirəm.

Sakinlər: Çox sağ olun.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan Şəhər Təhsil Kompleksinin açılışında iştirak ediblər





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 6-da Zəngilan Şəhər Təhsil Kompleksinin açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidentinin 2022-ci ildə imzaladığı müvafiq sərəncama əsasən, Zəngilan şəhərində 960 şagird yerlik tam orta ümumtəhsil məktəb binasının layihələndirilməsi və tikintisinə başlanılıb. 2025-ci ildə layihədə konseptual dəyişiklik edilərək, təhsil müəssisəsi Zəngilan Şəhər Təhsil Kompleksi olaraq peşəyönümlü tədris müəssisəsi kimi yenidən layihələndirilib.

Kompleksdə məktəbəhazırlıq, biologiya, informatika, çağırışaqədərki hazırlıq, "STEAM-STARTERS", "STEAM-SCIENCE LAB", "STEAM CHALLENG" otaqları, robot zonaları, laboratoriyalar, dərzi, santexnika çilingəri və elektrik montyoru emalatxanaları yaradılıb. Burada həmçinin kitabxana, idman və akt zalları, yeməkxana da müəllim-tələbə heyətinin ixtiyarına veriləcək.

Ümumi ərazisi 1,6 hektar olan kompleksin həyətində də geniş abadlıq işləri aparılıb, açıq idman meydançası və qaçış zolağı yaradılıb.





Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən uğurlu təhsil siyasəti nəticəsində son illərdə yüzlərlə yeni məktəb binası tikilib, mövcud təhsil müəssisələri isə əsaslı təmir olunub. Bu siyasətin mühüm istiqamətlərindən biri də işğaldan azad olunmuş torpaqlarımızda "Böyük qayıdış" proqramı çərçivəsində hərtərəfli infrastrukturun yaradılmasıdır ki, təhsil müəssisələri də burada xüsusi yer tutur. Zəngilanda yeni təhsil kompleksinin istifadəyə verilməsi doğma torpaqlarına qayıdan ailələrin övladları üçün hər cür şəraitin yaradıldığının, onların keyfiyyətli təhsil almalarına göstərilən diqqət və qayğının əyani təzahürüdür. Müasir tədris imkanlarına malik bu kompleks gənc nəslin bilikli, savadlı yetişməsinə, onların peşə vərdişlərinin inkişafına mühüm töhfə verəcək.

❖ ❖ ❖

Bu gün Zəngilan şəhərində 160 yerlik körpələr evi-uşaq bağçasının da açılışı olub.

Qeyd edək ki, körpələr evi-uşaq bağçası "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası ilə bağlı inşa olunub.

Burada uşaqların təlim-tərbiyəsi ilə məşğul olmaq, onların asudə vaxtlarının səmərəli təşkili, həmçinin balacaların ilkin bacarıqlarının üzə çıxarılması üçün hərtərəfli şərait yaradılıb. Körpələr evi-uşaq bağçasında oyun, yataq, kompüter, tibb otaqları və idman zalı da var. Musiqi, rəqs və akt zalları da balacaların ixtiyarına veriləcək. Körpələr evi-uşaq bağçasının həyətində abadlıq işləri həyata keçirilib, balacaların açıq havada istirahəti üçün zəruri şərait yaradılıb.

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Sizi və Azərbaycan xalqını 8 Noyabr - Zəfər Günü münasibətilə təbrik edirəm.

Bu hadisə uzun illər davam edən münaqişəyə son qoymağa, regionda sülhü, qarşılıqlı anlaşmanı və sabitliyi möhkəmləndirmək üçün etibarlı zəmin yaratmağa imkan vermişdir.

Sülhün qurulması istiqamətində aparılan işlərdə Cənubi Qafqazda baş verən mühüm prosesləri nəzərə alaraq, Qafqaz ölkələrinin müdrikliyi və dövlət başçılarının uzaqgörən siyasəti sayəsində bu regionun sülh və sabitlik məkanına çevriləcəyinə inanıram.

Zati-aliləri, Sizə möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə uğurlar, qardaş Azərbaycan xalqına isə davamlı sülh və tərəqqi arzulayıram.

Dərin hörmətlə,

Sadır JAPAROV,
Qırğız Respublikasının Prezidenti

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Sizi Azərbaycan Respublikasının Zəfər Günü münasibətilə ürəkdən təbrik edirəm.

8 Noyabr 2020-ci il müstəqil Azərbaycanın tarixinə qızıl hərflərlə yazıldı. Vətən müharibəsində Müzəffər Ordumuz şanlı Qələbə qazandı və bu Qələbə ölkəmizin ərazi bütövlüyünü bərpa etməyə imkan yaradaraq xalqımıza inam gətirdi.

Əldə edilmiş Qələbə Sizin uzun illər Azərbaycanın ərazi bütövlüyü uğrunda apardığınız mübarizənin, diplomatik fəaliyyətinizin, qətiyyətinizin və Ordu quruculuğu siyasətinizin nəticəsində mümkün oldu. Birgünlük antiterror əməliyyatı nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi.

Möhtərəm cənab Prezident, İkinci Dünya müharibəsindən sonra Siz müasir tarixdə yeganə Lidersiniz ki, ölkənin ərazisinin 20 faizini işğaldan azad etmisiniz. Bu, Sizin və Müzəffər Ordumuzun dünya tarixinə yazdığı şanlı səhifədir.

Sizə fəaliyyətinizdə böyük uğurlar, möhkəm cansağlığı və ailə səadəti arzulayıram.

Dərin hörmətlə,

Asəf HACIYEV,
Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin Baş katibi

❖ ❖ ❖

Zati-aliləri!

Zəfər Günü və Dövlət Bayrağı Günü kimi əlamətdar bayramlar münasibətilə "ACWA" şirkəti adından və şəxsən öz adımdan Zati-alinizə, Azərbaycan Respublikasının qardaş xalqına ən səmimi təbriklərimi, xoş arzularımı çatdırmaqdan böyük şərəf və məmnunluq duyuram.

Bu tarixi bayramlar dərin məna kəsb edərək Azərbaycan xalqının cəsarətini, birliyini, əzmkarlığını və Vətəninə olan sarsılmaz bağlılığını təcəssüm etdirir. Zəfər Günü 44 gün davam edən misilsiz əzm və fədakarlıq nəticəsində əldə olunmuş tarixi Qələbəni, Dövlət Bayrağı Günü isə Azərbaycanın üçrəngli bayrağının simvolizə etdiyi suverenliyi, müstəqilliyi və milli qüruru tərənnüm edir. Bu günlər birlikdə Azərbaycan xalqının igidliyinin, sarsılmaz ruhunun, həmçinin öz suverenliyini qorumaq və gələcəyini müstəqil şəkildə müəyyən etmək əzminin güclü ifadəsidir.

Zati-alinizin müdrik rəhbərliyi ilə Azərbaycan milli maraqlarının müdafiəsində, ərazi bütövlüyünün bərpasında və tarixinin yeni səhifəsinin açılmasında müstəsna qətiyyət nümayiş etdirmişdir. Sizin uzaqgörənliyiniz, qətiyyətiniz və Azərbaycan xalqının arzularına olan sarsılmaz bağlılığınız xalqın tarixi mərhələlərdən keçməsində həlledici rol oynamışdır. Biz Zati-alinizin liderliyini, həmçinin güclü, suveren və firavan, davamlı sülhə, sabitliyə və gələcək nəsillər üçün geniş imkanlara malik bir Azərbaycan qurmaq yolundakı fədakarlığınızı yüksək qiymətləndiririk.

Biz həmçinin Səudiyyə Ərəbistanı Krallığı ilə Azərbaycan Respublikası arasında mövcud olan uzunmüddətli qardaşlıq, dostluq və qarşılıqlı hörmət əlaqələrinə xüsusi əhəmiyyət veririk. Liderlərimizin uzaqgörənlikləri və səyləri sayəsində ölkələrimiz arasındakı münasibətlər daha da möhkəmlənərək strateji əməkdaşlıq və uzunmüddətli tərəfdaşlıq üçün yeni üfüqlər açmaqda davam edir. Zati-alinizin bu əlaqələrin inkişafındakı, qarşılıqlı etimad, ortaq hədəflər və səmərəli əməkdaşlıq mühitinin formalaşdırılmasındakı şəxsi rolunu yüksək qiymətləndiririk.

Səudiyyə Ərəbistanının "ACWA" şirkəti möhkəmlənən bu tərəfdaşlığın bir hissəsi olmaqdan xüsusi qürur duyur. Şirkətimizə göstərilən etimada və davamlı dəstəyə görə Zati-alinizə səmimi-qəlbdən minnətdarıq. "ACWA" Azərbaycana, onun uzunmüddətli inkişaf, dayanıqlı və firavan gələcək prioritetlərinə sadiq qalır. Biz əməkdaşlığımızı daha da dərinləşdirməyi, Azərbaycan xalqının rifahına uzunmüddətli töhfələr verən təşəbbüslərdə iştirak etməyi səbirsizliklə gözləyirik.

Bu əlamətdar milli bayramlar münasibətilə Azərbaycan xalqının cəsarət və əzmkarlığına olan dərin hörmətimi, həmçinin liderliyinizə, uzaqgörənliyinizə və davamlı dəstəyinizə görə Sizə səmimi minnətdarlığımı ifadə edirəm. Əminik ki, Sizin rəhbərliyinizlə Azərbaycan özünəməxsus ruhunu müəyyənləşdirən birliyi, gücü və milli dəyərləri qoruyub saxlamaqla yeni nailiyyətlərə doğru irəliləməyə davam edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, Azərbaycan Respublikasına və onun xalqına isə daimi sülh, birlik, sabitlik və rifah arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Hörmətlə,

Məhəmməd ƏBUNƏYYAN,
Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkətinin təsisçisi və Direktorlar Şurasının sədri

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

8 Noyabr - Zəfər Günü münasibətilə Suriya Türkman Məclisi adından Sizi, qardaş Azərbaycan xalqını səmimiyyətlə təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Sizin rəhbərliyinizlə qəhrəman Azərbaycan xalqı, rəşadətli Azərbaycan Ordusu 30 ilə yaxın davam edən ədalətsizliyə və zülmə son qoydu, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının məlum dörd qətnaməsini öz gücü ilə icra etməyə müvəffəq oldu.

Suriya Türkman Məclisi olaraq, qardaş Azərbaycanın şanlı Zəfərinə aparan yolu günbəgün, anbaan izləyir, hər bir uğuruna ürəkdən sevinirdik. Bu tarixi Qələbə xalq-lider vəhdətinin bariz nümunəsi və azərbaycanlı qardaşlarımızın sarsılmaz iradəsinin təntənəsidir.

Bu gün Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında nəhəng yenidənqurma və bərpa işləri davam edir, infrastruktur, logistika, iqtisadi, təhsil, humanitar, sosial və digər sahələrdə həyata keçirilmiş və icra edilən layihələr Azərbaycanın ayrılmaz hissələri olan bu bölgələrin dünyanın ən gözəl guşələrindən birinə çevirir.

Möhtəşəm Zəfər Günü münasibətilə Zati-alinizi bir daha təbrik edir, Sizə ali dövləti fəaliyyətinizdə uğurlar, qardaş Azərbaycan xalqına sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

Hörmətlə,

Əbdürrəhman MUSTAFAPAŞA,
Suriya Türkman Məclisinin sədri, Suriya Xalq Məclisinin üzvü

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Zati-alinizi və Azərbaycan xalqını 8 Noyabr - Zəfər Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Bu əlamətdar gün Azərbaycan xalqının milli iradəsinin, birliyinin və Vətənə bağlılığının təcəssümüdür. 44 günlük Vətən müharibəsində qazanılmış Qələbə Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş, gələcək nəsillər üçün qürur və ilham mənbəyinə çevrilmişdir.

Qarabağda və Şərqi Zəngəzurda aparılan bərpa və quruculuq işləri, insanların doğma torpaqlarına qayıdışı, həmçinin tarixi və mədəni irsin qorunması Zati-alinizin rəhbərliyi ilə Azərbaycanın davamlı inkişafını əks etdirir. Zəfər Günü bütün türk dünyası üçün ortaq qürur və həmrəylik rəmzinə çevrilmişdir.

Türk Dövlətləri Təşkilatı (TDT) ölkələrimiz arasında birliyin, həmrəyliyin və daha sıx əməkdaşlığın artan əhəmiyyətini əks etdirən yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu tərəqqi ən yüksək səviyyədə nümayiş etdirilən uzaqgörənlik, rəhbərlik və qətiyyətli səylər sayəsində mümkün olmuşdur.

Bu mühüm dövrdə Baş katib vəzifəsində çalışmaq və ümumi məqsədlərimizin irəli aparılmasına töhfə vermək mənim üçün xüsusi şərəf olmuşdur. Təşkilata göstərilən dəstəyə və onun dialoq, əlaqələndirmə və birgə təşəbbüslər platforması kimi rolunun gücləndirilməsi istiqamətində səylərə görə səmimi minnətdarlığımı bildirirəm.

Fəaliyyət göstərdiyim illərə nəzər salarkən birgə səylərimiz nəticəsində əldə edilmiş tərəqqini yüksək qiymətləndirirəm. Əminəm ki, yaratdığımız möhkəm təməl türk dünyasının arzularının gerçəkləşməsinə və xalqlarımızın daha da yaxınlaşmasına xidmət edəcəkdir. Azərbaycanın TDT-yə sədrliyi dövründə irəli sürülən təşəbbüslər təşkilatın fəaliyyətinə, üzv dövlətlər arasında əməkdaşlığın dərinləşməsinə və türk dünyasının beynəlxalq mövqeyinin gücləndirilməsinə mühüm töhfə vermişdir.

Zati-alinizə ali dövləti vəzifənizin icrasında davamlı uğurlar, Azərbaycan xalqına daim sülh, sabitlik və rifah arzulayıram.

Dərin hörmətlə,

Kubanıçbek ÖMÜRALIYEV,
Türk Dövlətləri Təşkilatının sabiq Baş katibi

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya

Hörmətli Mehriban xanım!

Sizi 8 Noyabr - Zəfər Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Zəfər Günü Azərbaycan Respublikasının tarixinə qızıl hərflərlə həkk olundu. Prezident İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Ordumuz İkinci Qarabağ müharibəsində tarixi Qələbə qazandı və ölkəmizin ərazi bütövlüyü bərpa edildi, xalqımızın milli qüruru özünə qaytarıldı. Bu Qələbə Prezidentin Azərbaycanın ərazi bütövlüyü uğrunda apardığı mübarizənin, diplomatik fəaliyyətinin və Ordu quruculuğunun nəticəsində qazanıldı. İkinci Dünya müharibəsindən sonra tarixdə ilk dəfədir ki, bir ölkənin ərazisinin 20 faizi işğaldan azad olunub. Bu, ölkə rəhbərinin və Müzəffər Ordumuzun dünya tarixinə yazdığı şanlı səhifədir.

Bu gün "Böyük qayıdış" proqramı çərçivəsində Qarabağa köç həyata keçirilir və Siz bu proqramın reallaşmasında yaxından iştirak edirsiniz. Artıq xeyli soydaşımız doğma yurdlarına qayıdıb və müasir şəraitdə yaşayır. Sizin Qarabağ bölgəsində mədəni və mənəvi dəyərlərimizin bərpa edilməsində əvəzsiz xidmətiniz vardır.

Sizə möhkəm cansağlığı, ailə səadəti, fəaliyyətinizdə böyük nailiyyətlər arzulayıram.

Dərin hörmətlə,

Asəf HACIYEV,
Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin Baş katibi

"Dövlət qurumlarının informasiya təhlükəsizliyi mühitinin diaqnostikasının həyata keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 372 **Bakı şəhəri, 5 noyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 yanvar tarixli 287 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası"nın həyata keçirilməsi üzrə Tədbirlər Planı"nın 1.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dövlət qurumlarının informasiya təhlükəsizliyi mühitinin diaqnostikasının həyata keçirilməsi Qaydaları" təsdiq edilsin *(əlavə olunur)*.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.

"Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 30 dekabr tarixli 572 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 375 **Bakı şəhəri, 5 noyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 30 dekabr tarixli 572 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 1 sentyabr tarixli 479 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 9, maddə 1067; 2026, № 1, maddə 86) ilə təsdiq edilmiş "İstehlak mallarının və xidmətlərin qiymət artımı ilə əlaqədar əhalinin pul gəlirlərinin indeksləşdirilməsi qaydası haqqında metodiki təlimat"a aşağıdakı dəyişikliklər edilsin:

1.1. IX hissənin on birinci abzasına "yerli" sözündən sonra "(regional)" sözü əlavə edilsin;

1.2. həmin təlimata 3 nömrəli əlavəyə "onun yerli" sözlərindən sonra "(regional)" sözü əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 10 iyul tarixli 75 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 1, maddə 73; (Cild I) ilə təsdiq edilmiş "Karantin obyektlərinin yayılmasının qarşısını almaq üçün profilaktik və ləğvedici tədbirlərin aparılması nəticəsində məhv edilən toxumlara və toxumluq əkinlərinə çəkilən xərclərin dövlət tərəfindən kompensasiya edilməsinin Qaydası"nın 6-cı hissəsinin dördüncü abzasına və Qaydaya Əlavəyə "Maliyyə Nazirliyinin yerli" sözlərindən sonra "(regional)" sözü əlavə edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 8 noyabr tarixli 174 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 11, maddə 649 (Cild I); 2025, № 9, maddə 879) ilə təsdiq edilmiş "Meşə fondu torpaqlarının geri alınması ilə əlaqədar meşə istifadəçilərinə dəyən ziyanın ödənilməsi Qaydası"nın 3-cü hissəsinin üçüncü abzasına və Qaydaya Əlavəyə "Maliyyə Nazirliyinin yerli" sözlərindən sonra "(regional)" sözü əlavə edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 693 (Cild I); 2024, № 1, maddələr 110, 111, № 3, maddə 359, № 5 (II kitab), maddələr 597, 606, № 9, maddə 1067; 2025, № 2, maddə 193, № 7, maddə 698; 2026, № 3, maddələr 285, 289, № 4, maddə 387, № 5 II kitab, maddə 457; 2026, № 8, maddə 867) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"ın 12-ci hissəsinin ikinci abzasına "Nazirliyinin yerli" sözlərindən sonra "(regional)" sözü əlavə edilsin və həmin hissənin üçüncü abzasında "müvafiq rayon (şəhər) idarələrinə (şöbələrinə)" sözləri "yerli (regional) bölmələrinə" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 22 fevral tarixli 41 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 2, maddə 119 (Cild I); 2025, № 5, maddə 503, № 7, maddə 701; 2026, № 3, maddə 284) ilə təsdiq edilmiş "Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu haqqında Əsasnamə"nin 4-cü hissəsində "yerli maliyyə orqanlarının xəzinədarlığında" sözləri "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyinin xüsusi xəzinə hesabında" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 24 iyun tarixli 98 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 6, maddə 382 (Cild I); 2025, № 10, maddə 993) ilə təsdiq edilmiş "Düzgün tutulmamış və ya artıq ödənilmiş dövlət rüsumunun qaytarılması Qaydaları"nın 5.3-cü və 6.2-ci bəndlərinə "yerli" sözündən sonra "(regional)" sözü əlavə edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 2 avqust tarixli 123 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 534 (Cild I); 2026, № 2, maddə 173) ilə təsdiq edilmiş "İcra sənədinin verilməsi üçün əsas olan qərarın, habelə qanuna əsasən icra sənədi sayılan sənədin ləğv edilməsi ilə əlaqədar icraata xitam verildikdə, icra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclərin dövlət büdcəsi hesabına ödənilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

7.1. 3-cü hissəyə "Maliyyə Nazirliyi" sözlərindən sonra "(bundan sonra - Nazirlik)" sözləri əlavə edilsin;

7.2. 4-cü və 5-ci hissələrdə ismin müvafiq hallarında "Azərbaycan Respublikasının şəhər və rayon maliyyə idarə və şöbələri" sözləri ismin müvafiq hallarında "Nazirliyin yerli (regional) bölmələri" sözləri ilə əvəz edilsin.

8.Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 22 fevral tarixli 32 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 2, maddə 132 (Cild I) ilə təsdiq edilmiş "Fövqəladə vəziyyətin tətbiqi üçün əsas olmuş hallar nəticəsində və ya həmin halların, yaxud onların nəticələrinin aradan qaldırılması üçün müvafiq tədbirlərin tətbiq edilməsi ilə əlaqədar zərər çəkmiş şəxslərə yaşayış yerlərinin verilməsi, dəymiş maddi zərərin ödənilməsi, işə düzəlmək üçün yardım və digər zəruri köməklik göstərilməsi Qaydası"nın 3.1-ci bəndinin dördüncü abzasının üçüncü cümləsində "rayon (şəhər) yerli" sözləri "yerli (regional)" sözləri ilə əvəz edilsin və həmin abzasın dördüncü cümləsinə "yerli" sözündən sonra "(regional)" sözü əlavə edilsin.

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli 136 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 861 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddə 467, № 9, maddələr 1090, 1100; 2025, № 8, maddə 802, № 9, maddə 879, № 10, maddə 972, № 12 (II kitab), maddələr 1214, 1257; 2026, № 3, maddələr 262, 331; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 12 oktyabr tarixli Qərarı) ilə təsdiq edilmiş "İnzibati orqanların Təsnifatı"nda aşağıdakı dəyişikliklər edilsin:

9.1. aşağıdakı məzmunda 7.4-1-ci bənd əlavə edilsin:

"7.4-1. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Müəssisələrinin Monitorinqi Agentliyi";

9.2. 7.6-cı bənddə "rayon (şəhər) üzrə maliyyə idarə və şöbələri" sözləri "yerli (regional) bölmələri" sözləri ilə əvəz edilsin.

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 30 dekabr tarixli 219 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 12, maddə 1354 (Cild I); 2024, № 3, maddə 359, № 7, maddə 930; 2025, № 2, maddə 203) ilə təsdiq edilmiş "Vergi ödəyicisinə verilmiş elektron qaimə-faktura üzrə alınmış malların (iş və xidmətlərin) dəyəri ödənilərkən ƏDV-nin ödənilməsi, ƏDV-nin depozit hesabında uçotun aparılması, ƏDV-nin hərəkəti, bu hesab üzrə aparılan əməliyyatlardan ƏDV-nin əvəzləşdirilməsi və dövlət büdcəsinə köçürülməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

10.1. 1.1-ci bənddə "xəzinədarlıq orqanlarında" sözləri "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyində" sözləri ilə əvəz edilsin;

10.2. 1.2-ci bəndin ikinci abzasında "Dövlət Xəzinədarlığı" sözləri "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq" sözləri ilə əvəz edilsin;

10.3. 3.2-ci bəndin ikinci və dördüncü abzaslarında "yerli xəzinədarlıq orqanlarına" sözləri "hesablara" sözü ilə əvəz edilsin;

10.4. 3.1-ci bənddə, 4.2-ci bəndin üçüncü abzasında, 4.6-cı bəndin birinci və dördüncü (hər iki halda) abzaslarında "xəzinədarlıq orqanlarında" sözləri "DXA-da" sözləri ilə əvəz edilsin.

11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 14 oktyabr tarixli 242 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 10, maddə 931 (Cild I) ilə təsdiq edilmiş "Özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçisinə və ya bu səbəbdən həlak olmuş işçisinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə aylıq ödənc əvəzinə aylıq müavinətin təyin edilməsi və ödənilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

11.1. 2-ci hissəsinin üçüncü abzasına "yerli" sözündən sonra "(regional)" sözü əlavə edilsin;

11.2. 7-ci hissənin ikinci abzasında "Maliyyə İdarəsi (şöbəsi)" sözləri "Maliyyə Nazirliyinin yerli (regional) bölmələri" sözləri ilə əvəz edilsin.

12. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 dekabr tarixli 277 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 12, maddə 1115 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddələr 437, 449, 467, № 9, maddə 1100; 2025, № 9, maddə 879, № 10, maddə 972, № 12 (II kitab), maddələr 1206, 1214, 1242, 1257; 2026, № 3, maddə 262; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 9 sentyabr tarixli 278 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adları"nda aşağıdakı dəyişikliklər edilsin:

12.1. "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti" sözlərindən sonra "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Müəssisələrinin Monitorinqi Agentliyi" sözləri əlavə edilsin;

12.2. "Rayon, şəhər üzrə maliyyə idarə və şöbələri" sözləri "Yerli (regional) bölmələr" sözləri ilə əvəz edilsin.

13. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 12 oktyabr tarixli 165 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 10, maddə 854 (Cild I); 2024, № 1, maddə 105) ilə təsdiq edilmiş "Avropa Qonşuluq Siyasəti çərçivəsində həyata keçirilən proqramlar üzrə Avropa Komissiyası tərəfindən Azərbaycan Respublikasının dövlət büdcəsinə köçürüləcək vəsaitlərin istifadə mexanizmi"nin 2.8-ci bəndində "Xəzinədarlığı" sözü "Xəzinədarlıq" sözü ilə əvəz edilsin.

14. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 747 (Cild I); 2024, № 1, maddə 101, № 3, maddə 310, № 4, maddə 449, № 5 (II kitab), maddələr 572, 607, № 7, maddələr 895, 915, № 12 (II kitab), maddə 1428; 2025, № 9, maddə 879, № 10, maddələr 972, 996; 2026, № 3, maddələr 270, 272, № 7 (II kitab), maddələr 735, 765; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 8 sentyabr tarixli 269 nömrəli Qərarı) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri, hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)" cədvəlində aşağıdakı dəyişikliklər edilsin:

14.1. 9-cu hissənin "cəmi" sütununda "84" rəqəmləri "85" rəqəmləri ilə, "aparat üzrə" sütununda "18" rəqəmləri "19" rəqəmləri ilə əvəz edilsin;

14.2. 37-ci hissənin "cəmi" sütununda "13" rəqəmləri "15" rəqəmləri ilə, "aparat üzrə" sütununda "3" rəqəmi "5" rəqəmi ilə əvəz edilsin;

14.3. 38-ci hissənin "cəmi" sütununda "3" rəqəmi "4" rəqəmi ilə, "aparat üzrə" sütununda "3" rəqəmi "4" rəqəmi ilə əvəz edilsin;

14.4. 39-cu hissə üzrə:

14.4.1. "Orqanın adı" sütununda "Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı" sözləri "Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq" sözləri ilə əvəz edilsin;

14.4.2."cəmi" sütununda "26" rəqəmləri "28" rəqəmləri ilə əvəz edilsin;

14.4.3. "aparat üzrə" sütununda "3" rəqəmi "5" rəqəmi ilə əvəz edilsin.

15. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 502 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2166 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən idarə və təşkilatların büdcədənkənar vəsaitləri haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

15.1. 2.4-cü bənddə "rayon (şəhər) üzrə maliyyə idarələrinə (şöbələrinə)" sözləri "yerli (regional) bölmələrinə" sözləri ilə əvəz edilsin;

15.2. 2.8-ci bənddə "rayon (şəhər) maliyyə idarələrinin (şöbələrinin)" sözləri "yerli (regional) bölmələrinin" sözləri ilə əvəz edilsin;

15.3. 4.1-ci bənddə "xəzinədarlıq orqanlarında" sözləri "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyində" sözləri ilə əvəz edilsin;

15.4. 6.3-cü bəndə "yerli" sözündən sonra "(regional)" sözü əlavə edilsin.

16. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 12 aprel tarixli 164 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 758 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 15 oktyabr tarixli 341 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Büdcə təşkilatlarında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, təbii qaz və su) istehlakına görə limitlərin müəyyən edilməsi və tənzimlənməsi Qaydası"nın 2.2-ci bəndinin ikinci cümləsinə, 2.6-cı bəndinin üçüncü cümləsinə, 2.7-ci bəndinin ikinci cümləsinə, 2.8-ci bəndinə, 3.2-ci bəndinin üçüncü cümləsinə və 4.1-ci bəndinə "yerli" sözündən sonra "(regional)" sözü əlavə edilsin.

17. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 22 dekabr tarixli 505 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1606, (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə həmin Nazirliyin hesabına köçürülən vəsaitdən istifadə Qaydası"nın 2.1-ci bəndində "Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı" sözləri "Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq" sözləri ilə əvəz edilsin.

18. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 dekabr tarixli 516 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1617 (Cild I); 2024, № 5 (II kitab), maddə 606, № 9, maddə 1106; 2026, № 5 (II kitab), maddə 460) ilə təsdiq edilmiş "Xüsusi müsadirə edilmiş əmlakın dövlət nəfinə verilməsi Qaydası"nın 2.9-cu və 2.10-cu (hər üç halda) bəndlərinə "yerli" sözündən sonra "(regional)" sözü əlavə edilsin.

19. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 mart tarixli 110 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 3, maddə 282 (Cild I) ilə təsdiq edilmiş "Rayon aqrar islahat komissiyalarının (yerli icra hakimiyyəti orqanlarının) qərarları ilə təsdiq edilmiş siyahılara əsasən ləğv edilmiş sovxoz və kolxozların özəlləşdirilən torpaqlarından pay almış, lakin bu torpaqlar üzərində mülkiyyət hüququ rəsmiləşdirilməmiş şəxslərin müraciəti əsasında onlara hüquqmüəyyənedici sənədlərin verilməsi ilə bağlı göstərilən xidmətlərə görə xərclərin maliyyələşdirilməsi mexanizmi"nin 2.2-ci bəndində "Xəzinədarlığı" sözü "Xəzinədarlıq" sözü ilə əvəz edilsin.

20. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 31 iyul tarixli 252 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 7, maddə 1091 (Cild I); 2024, № 3, maddə 294) ilə təsdiq edilmiş "Dövlət arxiv xidməti işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və dövlət arxiv xidmətinin maddi-texniki bazasının yaxşılaşdırılması məqsədilə Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin hesabına köçürülən vəsaitdən istifadə Qaydası"nın 2.2-ci bəndində "Xəzinədarlığı" sözü "Xəzinədarlıq" sözü ilə əvəz edilsin.

21. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 8 dekabr tarixli 445 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (II kitab), maddə 1780 (Cild I); 2024, № 3, maddə 297) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində fəaliyyət göstərən sığortaedənlər (sığortaolunanlar) tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılması şərtləri, subsidiyaların ödənilməsi və bu sahədə nəzarətin həyata keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

21.1. 1.2-ci bənddə "Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı" sözləri "Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq" sözləri ilə əvəz edilsin;

21.2. 7 nömrəli əlavədə "Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı" sözləri "Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq" sözləri ilə əvəz edilsin.

22. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 dekabr tarixli 496 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (II kitab), maddə 1831 (Cild I); 2026, № 6, maddə 586) ilə təsdiq edilmiş "Dövlət satınalmalarının vahid internet portalından istifadə üçün ödənilən istifadə haqqının və təklifləri təqdim etmək üçün ödənilən iştirak haqqının məbləğləri, ödənilməsi, geri qaytarılması, ödənilmiş vəsaitlərin bölgüsü və onlardan istifadə Qaydaları"nın 3.1.2-ci yarımbəndində "Xəzinədarlığı" sözü "Xəzinədarlıq" sözü ilə əvəz edilsin.

23. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 avqust tarixli 373 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 8, maddə 989 (Cild I); 2026, № 6, maddə 586) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin 9.2-ci maddəsi ilə müəyyən edilmiş vəsaitin bölgüsü və ondan istifadə Qaydası"nın 2.2-ci bəndində "Xəzinədarlığı" sözü "Xəzinədarlıq" sözü ilə əvəz edilsin.

24. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 9 iyun tarixli 172 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2026, № 6, maddə 566) ilə təsdiq edilmiş "Xidməti parklanma yerləri təşkil olunan dövlət orqanlarının (qurumlarının) siyahısı, onlara ayrılan yerlərin sayı və həmin parklanma yerlərinin olduğu parklanma məntəqələrinin ünvanı"nın 72-ci hissəsində "Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı" sözləri "Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq" sözləri ilə əvəz edilsin.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

Milli Məclisin Sədri Sahibə Qafarova "Aqaba Prosesi" çərçivəsində Astanada keçirilmiş görüşdə iştirak edib



Noyabrın 6-da Qazaxıstanın paytaxtı Astana şəhərində "Süni intellekt sahəsində təhlükəsizlik" mövzusunda "Aqaba Prosesi" çərçivəsində Mərkəzi Asiya Dövlət Başçılarının Görüşü keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbirdə Qazaxıstan Prezidenti Qasım-Jomart Tokayev, İordaniya Kralı II Abdullah bin Əl-Hüseyn, Tacikistan Prezidenti Emoməli Rəhmon, Türkmənistan Prezidenti Serdar Berdımuhamedov, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarova, Qırğızıstanın xarici işlər naziri Cenbek Kulubayev və digər rəsmi şəxslər iştirak ediblər.

Milli Məclisin Sədri Sahibə Qafarova tədbirdə çıxış edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını və ən xoş arzularını görüş iştirakçılarına çatdırıb.

Spiker çıxışında Azərbaycanda rəqəmsal texnologiyalar və müasir innovasiyalar sahəsində görülən işlər və əldə olunan nailiyyətlər barədə məlumat verib.

"Azərbaycan"

Azərbaycan ilə BMT arasında əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub

Noyabrın 6-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan BMT Baş katibinin iqtisadi və sosial məsələlər üzrə müavini Li Junhuanla görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycan ilə BMT arasında əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, Azərbaycanın çoxtərəfli diplomatiyaya verdiyi töhfələr, habelə qlobal və regional gündəlikdə duran məsələlər müzakirə olunub.

Tərəflər Azərbaycanın BMT ilə əməkdaşlıqda fəal rolunu, habelə qlobal çağırışların həllinə töhfə verilməsi istiqamətində addımlarını məmnunluqla qeyd ediblər. Bu çərçivədə Azərbaycanın Qoşulmama Hərəkatı, COP29, BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyası (ESCAP), Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (CICA), Ümumdünya Şəhərsalma Forumu (WUF) və digər beynəlxalq platformalar çərçivəsində sədrlikləri, irəli sürdüyü təşəbbüslər, keçirdiyi yüksəksəviyyəli tədbirlər və əldə olunan nəticələr xüsusi vurğulanıb.

Ölkəmizdə noyabrın 5-6-da BMT İdarəetmə İnnovasiyaları Sammitinin uğurla keçirilməsinin əhəmiyyəti vurğulanaraq, Azərbaycanın innovativ dövlət idarəçiliyi sahəsində təcrübəsinin, xüsusilə "ASAN xidmət" modelinin beynəlxalq səviyyədə təşviqi və müxtəlif ölkələrdə tətbiqinin genişləndirilməsi istiqamətində görülən işlər qeyd olunub.

Nazir Azərbaycanın BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin 2030-cu ilədək həyata keçirilməsi prosesinə verdiyi töhfələr, bu istiqamətdə milli səviyyədə görülən tədbirlər, eləcə də beynəlxalq inkişaf gündəliyinə dəstək məqsədilə həyata keçirilən donorluq və humanitar fəaliyyət barədə məlumat verib.

Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında regional əməkdaşlığın genişləndirilməsinin, C6 formatının əhəmiyyəti vurğulanıb. Bu çərçivədə nəqliyyat və logistika bağlantılarının gücləndirilməsi, Orta dəhlizin potensialından səmərəli istifadə, ticarət və investisiya əlaqələrinin genişləndirilməsi, enerji təhlükəsizliyi, "yaşıl enerji", rəqəmsal transformasiya və regional tranzit imkanlarının inkişafı məsələlərinə toxunulub.

Nazir Ceyhun Bayramov işğaldan azad edilmiş ərazilərdə Azərbaycanın həyata keçirdiyi genişmiqyaslı bərpa və quruculuq işləri, keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıdışının təmin edilməsi, müasir infrastrukturun yaradılması və ərazilərin iqtisadi reinteqrasiyası istiqamətində görülən tədbirlər barədə qarşı tərəfi məlumatlandırıb. Bununla yanaşı, Ermənistanın işğalı dövründən qalmış mina və partlamamış hərbi sursat təhlükəsinin bərpa-quruculuq prosesinə, insanların təhlükəsizliyinə və dayanıqlı inkişafa yaratdığı ciddi manelər diqqətə çatdırılıb.

Tərəflər həmçinin mövcud qlobal və regional təhdidlər, beynəlxalq sülh və təhlükəsizliyə təsir edən çağırışlar, iqtisadi və sosial inkişafın təşviqi, eləcə də BMT çərçivəsində qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıblar.

Azərbaycan və Bolqarıstan XİN-ləri arasında siyasi məsləhətləşmələrin 6-cı raundu keçirilib

Noyabrın 5-6-da Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov Bolqarıstanda səfərdə olub.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, səfər zamanı Sofiya şəhərində Azərbaycanın Xarici İşlər Nazirliyi və Bolqarıstan Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələrin 6-cı raundu keçirilib. Nümayəndə heyətlərinə Azərbaycan tərəfindən nazir müavini Elnur Məmmədov, Bolqarıstan tərəfindən isə xarici işlər nazirinin müavini İvanka Taşeva başçılıq edib.

Siyasi məsləhətləşmələr zamanı iki ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin mövcud vəziyyəti və inkişaf perspektivləri, siyasi, iqtisadi, energetika, o cümlədən "yaşıl enerji" dəhlizləri, nəqliyyat-logistika və digər istiqamətlərdə əməkdaşlıq məsələləri geniş müzakirə olunub.

Tərəflər arasında ticarət dövriyyəsinin şaxələndirilməsi, qarşılıqlı sərmayələrin təşviqi məsələləri ilə bağlı ətraflı fikir mübadiləsi aparılıb. Görüşdə beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin və koordinasiyanın davam etdirilməsinin vacibliyi vurğulanıb.

Bununla yanaşı, humanitar, mədəniyyət, elm və təhsil sahələrində əlaqələrin genişləndirilməsi imkanları nəzərdən keçirilib, sözügedən istiqamətlərdə əməkdaşlığın ikitərəfli münasibətlərin mühüm tərkib hissəsi olduğu vurğulanıb.

Səfər çərçivəsində Bolqarıstanın xarici işlər naziri Velislava Petrova-Çamova nazir müavini Elnur Məmmədovla görüşüb. Görüşdə qarşılıqlı maraq kəsb edən məsələlər müzakirə edilib.

Nazir müavini Elnur Məmmədov həmçinin Bolqarıstanın Baş nazirin xarici siyasət üzrə müşaviri Rusi İvanov ilə görüşüb. Görüş zamanı ikitərəfli əlaqələrin genişləndirilməsi və əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

Nümayəndə heyətimiz daha sonra Bolqarıstan Xalq Məclisində Bolqarıstan-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun üzvləri və qrupun sədri Hamid Hamid, Xarici siyasət komitəsinin üzvləri və komitənin sədr müavini Slavi Vasilev ilə görüş keçirib. Aparılmış müzakirələr zamanı parlament diplomatiyasının təşviqi, qanunverici orqanlar arasında təmasların intensivləşdirilməsi və ikitərəfli əlaqələrin inkişafında parlamentlərarası münasibətlərin vacib rolu vurğulanıb.

Səfər zamanı nazir müavini Elnur Məmmədov Bolqarıstan Xarici İşlər Nazirliyinin Diplomatik İnstitutunun dinləyiciləri və Müqəddəs Kliment Ohridski adına Sofiya Universitetinin Tələbə Diplomatik Klubunun üzvləri qarşısında mühazirə ilə çıxış edib.

Parlament komitələrinin birgə iclasında 2027-ci ilin dövlət büdcəsinin layihəsi müzakirə olunub

Noyabrın 6-da Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya, Əmək və sosial siyasət, Səhiyyə, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitələrinin birgə iclasında "Azərbaycan Respublikasının 2027-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda müzakirəyə təqdim edilib.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi altında dövlətimizin inkişafı son illərdə və xüsusilə 2026-cı ildə davam edib. Diqqətə çatdırılıb ki, Milli Məclisə təqdim edilən 2027-ci ilin dövlət büdcəsi layihəsi Azərbaycanın cari ildə sosial-iqtisadi sahədə qazandığı nailiyyətləri əks etdirir və növbəti ilin əsas maliyyə proqramını formalaşdırır.

Əli Əhmədov çıxışında ölkəmizin bu gün reallaşdırdığı iqtisadi və sosialyönümlü layihələrdən, o cümlədən Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması istiqamətində həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işlərindən bəhs edib. O, görülən tədbirlər nəticəsində ölkədə iqtisadi fəallığın artdığını, məşğulluq səviyyəsinin yüksəldiyini, yeni iş yerlərinin açıldığını və bütün bunların Azərbaycan vətəndaşlarının ümumi rifahının yüksəlməsinə müsbət təsir göstərdiyini söyləyib.

İclasda maliyyə naziri Sahil Babayev "Azərbaycan Respublikasının 2027-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi barədə məlumat verib. Bildirilib ki, 2027-ci ilin və sonrakı üç ilin dövlət büdcəsi, icmal büdcəsi və ortamüddətli xərclər çərçivəsi hazırlanarkən ölkədə dayanıqlı iqtisadi artımın dəstəklənməsi, makroiqtisadi sabitliyin qorunması, əhalinin rifahı və sosial tədbirlərin tam maliyyələşdirilməsi, müdafiə qabiliyyətinin və təhlükəsizliyin təminatının gücləndirilməsi, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafı, rəqəmsal texnologiyalar və innovasiyaların tətbiqinin genişləndirilməsi, təhsil və səhiyyə sektorlarının inkişafının dəstəklənməsi, büdcə qaydasına əməl edilməsi, büdcə xərclərinin Dövlət Xəzinədarlığı vasitəsilə ünvanlı və səmərəli icrası, real sektorun inkişafının sürətləndirilməsi və digər istiqamətlər üzrə maliyyə təminatı dövlət büdcəsində və icmal büdcədə tam şəkildə formalaşdırılıb.

Nazir 2027-ci ilin əsas makroiqtisadi göstəricilərı ilə bağlı nəzərə çatdırıb ki, ümumi daxili məhsulun (ÜDM) 141 milyard manat, qeyri-neft-qaz sektoru üzrə ÜDM-in 109.1 milyard manat, xam neftin 1 barelinin orta illik qiyməti 65 dollar, orta illik inflyasiya 5.3 faiz, manatın məzənnəsinin 1 ABŞ dolları üçün 1.70 manat olması proqnozlaşdırılır. Bununla yanaşı, cari ilin sonuna dövlət borcumuzun ÜDM-ə nisbətinin 19.5 faiz olması proqnozlaşdırılır, Dövlət borcunun ÜDM-ə nisbətinə görə, Azərbaycanın dünyada ən aşağı borca malik ölkələrdən olduğu söylənilib. Bildirilib ki, strateji valyuta ehtiyatları 1 oktyabr tarixinə 89.4 milyard dollar təşkil edir. Neft Fondunun transferti 7 milyard dollar proqnozlaşdırılıb.

Nəzərə çatdırılıb ki, xərclər sosial-iqtisadi ehtiyaclara uyğun tərtib olunub. Belə ki, 2027-ci ildə icmal büdcə xərcləri qeyri-neft ÜDM-in 46.2 faizinə bərabər olacaq. Dövlət büdcəsinin 32.5 faizi məhz əsaslı xərclərə yönələcək. Regionların dotasiyadan asılılığı tamamilə aradan qaldırılacaq, Naxçıvana dotasiya isə cari illə müqayisədə 6.4 faiz azalaraq 198 milyon manat olacaq.

Bildirilib ki, icmal büdcə gəlirləri 47.6 milyard manat, dövlət büdcəsinin gəlirləri 39.3 milyard manat təşkil edəcək.

Təqdimata əsasən, icmal büdcə xərcləri 50.4 milyard manat, dövlət büdcəsinin xərcləri 42.4 milyard manat proqnozlaşdırılır. Sosialyönümlü xərclər 18.7 milyard manat, əsaslı xərclər 13,8 milyard manat, dövlət borclarına xidmətlərlə bağlı xərclər 2,2 milyard manat nəzərdə tutulur.

Müdafiə və milli təhlükəsizlik xərcləri 8.8 milyard manat, kənd təsərrüfatı üzrə 1.4 milyard manat, ətraf mühitin və təbiətin mühafizəsi üzrə 438.6 milyon manat, iqtisadi fəaliyyət xərcləri 8.9 milyard manat, dövlət əsaslı vəsait qoyuluşu 5.3 milyard manat müəyyən edilib. Sosial müdafiə və sosial təminat xərcləri üzrə 4.9 milyard manat, təhsil və elm xərcləri üzrə 5.4 milyard manat, səhiyyə xərcləri üzrə 2.1 milyard manat, beynəlxalq fəaliyyət xərcləri üzrə 561 milyon manat vəsait proqnozlaşdırılır.

Nazir büdcə kəsiri parametrləri ilə bağlı diqqətə çatdırıb ki, dövlət büdcəsinin kəsiri 3.1 milyard manat, icmal büdcənin kəsiri 2.8 milyard manat olaraq qiymətləndirilir.

Sonra iclasda iqtisadiyyat nazirinin müavini Anar Axundov çıxış edib. O, qlobal iqtisadi mühitdə qeyri-müəyyənliklərin davam etməsinə baxmayaraq, ölkəmizdə makroiqtisadi sabitliyin qorunduğunu, şaxələndirmə siyasətinin öz bəhrəsini verdiyini söyləyib. Bildirilib ki, cari ilin yanvar-sentyabr aylarında isə iqtisadi artım 1.5 faiz təşkil edib. Artımın strukturunda emal sənayesi, nəqliyyat və informasiya texnologiyaları önə çıxır. Ümumilikdə xidmət sektorunun bütün sahələrində artım qeydə alınıb. Bununla yanaşı, özəl sektorun investisiya fəallığı yüksəlir.

Diqqətə çatdırılıb ki, büdcə daxilolmaları üzrə də müsbət dinamika davam edir. Cari ilin 9 ayında qeyri-neft-qaz sektoru üzrə vergi daxilolmaları 13.6 faiz artaraq 10.3 milyard manat olub. Dövlət büdcəsinin qeyri-neft-qaz gəlirləri isə 9.3 faiz yüksəlib.

Nazir müavininin sözlərinə görə, qarşıdakı dövrdə iqtisadi siyasətin əsas istiqaməti ixracyönümlü, özəl investisiyalara əsaslanan və regionlarda yeni imkanlar yaradan iqtisadi artımın təmin edilməsidir. O qeyd edib ki, bu baxımdan iki istiqamət prioritet hesab olunur. O, müzakirəyə təqdim edilən büdcə layihəsinin ölkəmizin sosial-iqtisadi inkişaf prioritetləri baxımından mühüm əhəmiyyət kəsb etdiyini, dövlətimizin sabit və təhlükəsiz inkişafına, vətəndaşlarımızın rifahının daha da yüksəlməsinə xidmət edəcəyini söyləyib.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Azərbaycan Respublikasının 2027-ci il üçün dövlət büdcəsi layihəsinə dair Palatanın rəyini təqdim edib. Nəzərə çatdırılıb ki, dövlət maliyyəsinin idarə edilməsinin təkmilləşməsi, beynəlxalq təcrübəyə uyğunluğun təmin olunması, dövlət büdcəsinin gəlir və xərclərinin düzgün uçotunun aparılması istiqamətində Hesablama Palatasının əvvəlki rəylərində qeyd edilmiş əksər məsələlər təqdim olunmuş büdcə zərfində tam və ya qismən nəzərə alınıb. Qeyd olunub ki, 2027-ci ilin dövlət büdcəsi layihəsi ilə bağlı təqdim edilmiş məlumatlara əsasən, büdcə sisteminin vahidliyi, bu sistemə aid olan büdcələrin müstəqilliyi ilə bağlı təsbit edilmiş tələblər təmin olunub, layihə vahid büdcə təsnifatı tətbiq edilməklə tərtib edilib.

Bildirilib ki, əvvəlki ildən fərqli olaraq, büdcə zərfinə daxil edilən Azərbaycan Respublikası qanunlarının və digər normativ hüquqi aktların layihələri ilə yanaşı, həmin layihələrin uyğunluğu barədə arayışlar, hüquqi ekspertiza rəyləri, əsaslandırmalar, Azərbaycan Prezidentinin fərmanı ilə əlaqələr hazırlanmalı, dəyişiklik edilməli və ləğv edilməli aktların siyahısı, müqayisəli cədvəllər, layihələri hazırlamış vəzifəli şəxslərin siyahısı və digər aidiyyəti sənədlər də əlavə edilib.

Palata sədri təqdim edilən rəydə qanun layihəsinin maddələr üzrə təhlil olunduğunu qeyd edib. O, bəzi bəndlərin təkmilləşdirilməsinə ehtiyac olduğunu bildirərək, sənədin hazırlanmasında Hesablama Palatasının tövsiyələrinin nəzərə alındığını vurğulayıb.

İclasda əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev çıxış edərək bildirib ki, Prezident İlham Əliyevin islahatlar proqramına uyğun olaraq, 2027-ci ildə də dövlət və icmal büdcələrinin sosialyönümlülüyü qorunacaqdır. Dövlət başçısının tapşırığına əsasən, növbəti sosial islahat paketinin həyata keçirilməsi üçün 2027-ci ilin dövlət və icmal büdcələrində müvafiq maliyyə təminatı yaradılıb.

Nazir Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət istiqamətləri üzrə dövlət büdcəsindən ayrılacaq vəsaitlər, eləcə də Dövlət Sosial Müdafiə Fondunun (DSMF) 2027-ci il büdcəsinin əsas göstəriciləri barədə məlumat verib. Bildirilib ki, DSMF-nin gələn il üçün gəlirləri 9 milyard 221 milyon manat nəzərdə tutulur ki, bu da cari ilin müvafiq göstəricisindən 10,8 faiz çoxdur. Xərcləri isə 9 milyard 273 milyon manat həcmində olması proqnozlaşdırılır ki, bu da cari ilin müvafiq xərclərindən 789,5 milyon manat çoxdur. Qeyd olunub ki, fondun özünümaliyyələşdirmə imkanları davamlı genişlənir. Gələn il əmək pensiyalarının orta məbləğinin 639 manat, yaşa görə pensiyaların orta məbləğinin 680 manat olması proqnozlaşdırılır.

İşsizlikdən Sığorta Fondunun (İSF) 2027-ci il büdcəsinin göstəricilərinə toxunan nazir ölkədə məşğulluq səviyyəsinin yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində işsizliyin 5 faiz civarında sabit saxlanıldığını bildirib. Vurğulanıb ki, məşğulluğun strukturunda özəl sektorun payı davamlı artır. Ötən ilin eyni dövrü ilə müqayisədə özəl sektorda əmək müqavilələrinin sayı 59 min, ölkə üzrə əməkhaqqı fondu 8,5 faiz artıb. Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-iyun aylarında 52,2 min yeni iş yeri açılıb ki, bu da ötən ilin müvafiq dövründən 7 faiz çoxdur.

Nazir İcbari Tibbi Sığorta Fondunun 2027-ci il büdcəsinin əsas göstəriciləri barədə məlumat verərək bildirib ki, fondun gəlirləri 2 milyard 257 milyon manat nəzərdə tutulur ki, bu da 2026-cı il üzrə təsdiq olunmuş gəlirlərdən 281,2 milyon manat çoxdur.

Əhalinin dövlət büdcəsinin vəsaiti hesabına icbari tibbi sığortalanması məqsədilə 2027-ci ildə fonda dövlət büdcəsindən cari illə müqayisədə 200 milyon manat və ya 22,2 faiz çox olmaqla, 1,1 milyard manat vəsaitin ayrılması nəzərdə tutulur.

Fondun 2027-ci il üzrə ümumi xərclərinin 2 milyard 980 milyon manat həcmində olması proqnozlaşdırılır ki, bu da cari ilin təsdiqlənmiş göstəricisindən 358,7 milyon manat çoxdur. Xərclərin 2 milyard 565 milyon manatı tibb müəssisələri üzrə icbari tibbi sığorta ödənişləri və tibb heyətinin əməkhaqqı xərcləri üçün nəzərdə tutulub.

Bildirilib ki, növbəti ildə nazirlik tərəfindən imtiyazlı şəxslərə mənzillərin, avtomobillərin və reabilitasiya vasitələrinin verilməsi proqramları da davam etdiriləcək.

İclasda çıxış edən Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov və Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov 2027-ci ilin dövlət büdcəsi layihəsini müsbət qiymətləndirərək, ölkənin sosial-iqtisadi inkişafı, əhalinin rifahının yüksəldilməsi, enerji və ekoloji təhlükəsizliyin təmin olunması, eləcə də beynəlxalq əməkdaşlığın genişləndirilməsi istiqamətində nəzərdə tutulan tədbirlərin əhəmiyyətini vurğulayıblar. Bildirilib ki, büdcə layihəsi qarşıya qoyulan strateji vəzifələrin həyata keçirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Məsələ ətrafında müzakirələrdə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi sədrinin müavini Nigar Arpadarai, deputatlar Jalə Əliyeva, Asif Əsgərov, Asim Mollazadə, Pərvanə Vəliyeva, Nəsib Məhəməliyev, Elman Nəsirov, Soltan Məmmədov, Müşfiq Məmmədli çıxış edərək, növbəti ilin dövlət büdcəsi layihəsi ilə bağlı fikirlərini, rəy və təkliflərini bildiriblər, bəzi suallarını səsləndiriblər.

Maliyyə naziri Sahil Babayev və səhiyyə nazirinin müavini Rasim İsmayılov çıxışlarda qaldırılan məsələlərə aydınlıq gətiriblər.

Müzakirələrin sonunda "Azərbaycan Respublikasının 2027-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə edilib.

"Azərbaycan"

YAP nümayəndə heyəti ICAPP-ın 13-cü Baş Assambleyasında iştirak edib





Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə və Mərkəzi Aparatın Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Taleh Həsənzadədən ibarət nümayəndə heyəti noyabrın 5-6-da Koreya Respublikasının "Mincu" (Demokratik) Partiyası və Xalqın Gücü Partiyasının birgə evsahibliyi ilə Seul şəhərində keçirilən Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) 13-cü Baş Assambleyasında (BA) iştirak edib.

YAP-dan verilən məlumata görə, "Dəyişən dünyada etimadın bərpası" mövzusuna həsr olunmuş və 36 ölkədən 83 siyasi partiyanın nümayəndələrinin iştirak etdiyi 13-cü BA-nın açılış mərasimində Koreya Respublikasının Prezidenti Li Ce Myunun tədbir iştirakçılarına videomüraciəti təqdim olunub, "Mincu" (Demokratik) Partiyasının rəhbəri Kim Min-seok, Xalqın Gücü Partiyasının rəhbəri Canq Donq-hyeok, ICAPP Daimi Komitəsinin sədri Çunq Eu-yonq və Milli Assambleyanın Sədri Ço Ceonq-sik açılış nitqi ilə çıxış ediblər.

Daha sonra ICAPP-ın baş katibi Oh Sonq tərəfindən təşkilatın 2024-2026-cı illər ərzində fəaliyyətinə dair hesabat təqdim olunub. YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov da daxil olmaqla 5 ölkədən (Azərbaycan, Banqladeş, Çin, Malaziya, Vyetnam) nümayəndələr 13-cü BA-nın Büro sədrinin müavini seçiliblər. Həmçinin ICAPP Nizamnaməsinə təklif edilən dəyişikliklər müzakirə olunaraq qəbul edilib.

Baş Assambleyanın plenar sessiyalarında siyasi partiyalar arasında dialoqun inkişafı, qarşılıqlı etimadın möhkəmləndirilməsi, dayanıqlı sülh və sabitliyin təşviqi, demokratik idarəetmənin gücləndirilməsi, süni intellektin imkanlarından ümumi rifah naminə istifadə və iqlim dəyişikliyi ilə mübarizə kimi aktual məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Birinci plenar sessiyada çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsinin regionda sülh və əməkdaşlıq üçün yaratdığı yeni imkanlar, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan quruculuq işləri, idarəetmədə səmərəliliyin artırılması məqsədilə innovasiyaların tətbiqi və süni intellektin imkanlarından istifadə, eləcə də ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyi ilə mübarizə sahəsində ölkəmizin gördüyü işlərdən bəhs edib. Qeyd edib ki, YAP-ın təşkilatçılığı ilə 2022-ci ildən etibarən hər il iyunun 15-də Şuşa şəhərində keçirilən beynəlxalq konfransların siyasi dialoq və beynəlxalq partiyalararası əməkdaşlığın inkişafı baxımından böyük əhəmiyyəti var.

Noyabrın 6-da BA çərçivəsində keçirilən ICAPP Media Forumunun "Süni intellekt transformasiyası" mövzusunda 8-ci iclasında çıxış edən Milli Məclisin deputatı, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə müasir informasiya mühitində süni intellektin jurnalistikaya təsiri, dezinformasiyaya qarşı mübarizə və etibarlı informasiya mühitinin qorunmasının əhəmiyyəti, Azərbaycanın rəqəmsal transformasiya təcrübəsi və süni intellektin imkanlarından səmərəli istifadə sahəsində görülən işlərdən bəhs edib.

Bağlanış sessiyasında plenar sessiyaların və ICAPP Media Forumunun 8-ci iclasının nəticələrinə dair hesabatlar təqdim olunub, Seul Bəyanatı qəbul edilib. Yekunda 14-cü Baş Assambleyaya 2028-ci ildə evsahibliyi edəcək Vyetnam Kommunist Partiyasının nümayəndələrinə təşkilatın bayrağı və sədr çəkicinin təqdim edilməsi mərasimi keçirilib.

Təhminə VERDİYEVA,
"Azərbaycan"

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası olub

Noyabrın 6-da Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin növbəti iclası keçirilib. Milli Məclisin Mətbuat və İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Azər Əmiraslanov gündəliyə üç məsələnin daxil edildiyini bildirib.

Dövlət büdcəsi zərfinə daxil olan qanun layihələri barədə danışan komitə sədri bildirib ki, büdcə zərfi iqtisadiyyatın inkişafını və iqtisadi fəallığın artırılmasını təmin edən mexanizmləri, stimullaşdırıcı tədbirləri, habelə vergi güzəştlərini özündə ehtiva edir.

Maliyyə Nazirliyi Aparat rəhbərinin müavini Asif Qasımov gündəliyin birinci məsələsi - Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Miqrasiya Məcəlləsində, "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda, 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə, "Pasportlar haqqında", "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Müflisləşmə və iflas haqqında", "Yol hərəkəti haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında", "Valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Notariat haqqında", "Dövlət rüsumu haqqında", "İcra haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Baytarlıq haqqında", "Fitosanitar nəzarəti haqqında" və "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda təqdim edib.

Qeyd edilib ki, qanun layihəsində edilən dəyişikliklər dövlət rüsumlarının tətbiqi ilə bağlı qanunvericilikdə mövcud olan pərakəndəliyin aradan qaldırılması, hüquqi normaların vahid yanaşma əsasında tənzimlənməsi və hüquq tətbiqi praktikasında yaranan çətinliklərin aradan qaldırılmasını nəzərdə tutur. Bu məqsədlə dövlət rüsumundan azadolma və güzəştlərlə bağlı müddəaların vahid qanunda cəmləşdirilməsi, digər normativ hüquqi aktlarda təkrarlanan və ya fərqli yanaşmalara səbəb olan normaların uyğunlaşdırılması təklif edilir. Eyni zamanda artıq və ya düzgün tutulmamış dövlət rüsumlarının elektron informasiya sistemi vasitəsilə geri qaytarılması mexanizminin qanunvericiliklə tənzimlənməsi, habelə baytarlıq sahəsində göstərilən xidmətlər üzrə dövlət rüsumlarının tətbiqinə yenidən baxılması nəzərdə tutulur. Dəyişikliklər dövlət rüsumlarının tənzimlənməsində şəffaflığın və səmərəliliyin artırılmasına, inzibati prosedurların sadələşdirilməsinə və sahibkarlıq subyektlərinin maliyyə yükünün optimallaşdırılmasına xidmət edəcək.

Sonra Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli gündəliyin növbəti məsələsi - Azərbaycan Respublikasının Meşə Məcəlləsində, Cinayət Məcəlləsində, Vergi Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Yerin təki haqqında", "Tullantılar haqqında", "Heyvanlar aləmi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Tibbi sığorta haqqında", "Avtomobil yolları haqqında", "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında", "Büdcə sistemi haqqında", "Dövlət borcu haqqında", "Gömrük tarifi haqqında", "Yaşıllıqların mühafizəsi haqqında", "Nağdsız hesablaşmalar haqqında", "Hesablama Palatası haqqında", "Dövlət satınalmaları haqqında" və "Balıqçılıq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda təqdim edib.

O, Vergi Məcəlləsinə təklif olunan dəyişikliklərin vergi inzibatçılığının təkmilləşdirilməsi, biznes və investisiya mühitinin yaxşılaşdırılması, sahibkarlığın stimullaşdırılması, vergitutma bazasının genişləndirilməsi və fiskal dayanıqlılığın təmin edilməsinə yönəldiyini bildirib. Qeyd olunub ki, dəyişikliklər sahibkarlarla aparılan müzakirələr və onların təklifləri nəzərə alınmaqla hazırlanıb. Yeni yanaşmaların sahibkarların maliyyə və inzibati yükünün azaldılmasına, vergi nəzarətinin gücləndirilməsinə və iqtisadi fəallığın artırılmasına xidmət edəcəyi vurğulanıb.

Dövlət Vergi Xidmətinin Vergi siyasəti baş idarəsinin rəisi Nicat İmanov qanun layihəsinin slaydlarla müşayiət olunan təqdimatında 2027-ci ilin büdcə-vergi siyasəti çərçivəsində vergi qanunvericiliyinə təklif olunan dəyişikliklərin əsas istiqamətləri, müxtəlif iqtisadi sahələr üzrə vergi güzəştləri, sahibkarlığın və investisiyaların təşviqi, vergitutma bazasının genişləndirilməsi, vergi nəzarətinin gücləndirilməsi və vergi inzibatçılığının təkmilləşdirilməsi barədə ətraflı məlumat verib.

Hesablama Palatasının Hüquqi təminat və keyfiyyətə nəzarət şöbəsinin müdiri Nuranə Səfərova və Dövlət Gömrük Komitəsinin Daxilolmalara Nəzarət Baş İdarəsinin rəisi Faiq Orucov da qanun layihəsinin aidiyyəti istiqamətləri barədə fikirlərini söyləyiblər.

Gündəliyin sonuncu məsələsi - Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Mülki Prosessual Məcəlləsində, Ailə Məcəlləsində, Mülki Məcəlləsində, Seçki Məcəlləsində, Rəqabət Məcəlləsində, "Hərbi qulluqçuların statusu haqqında", "Azərbaycan Respublikasında vətəndaşların pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Həmkarlar ittifaqları haqqında", "Sosial sığorta haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Yaşayış minimumu haqqında", "Sosial müavinətlər haqqında", "Təhsil haqqında", "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Məktəbəqədər təhsil haqqında", "İşsizlikdən sığorta haqqında", "Ümumi təhsil haqqında", "Siyasi partiyalar haqqında", "Diplomatik xidmət haqqında" və "Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsinə (birinci oxunuş) haqqında Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəisi Vəli Quliyev məlumat verib.

O, qanun layihəsində əmək münasibətlərinin tənzimlənməsinin təkmilləşdirilməsi məqsədilə dəyişikliklərin nəzərdə tutulduğunu söyləyib. Belə ki, minimum saatlıq əməkhaqqı sisteminin tətbiqi, əməkhaqqı ödənişlərinin elektronlaşdırılması və bu sahədə dövlət nəzarətinin gücləndirilməsi, uşağa qulluğa görə müavinət almaq hüququnun müəyyən edilməsinə dair tələblərin təkmilləşdirilməsi, habelə əmək məzuniyyəti hüququnun təmin edilməsi ilə bağlı müddəaların dəqiqləşdirilməsi təklif olunur. Qeyd olunub ki, dəyişikliklər əmək münasibətlərində şəffaflığın artırılmasına, işçi hüquqlarının qorunmasına, qeyri-formal məşğulluğun qarşısının alınmasına və əmək qanunvericiliyinin təkmilləşdirilməsinə xidmət edəcək.

İclasda komitənin sədri Azər Əmiraslanov, komitənin sədr müavini Azər Badamov, üzvləri Ziyad Səmədzadə, Əli Məsimli, Tahir Mirkişili, Aydın Hüseynov, Vüqar Bayramov, Əlibala Məhərrəmzadə çıxış edərək təklif olunan dəyişikliklərlə bağlı fikirlərini bildiriblər, qeydlərini və suallarını səsləndiriblər.

Maliyyə Nazirliyi Aparat rəhbərinin müavini Asif Qasımov, Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli, Vergi siyasəti baş idarəsinin rəisi Nicat İmanov qaldırılan məsələlərə aydınlıq gətiriblər.

İclasda qanun layihələri birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

"Azərbaycan"

Baş Prokurorluqda Zəfər Günü münasibətilə tədbir keçirilib

Ölkəmizin ərazi bütövlüyünün bərpasının, əzəli və əbədi torpaqlarımızın azadlığının təcəssümü olan 8 Noyabr - Zəfər Günü münasibətilə noyabrın 6-da Baş Prokurorluqda tədbir keçirilib.



Əvvəlcə Baş Prokurorluğun rəhbər heyəti xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü önünə gül dəstələri qoyaraq dahi şəxsiyyətin xatirəsini ehtiramla yad edib.

Tədbirdə şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla anıldıqdan sonra Dövlət Himni səsləndirilib.

Baş prokuror Kamran Əliyev prokurorluq əməkdaşlarını, veteranları və xalqımızı bayram münasibətilə təbrik edib. O, çıxışında Zəfər Gününün Azərbaycan xalqının milli qürurunun, dövlətimizin qüdrətinin, suverenliyinin və tarixi ədalətin bərpasının rəmzi olduğunu vurğulayıb.

Bildirilib ki, bu tarixi Qələbə Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi dövlətçilik strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi, ölkəmizin iqtisadi və hərbi qüdrətinin artırılması, müasir ordu quruculuğu, müstəqil siyasət və xalqımızın birliyi nəticəsində mümkün olub. Ulu Öndərin hakimiyyətə qayıdışından sonra ölkədə siyasi sabitliyin təmin edilməsi, dövlət institutlarının möhkəmləndirilməsi və iqtisadi müstəqilliyin əsaslarının yaradılması gələcək Zəfərin möhkəm təməlini formalaşdırıb.

Baş prokuror 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı tarixi Qələbənin xalqımızın həmrəyliyinin və milli iradəsinin təntənəsi olduğunu, 2023-cü ilin sentyabrında keçirilmiş antiterror tədbirləri nəticəsində ölkəmizin bütün ərazisində dövlət suverenliyinin tam bərpa edildiyini diqqətə çatdırıb.

Zəfərdən sonrakı dövrə toxunularaq Prezident İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban Əliyevanın yaxından iştirakı ilə Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-quruculuq işlərinin aparıldığı, Böyük qayıdışın təmin edilməsi, tarixi-mədəni irsimizin qorunması və mina təhlükəsinin aradan qaldırılması istiqamətində ardıcıl tədbirlərin həyata keçirildiyi bildirilib.

Baş prokuror Vətən müharibəsi dövründə prokurorluq əməkdaşlarının mürəkkəb şəraitdə xidməti vəzifələrini layiqincə yerinə yetirərək qanunçuluğun təmin olunmasına töhfə verdiklərini qeyd edib. Həmçinin Ermənistanın təcavüzü və işğal dövründə törədilmiş cinayətlərlə bağlı toplanmış sübutlar əsasında keçmiş qondarma rejimin bir sıra "rəhbər" şəxslərinin cinayət məsuliyyətinə cəlb edildiyi və layiqli cəzaya məhkum olunduqları vurğulanıb.

Daha sonra prokurorluğun veteranı Munis Abuzərli çıxış edərək Zəfər Gününün xalqımızın tarixindəki müstəsna əhəmiyyətindən, tarixi Qələbənin əldə olunmasında dövlətimizin qətiyyətli siyasətindən və Azərbaycan Ordusunun qəhrəmanlığından bəhs edib.

Vətən müharibəsi iştirakçısı, Nizami Rayon Prokurorluğunun müstəntiqi Orxan Babayev isə çıxışında Vətənin müdafiəsində iştirak etməyin onun üçün böyük qürur olduğunu bildirib.

Sonda Azərbaycan Televiziyası tərəfindən Vətən müharibəsinə və qazanılmış şanlı Zəfərə həsr olunmuş "Qızıl payız" sənədli filmi nümayiş etdirilib.

"Azərbaycan"



AZƏRBAYCANIN ŞƏRƏF VƏ QÜRUR TARİXİ

ŞANLI ZƏFƏR - 6 İL

8 Noyabr Şuşa Şəhəri Günüdür

Şuşa - Şanlı Zəfərimizin rəmzi



Milli qürurumuzun ünvanı

"Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

Azərbaycan xalqının çoxəsrlik tarixində elə hadisələr var ki, onlar yalnız bir dövrün deyil, bütöv bir millətin taleyini dəyişir, onun gələcək inkişaf istiqamətini müəyyənləşdirir. 2020-ci il noyabrın 8-də qədim Şuşa şəhərinin işğaldan azad edilməsi məhz belə tarixi hadisələrdəndir. Həmin gün Azərbaycan xalqının ədalət uğrunda apardığı uzunmüddətli mübarizə özünün ən möhtəşəm zirvəsinə yüksəldi. Şuşanın azadlığı təkcə hərbi qələbə deyil, milli ləyaqətimizin, tarixi yaddaşımızın və dövlətçilik iradəmizin təntənəsi oldu.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2020-ci il noyabrın 8-də səsləndirdiyi bu tarixi bəyanat təkcə bir şəhərin işğaldan azad edilməsinin müjdəsi deyil, bütövlükdə Azərbaycan xalqının milli iradəsinin, tarixi ədalətin və dövlətçilik əzminin təntənəsi idi. Həmin gün Şuşa azadlığına qovuşmaqla Azərbaycan tarixinin yeni səhifəsini açdı. Bu səhifə hərbi Zəfərlə başlasa da, sonrakı illərdə genişmiqyaslı bərpa-quruculuq, doğma yurda qayıdış, milli-mədəni irsin dirçəldilməsi və beynəlxalq əməkdaşlıq prosesləri ilə davam etdi.

Bu gün Şuşa Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin, milli həmrəyliyinin, tarixi yaddaşının və gələcəyə yönəlmiş inkişaf strategiyasının mühüm rəmzlərindəndir.

Qarabağ Zəfərinin əsasında uzun illər ərzində həyata keçirilmiş ardıcıl və məqsədyönlü dövlət siyasəti dayanır. Bu siyasətin təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş, Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni geosiyasi və iqtisadi reallıqlar nəzərə alınmaqla daha da inkişaf etdirilmişdir.

Müstəqil Azərbaycanın iqtisadi potensialının gücləndirilməsi, beynəlxalq mövqelərinin möhkəmləndirilməsi, milli ordunun müasirləşdirilməsi və hərbi qüdrətinin artırılması torpaqlarımızın azad olunması üçün zəruri zəmini formalaşdırdı. Azərbaycan diplomatik müstəvidə beynəlxalq hüquqa əsaslanan prinsipial mövqeyini qoruyub saxladı, eyni zamanda hərbi potensialını gücləndirərək öz ərazi bütövlüyünü təmin etmək iqtidarında olan dövlətə çevrildi.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi bu uzunmüddətli strategiyanın tarixi nəticəsi oldu. 44 gün davam edən müharibə ərzində Azərbaycan Ordusu işğal altındakı ərazilərin böyük hissəsini azad etdi. Bu Zəfərin ən mühüm mərhələlərindən biri isə noyabrın 8-də Şuşanın azad olunması idi.

Şuşa əməliyyatı hərbi tariximizdə xüsusi yer tutur. Çətin relyef şəraitində, sıldırım qayalar və keçilməz dağ yolları boyunca həyata keçirilən döyüş əməliyyatları Azərbaycan əsgərinin qəhrəmanlığını, peşəkarlığını və yüksək döyüş ruhunu nümayiş etdirdi.

Şuşanın azad olunması ilə Azərbaycanın hərbi-siyasi üstünlüyü daha da möhkəmləndi və 2020-ci il noyabrın 10-da üçtərəfli Bəyanatın imzalanması ilə müharibə başa çatdı.

Azərbaycanın hərbi Zəfəri sonrakı mərhələdə də dövlətin prinsipial siyasəti ilə davam etdirildi. 2023-cü il sentyabrın 19-20-də həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində Qarabağda separatizmin mövcudluğuna son qoyuldu, ölkəmizin suverenliyi bütün ərazilərində bərpa edildi.

Şuşanın azad edilməsindən sonra qarşıda duran əsas vəzifələrdən biri şəhərin tarixi simasının qorunması, infrastrukturunun yenidən qurulması və sakinlərin doğma yurda qayıdışının təmin edilməsi idi.

Prezident İlham Əliyevin 2021-ci il mayın 7-də imzaladığı sərəncamla Şuşa Azərbaycanın mədəniyyət paytaxtı elan edildi. Həmin il mayın 31-də qəbul edilmiş "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" qanun şəhərin qorunması, bərpası, öyrənilməsi, inkişafı və təbliğinin hüquqi əsaslarını müəyyənləşdirdi. 2022-ci ilin "Şuşa İli" elan edilməsi isə şəhərin milli-mədəni həyatımızdakı yerinin daha da möhkəmləndirilməsinə xidmət etdi.

Şuşanın beynəlxalq mədəniyyət məkanında mövqeyinin gücləndirilməsi də mühüm istiqamətlərdən biri oldu. Şəhər 2023-cü ildə türk dünyasının, 2024-cü ildə isə islam dünyasının mədəniyyət paytaxtı elan edildi. 2026-cı ildə isə İqtisadi Əməkdaşlıq Təşkilatının turizm paytaxtı statusunu daşıması Şuşanın beynəlxalq turizm və mədəni əməkdaşlıq potensialının genişləndiyini göstərir.

Şuşada aparılan bərpa-quruculuq işləri kompleks yanaşma əsasında həyata keçirilir. Zəfər yolunun istifadəyə verilməsi, yeni yaşayış komplekslərinin inşası, elektrik, su və digər kommunikasiya infrastrukturunun qurulması, sosial xidmət obyektlərinin yaradılması şəhərin müasir inkişafının əsasını təşkil edir.

Tarixi-mədəni irsin qorunması bu prosesin ayrılmaz hissəsidir. Vaqifin muzey-məqbərə kompleksinin, Bülbülün ev-muzeyinin, Üzeyir Hacıbəylinin ev-muzeyinin, məscidlərin və digər tarixi abidələrin bərpası Şuşanın yaddaşının və milli kimliyinin qorunmasına xidmət edir. Natəvanın, Bülbülün və Üzeyir bəy Hacıbəylinin işğal dövründə güllələnmiş büstlərinin yenidən öz yerlərinə qaytarılması isə tarixi ədalətin və milli-mədəni irsə ehtiramın rəmzinə çevrilib.

2024-cü ildə birinci yaşayış kompleksinin istifadəyə verilməsi və ilk sakinlərin Şuşaya qayıdışı Böyük qayıdış prosesində mühüm mərhələ oldu. Sonrakı dövrdə yeni yaşayış layihələrinin həyata keçirilməsi, məktəb, xəstəxana, xidmət və turizm infrastrukturunun yaradılması şəhərin davamlı məskunlaşması üçün imkanları genişləndirdi.

Şuşanın 2040-cı ilədək inkişafına dair Baş planın təsdiqlənməsi də bu prosesin uzunmüddətli və sistemli xarakter daşıdığını göstərir. Baş planda şəhərin tarixi memarlıq quruluşunun qorunması, təbii landşaftın mühafizəsi, müasir nəqliyyat və mühəndis-kommunikasiya sistemlərinin yaradılması, sosial xidmətlərin əlçatanlığının təmin edilməsi əsas prioritetlərdir.

2026-cı il Şuşanın bərpası, sakinlərinin məskunlaşması və beynəlxalq əlaqələrinin genişləndirilməsi baxımından əlamətdar mərhələ oldu. Bu ilin hadisələri şəhərin inkişaf strategiyasının artıq ilkin quruculuq mərhələsindən daha geniş sosial-iqtisadi və beynəlxalq inteqrasiya mərhələsinə keçdiyini nümayiş etdirir.

İlk növbədə, Şuşada məskunlaşma prosesinin dinamikası xüsusi qeyd edilməlidir. 23 oktyabr 2026-cı il tarixinə şəhərdə 377 ailə olmaqla 1 411 nəfər, Böyük Qaladərəsi kəndində 17 ailə olmaqla 78 nəfər, Kiçik Qaladərəsi kəndində isə 26 ailə olmaqla 90 nəfər məskunlaşıb. Beləliklə, ümumilikdə 420 ailə, 1 579 nəfər doğma yurduna qayıdaraq bu ərazilərdə yeni həyat qurmağa başlayıb.

Bu rəqəmlər "Böyük qayıdış" proqramının real nəticələrini əks etdirməklə yanaşı, Şuşanın gələcək inkişafında insan amilinin əsas prioritet olduğunu göstərir. Çünki şəhərin dirçəlişi yalnız yeni binaların və infrastruktur obyektlərinin inşası ilə ölçülmür. Əsl dirçəliş insanların doğma torpaqlarında yaşaması, işləməsi, təhsil alması və sosial həyatın yenidən formalaşması ilə mümkündür.

2026-cı il mayın 28-də Prezident İlham Əliyevin Şuşa rayonunun Böyük Qaladərəsi kəndinə səfəri, burada görülən işlərlə tanış olması və sakinlərlə görüşü kənd yaşayış məntəqələrinin də bərpa və məskunlaşma prosesinin diqqət mərkəzində saxlanıldığını göstərdi.

İyunun 23-də Azərbaycan və Türkmənistan prezidentlərinin Şuşaya səfərləri isə şəhərin beynəlxalq diplomatik məkan kimi rolunun davam etdiyini nümayiş etdirdi. Səfər çərçivəsində yaşayış kompleksi, Şuşa məscidində aparılan tikinti işləri, Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Yaradıcılıq Mərkəzi, Azərbaycanın görkəmli şəxsiyyətlərinin büstləri, Bülbülün ev-muzeyi və Cıdır düzü ziyarət olundu. Bu proqram Şuşanın həm milli-mədəni irs, həm də Azərbaycan-Türkmənistan münasibətlərinin möhkəmləndirilməsi baxımından əhəmiyyətini bir daha önə çıxardı.

İyulun 11-də Prezident İlham Əliyevin Şuşanın Kiçik Qaladərəsi kəndinə səfəri və sakinlərlə görüşü, eləcə də bir sıra mühüm layihələrlə tanışlığı şəhərin və ətraf yaşayış məntəqələrinin inkişafında növbəti mərhələnin göstəricisi oldu. Həmin gün tarix-memarlıq abidəsi olan Sadıqcanın evinin bərpadan sonra açılması xüsusi əhəmiyyət daşıyır. Bu hadisə Şuşanın zəngin musiqi irsinin qorunması və tarixi şəxsiyyətlərin xatirəsinin yaşadılması istiqamətində görülən işlərin davamıdır.

Bununla yanaşı, Qarabağ küçəsində dövlət-özəl tərəfdaşlığı çərçivəsində həyata keçirilən layihələr və "Yasəmən" hotelinin yeni korpusları ilə bağlı işlər şəhərin turizm və xidmət sektorunun inkişaf etdiyini göstərir.

İyulun 13-də IV Şuşa Qlobal Media Forumunun açılışı şəhərin beynəlxalq informasiya və ictimai diplomatiya platforması kimi əhəmiyyətini bir daha təsdiqlədi. Müxtəlif ölkələrdən media nümayəndələrinin, ekspertlərin və beynəlxalq təşkilatların təmsilçilərinin iştirakı ilə keçirilən bu forum Azərbaycanın regional və qlobal gündəmlə bağlı mövqeyinin təqdim olunması, beynəlxalq informasiya mühitində əməkdaşlığın genişləndirilməsi üçün mühüm imkan yaradır.

İyulun 14-də Slovakiya Prezidenti Peter Pelleqrinininin Şuşaya səfəri isə şəhərin Avropa ölkələri ilə siyasi dialoq və diplomatik təmaslar baxımından əhəmiyyətini ön plana çıxardı. Dövlət başçılarının təkbətək və geniş tərkibdə görüşləri, mətbuata bəyanatları, həmçinin Azərbaycanın tanınmış şəxsiyyətlərinin işğal dövründə güllələnmiş büstlərinə birgə baxış Şuşanın beynəlxalq siyasi gündəmdəki yerini və Azərbaycan həqiqətlərinin təqdim olunması baxımından rolunu nümayiş etdirdi.

Şuşanın beynəlxalq əhəmiyyəti onun coğrafi mövqeyi və tarixi irsi ilə məhdudlaşmır. Şəhərdə keçirilən beynəlxalq tədbirlər, yüksəksəviyyəli görüşlər və müxtəlif ölkələrin dövlət başçılarının səfərləri Şuşanın Azərbaycanın xarici siyasətində xüsusi yer tutduğunu göstərir.

2021-ci il iyunun 15-də Azərbaycan və Türkiyə prezidentləri tərəfindən Şuşa Bəyannaməsinin imzalanması şəhərin müasir siyasi tarixində xüsusi hadisə oldu. Bu sənəd iki ölkə arasında müttəfiqlik münasibətlərini rəsmiləşdirməklə Azərbaycan-Türkiyə strateji tərəfdaşlığını daha yüksək mərhələyə yüksəltdi.

Sonrakı illərdə Özbəkistan, Belarus, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Birləşmiş Ərəb Əmirlikləri və Slovakiya kimi ölkələrin dövlət və hökumət nümayəndələrinin Şuşaya səfərləri şəhərin beynəlxalq əlaqələr sistemində artan rolunu nümayiş etdirdi.

Türk Dövlətləri Təşkilatının 2024-cü il iyulun 6-da Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşü və imzalanan Qarabağ Bəyannaməsi bu baxımdan xüsusi siyasi əhəmiyyət daşıyır. Şuşanın türk dünyasının ortaq tarixi və mədəni dəyərlərinin təbliğ olunduğu platformaya çevrilməsi Azərbaycanın türk dövlətləri arasında əməkdaşlığın inkişafına verdiyi töhfəni də nümayiş etdirir.

Digər tərəfdən, Şuşa Qlobal Media Forumları şəhərin beynəlxalq informasiya mühitində rolunu genişləndirir. Bu tədbirlər vasitəsilə Azərbaycan özünün regional təhlükəsizlik, beynəlxalq münasibətlər, informasiya müharibəsi, dezinformasiya ilə mübarizə və qlobal çağırışlarla bağlı mövqeyini beynəlxalq auditoriyaya çatdırmaq imkanı əldə edir.

Bütün bunlar Şuşanın siyasi dialoq, beynəlxalq əməkdaşlıq və mədəni diplomatiya mərkəzi kimi formalaşdığını göstərir.

2020-ci il noyabrın 8-də Şuşada ucaldılan Zəfər ruhu sonrakı illərdə həyata keçirilən bütün layihələrin mənəvi əsasını təşkil edir. Bu gün şəhərdə dalğalanan üçrəngli bayrağımız, yenidən səslənən muğamımız, bərpa olunan tarixi abidələrimiz və doğma yurduna qayıdan sakinlərimiz Şuşanın öz sahibinə qayıtması və yeni inkişaf yoluna qədəm qoyması həqiqətini təsdiqləyir.

Şuşanın taleyi Azərbaycanın müasir tarixinin, milli iradəsinin və dövlətçilik qüdrətinin təcəssümüdür. Onun azadlığı Zəfərimizin zirvəsi, dirçəlişi isə gələcəyə inamımızın ifadəsidir.

Ziyafət ƏSGƏROV,
Azərbaycan Respublikası
Milli Məclisinin Sədr müavini

Bu gün Şuşanın azad edilməsindən altı il ötür. Ötən müddət ərzində Azərbaycanın mədəniyyət paytaxtı yalnız işğaldan azad edilmiş tarixi şəhər kimi deyil, həm də müasir Azərbaycanın qüdrətini, quruculuq əzmini və gələcəyə inamını nümayiş etdirən mühüm mərkəz kimi yeni inkişaf mərhələsinə qədəm qoyub.

Güclü dövlətin və milli birliyin tarixi nəticəsi

Şuşanın azad edilməsinə aparan yol təsadüfi deyildi. Bu yolun siyasi və ideoloji təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl dövlət siyasəti nəticəsində Azərbaycanın iqtisadi, siyasi və hərbi qüdrəti əhəmiyyətli dərəcədə gücləndirilmişdir.

Müzəffər Ali Baş Komandan İlham Əliyev uzun illər ərzində ölkəmizin müdafiə qabiliyyətinin artırılmasını, güclü ordunun formalaşdırılmasını, beynəlxalq müstəvidə Azərbaycanın haqlı mövqeyinin müdafiəsini dövlət siyasətinin əsas prioritetlərindən birinə çevirdi.

2020-ci ilin sentyabrın 27-də başlayan Vətən müharibəsi göstərdi ki, Azərbaycan xalqının öz torpaqlarını azad etmək iradəsi sarsılmazdır. 44 gün davam edən hərbi əməliyyatlar zamanı Azərbaycan Ordusu yüksək peşəkarlıq, qəhrəmanlıq və döyüş qabiliyyəti nümayiş etdirdi.

Şuşa əməliyyatı isə dünya hərb tarixində özünəməxsus yer tutan nadir əməliyyatlardan biri oldu. Azərbaycan əsgərləri mürəkkəb dağlıq relyefdə, sıldırım qayaları və keçilməz hesab edilən mövqeləri aşaraq şəhəri azad etdilər. Bu əməliyyat ordumuzun yalnız texniki və hərbi üstünlüyünü deyil, Azərbaycan əsgərinin mənəvi gücünü, vətənpərvərliyini və fədakarlığını da bütün dünyaya nümayiş etdirdi.

Prezident İlham Əliyevin 2020-ci il noyabrın 8-də Şəhidlər xiyabanından xalqa müraciəti zamanı səsləndirdiyi tarixi sözlər xalqımızın yaddaşına əbədi həkk olundu: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!"

Bu sözlərdə həm böyük Zəfərin sevinci, həm də gələcək quruculuğun siyasi və mənəvi proqramı ifadə olunurdu. Şuşanın azad edilməsi ilə Azərbaycan xalqı yalnız tarixi torpağına qayıtmadı, həm də öz gücünə, birliyinə və gələcəyinə olan inamını daha da möhkəmləndirdi.

Azərbaycanın dövlətçilik iradəsinin və suverenliyinin rəmzi

Şuşa Zəfərinin tarixi əhəmiyyəti yalnız 2020-ci ilin noyabr hadisələri ilə məhdudlaşmır. Bu qələbə həm də regionda yeni siyasi və geostrateji reallıqların yaranmasının əsasını qoydu. 2023-cü ilin sentyabrında həyata keçirilmiş lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycanın bütün ərazisində suverenliyinin bərpa olunması 2020-ci ildə qazanılmış tarixi Zəfərin məntiqi davamı oldu.

Beləliklə, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini təmin etməklə beynəlxalq hüququn əsas prinsiplərinə söykənən dövlətçilik mövqeyini əməli şəkildə təsdiqlədi. Bu prosesin mühüm siyasi nəticələrindən biri də odur ki, Azərbaycan artıq regionda yalnız öz milli maraqlarını müdafiə edən deyil, həm də yeni əməkdaşlıq və inkişaf imkanlarının formalaşmasına təsir göstərən güclü dövlətdir.

Şuşa isə bu yeni mərhələnin mənəvi və siyasi simvollarından birinə çevrilmişdir.

Tarixi yaddaşdan müasir quruculuğa

Şuşa Azərbaycan xalqının mədəniyyət tarixində müstəsna yerə malikdir. Pənahəli xanın əsasını qoyduğu bu şəhər əsrlər boyu Qarabağın siyasi, ictimai və mədəni həyatının mühüm mərkəzi olmuşdur. Xurşidbanu Natəvanın, Molla Pənah Vaqifin, Üzeyir bəy Hacıbəylinin, Bülbülün, Sadıqcanın və digər görkəmli şəxsiyyətlərin adı Şuşanın zəngin mədəni irsi ilə ayrılmaz şəkildə bağlıdır.

Şuşanın işğalı dövründə şəhərin tarixi-memarlıq abidələrinə, dini və mədəni irsinə böyük ziyan vurulmuşdur. Lakin şəhərin azadlığından sonra Prezident İlham Əliyevin birbaşa nəzarəti altında başlanan genişmiqyaslı bərpa-quruculuq işləri qədim Şuşaya yeni həyat bəxş etmişdir. Tarixi məscidlərin, muzeylərin, mədəniyyət ocaqlarının, yaşayış binalarının və ictimai məkanların bərpası dövlətimizin milli-mənəvi irsə münasibətinin bariz nümunəsidir. Şuşada Natəvanın, Üzeyir bəy Hacıbəylinin və Bülbülün vaxtilə güllələran edilmiş büstlərinin əvvəlki yerlərinə qaytarılması isə yalnız mədəniyyət abidələrinin bərpası deyil, tarixi ədalətin və milli yaddaşın bərpası kimi xüsusi rəmzi məna daşıyır.

2021-ci il mayın 7-də Prezident İlham Əliyevin sərəncamı ilə Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi, həmin il "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" qanunun qəbul olunması şəhərin qorunması və inkişafı üçün mühüm hüquqi əsas yaratmışdır.

2023-cü il iyulun 31-də imzalanmış sərəncamla isə 8 Noyabr - Şuşa Şəhəri Günü təsis edilmişdir. Bu qərar tarixi Zəfərin əbədiləşdirilməsi və azad edilmiş şəhərlərimizin milli yaddaşımızdakı yerinin daha da möhkəmləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır.

Şuşanın yeni həyatı

Şuşanın dirçəlişinin ən mühüm göstəricisi şəhərə həyatın qayıtması, doğma sakinlərinin yenidən öz yurdlarında məskunlaşmasıdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən "Böyük qayıdış" proqramı çərçivəsində şəhərdə müasir yaşayış kompleksləri, yollar, sosial və kommunal infrastruktur yaradılır, təhsil və səhiyyə müəssisələri fəaliyyətə başlayır. 2026-cı il oktyabrın 23-nə olan məlumata əsasən, Şuşa şəhərində və onun Böyük Qaladərəsi, Kiçik Qaladərəsi kəndlərində ümumilikdə 420 ailə - 1579 nəfər məskunlaşıb. Bu rəqəmlər yalnız statistik göstərici deyil. Hər bir ailənin doğma yurduna qayıdışı Azərbaycanın həyata keçirdiyi bərpa və məskunlaşma siyasətinin insan taleyindəki real nəticəsidir.

Şuşada yeni yaşayış komplekslərinin inşası, təhsil və səhiyyə xidmətlərinin təşkili, nəqliyyat infrastrukturunun genişləndirilməsi şəhərin dayanıqlı inkişafını təmin edən əsas istiqamətlərdir. Xüsusilə Şuşa Müalicə-Sağlamlıq Mərkəzinin istifadəyə verilməsi, müasir təhsil və xidmət obyektlərinin yaradılması mühüm sosial əhəmiyyət daşıyır. Çünki azad edilmiş ərazilərə qayıdış yalnız yaşayış binalarının tikintisi ilə məhdudlaşmamalı, insanların keyfiyyətli təhsil, səhiyyə və sosial xidmətlərə çıxışı ilə müşayiət olunmalıdır. Bu baxımdan, Şuşada aparılan quruculuq işləri müasir şəhərsalmanın, sosial rifahın və milli-mədəni irsin qorunmasının bir-birini tamamladığı inkişaf modelini nümayiş etdirir.

Şəhərin 2040-cı ilədək inkişafına dair Baş planında tarixi memarlıq mühitinin qorunması, müasir infrastrukturun yaradılması, ekoloji tarazlığın saxlanılması və sosial xidmətlərin əlçatanlığı kimi prinsiplərin əsas götürülməsi də bu yanaşmanın davamlı xarakter daşıdığını göstərir.

Beynəlxalq tədbirlər mərkəzi

Son altı ildə Şuşanın beynəlxalq nüfuzunun artması Azərbaycanın xarici siyasətinin və mədəni diplomatiyasının mühüm uğurlarından biridir. Şəhərin 2023-cü ildə türk dünyasının, 2024-cü ildə islam dünyasının mədəniyyət paytaxtı seçilməsi Şuşanın tarixi-mədəni əhəmiyyətinin beynəlxalq səviyyədə tanınmasının göstəricisidir.

2026-cı il üçün Şuşaya İqtisadi Əməkdaşlıq Təşkilatının turizm paytaxtı statusunun verilməsi isə şəhərin regional turizm, mədəni mübadilə və iqtisadi əməkdaşlıq baxımından potensialını daha da ön plana çıxarır.

Şuşada keçirilən "Xarıbülbül" beynəlxalq musiqi festivalları, Vaqif Poeziya Günləri, beynəlxalq konfranslar, Qlobal Media Forumları və yüksəksəviyyəli siyasi görüşlər şəhərin dünya ictimaiyyətinə təqdimatında xüsusi rol oynayır.

2021-ci il iyunun 15-də Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsinin imzalanması şəhərin siyasi və diplomatik əhəmiyyətini daha da artırdı.

2024-cü ildə Türk Dövlətləri Təşkilatının dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşünün Şuşada keçirilməsi, 2026-cı ildə beynəlxalq tədbirlərin davam etdirilməsi, xarici dövlət rəhbərlərinin şəhərə səfərləri Azərbaycanın mədəniyyət paytaxtının artıq mühüm beynəlxalq dialoq məkanına çevrildiyini nümayiş etdirir.

Şuşa bu gün yalnız keçmişin zəngin mədəni irsini yaşadan şəhər deyil, həm də gələcəyin əməkdaşlıq imkanlarını formalaşdıran mühüm mərkəzdir.

Zəfərin əbədi yaşaması gələcək nəsillər qarşısında məsuliyyətimizdir

8 Noyabr - Şuşa Şəhəri Gününün qeyd olunması həm də gələcək nəsillər qarşısında mühüm mənəvi məsuliyyət yaradır. Bu tarixi günün mahiyyətini gənclərə düzgün çatdırmaq, Şuşanın Azərbaycan tarixindəki yerini, onun uğrunda aparılmış mübarizəni, şəhidlərimizin qəhrəmanlığını və dövlətimizin həyata keçirdiyi quruculuq siyasətini sistemli şəkildə təbliğ etmək vacibdir. Xüsusilə gənc nəslin milli yaddaş, vətənpərvərlik və dövlətçilik dəyərləri əsasında yetişdirilməsi baxımından Şuşa Zəfəri əvəzsiz mənəvi qaynaqdır.

Unutmamalıyıq ki, Şuşanın azadlığı minlərlə şəhidimizin qanı, qazilərimizin fədakarlığı, Azərbaycan əsgərinin qəhrəmanlığı və xalqımızın sarsılmaz birliyi hesabına qazanılmışdır.

Bu gün azad Şuşada ucalan üçrəngli bayrağımız həmin fədakarlığın, mübarizənin və milli iradənin ən böyük təcəssümüdür. Əgər 2020-ci ilin noyabrın 8-i Şuşanın azadlıq tarixi kimi yaddaşımıza həkk olunubsa, sonrakı illər onun dirçəliş və inkişaf salnaməsi kimi tarixə yazılır. Prezident İlham Əliyevin altı il əvvəl səsləndirdiyi "Biz səni dirçəldəcəyik!" vədi bu gün Şuşanın küçələrində, bərpa edilmiş tarixi abidələrində, yeni yaşayış məhəllələrində, məktəblərində və doğma yurduna qayıdan insanların həyatında öz real ifadəsini tapır.

Şuşanın azad edilməsi Azərbaycanın hərbi qüdrətinin, onun dirçəldilməsi isə dövlətimizin iqtisadi gücünün, siyasi iradəsinin və milli-mənəvi dəyərlərə sədaqətinin təntənəsidir. Bu gün Şuşa həm keçmişimizin qüruru, həm bu günümüzün iftixarı, həm də gələcəyimizin ümididir. Əminliklə söyləyə bilərik ki, Şuşanın inkişafı, onun beynəlxalq mədəniyyət və turizm mərkəzinə çevrilməsi, doğma sakinlərinin şəhərə qayıdışı Azərbaycanın Zəfərdən sonrakı yeni inkişaf mərhələsinin ən parlaq nümunələrindən biri olaraq qalacaq.

Müşfiq MƏMMƏDLİ,
Milli Məclisin deputatı



AZƏRBAYCANIN ŞƏRƏF VƏ QÜRUR TARİXİ

ŞANLI ZƏFƏR - 6 İL

Tarixi ədalətin təntənəsi



Azərbaycan xalqının tarixində elə günlər var ki, onların mənası təqvimdəki bir tarixdən, hər hansı tarixi hadisənin xatırlanmasından qat-qat böyükdür. 8 Noyabr - Zəfər Günü də məhz belə günlərdəndir. Bu tarix 30 ilə yaxın davam edən torpaq həsrətinin sona çatdığı, milli qürurumuzun, sarsılmaz iradəmizin və dövlətçilik əzmimizin bütün dünyaya nümayiş olunduğu unudulmaz Qələbənin rəmzidir. Zəfər bizim üçün azad edilmiş torpaqlardan, yüksəldilən bayraqlardan və qazanılmış hərbi üstünlükdən daha böyük məna daşıyır. Bu, bir xalqın öz tarixinə, yaddaşına, köklərinə və gələcəyinə sahib çıxmasının təntənəsidir.

1988-ci ildən etibarən Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilə başlayan Qarabağ münaqişəsi xalqımız üçün ağır faciələrə yol açdı. Ermənistanın hərbi təcavüzü nəticəsində torpaqlarımız işğal edildi, şəhər və kəndlərimiz dağıdıldı, tarixi-mədəni irsimizə misli görünməmiş ziyan vuruldu. 1 milyondan artıq soydaşımız doğma yurdlarından didərgin düşərək qaçqın və məcburi köçkün həyatının ağrı-acısını yaşamağa məcbur oldu. Minlərlə ailənin taleyinə ayrılıq, itki və həsrət yazıldı. Dağıdılmış evlər, viran qoyulmuş şəhərlər, susmuş ocaqlar və ata-baba yurduna qayıtmaq ümidi ilə yaşayan insanlar bu münaqişənin yaddaşımızda buraxdığı ağır izlər idi.

İşğal dövründə Azərbaycanın əsas strateji hədəfi ərazi bütövlüyünün bərpası oldu. Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və məqsədyönlü siyasət məhz bu milli məqsədə xidmət edirdi. Dövlət başçısının sonradan qeyd etdiyi kimi, 2003-cü ildən etibarən atılan addımların hər biri Azərbaycanın gücləndirilməsinə, torpaqlarımızın azad edilməsinə və düşmənin doğma yurdumuzdan qovulmasına hesablanmışdı. Bu böyük hədəfə çatmaq üçün siyasi iradə ilə yanaşı, iqtisadi güc, diplomatik imkanlar və hərbi qüdrət formalaşdırılmalı idi. Azərbaycan bir tərəfdən beynəlxalq hüquqa əsaslanan mövqeyini müdafiə edir, danışıqlar prosesində prinsipiallıq nümayiş etdirir, digər tərəfdən isə güclü dövlət və müasir ordu quruculuğunu davam etdirirdi. Ordunun döyüş qabiliyyətinin artırılması, hərbi qulluqçuların peşəkarlığının yüksəldilməsi, müasir silah və texnika ilə təchizat, hərbi sənaye kompleksinin yaradılması dövlət siyasətinin mühüm istiqamətlərinə çevrildi. Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən transmilli enerji və nəqliyyat layihələri regionun geosiyasi və geoiqtisadi mənzərəsini dəyişdirdi. Ölkəmiz beynəlxalq əməkdaşlığın etibarlı tərəfdaşına, mühüm enerji və nəqliyyat qovşağına çevrildi. Bütün bunlar Azərbaycanın diplomatik imkanlarını genişləndirdi, milli maraqlarımızın beynəlxalq müstəvidə müdafiəsi üçün əlavə imkanlar yaratdı.

Azərbaycanın iqtisadi, hərbi və diplomatik gücünün sistemli şəkildə artırılması təsadüfi addımların deyil, uzaqgörən dövlət strategiyasının nəticəsi idi. Zəfərə aparan yol məhz bu ardıcıl siyasətin üzərində qurulmuşdu. 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı hərbi təxribatları və mövqelərimizə hücumu qarşısında Azərbaycan Ordusu əks-hücum əməliyyatlarına başladı.

Əsgər və zabitlərimiz hər qarış torpağımız uğrunda misilsiz qəhrəmanlıq göstərdilər. Onlar ölümün gözünə dik baxaraq Vətən qarşısında borclarını yerinə yetirdilər. Yaralanan hərbçilərimizin müalicələri başa çatan kimi yenidən döyüş meydanına qayıtmaq istəmələri, ön cəbhədəki əzmkarlıq, arxa cəbhədəki fədakarlıq xalqımızın Vətən sevgisinin nə qədər böyük olduğunu göstərdi. Azərbaycan cəmiyyətinin bütün təbəqələri, müxtəlif siyasi baxışlara, etnik və dini mənsubiyyətlərə malik vətəndaşlarımız vahid amal ətrafında birləşdilər. Xarici ölkələrdə yaşayan soydaşlarımız da Azərbaycanın haqq səsinin dünyaya çatdırılması üçün səfərbər oldular. Siyasi partiyaların milli məsələlərdə birgə mövqe nümayiş etdirməsi, vətəndaşların könüllü olaraq orduya yazılması və çətin günlərdə öz doğma yurdlarını tərk etməməsi bu həmrəyliyin unudulmaz təzahürü idi.

Müharibə meydanında qazanılan uğurlar informasiya və diplomatiya cəbhəsində də ardıcıl mübarizə ilə müşayiət olunurdu. Prezident İlham Əliyev müharibə dövründə dünyanın aparıcı media qurumlarına 30-dan çox müsahibə verərək Azərbaycanın mövqeyini, münaqişənin tarixi və hüquqi mahiyyətini beynəlxalq ictimaiyyətə çatdırdı. Dövlət başçısının qətiyyətli, arqumentlərə əsaslanan və prinsipial mövqeyi informasiya mübarizəsində mühüm rol oynadı. Ermənistanın saxta təbliğat kampaniyalarına qarşı tarixi faktlar, beynəlxalq hüququn müddəaları və real vəziyyət əsaslı şəkildə ortaya qoyuldu.

Vətən müharibəsinin gedişində arxa cəbhədə göstərilən mənəvi dəstək, xalqımızın həmrəyliyi, şəhid ailələrinə və yaralı hərbçilərimizə diqqət də Qələbəmizin əsas dayaqlarından idi. Bu ağır və məsuliyyətli günlərdə dövlətimizin bütün imkanları səfərbər olundu, cəmiyyətin hər bir üzvü öz əməli və mövqeyi ilə Vətən qarşısında borcunu yerinə yetirməyə çalışdı. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın müharibə dövründəki müraciətləri və xalqımıza ünvanladığı çağırışlar bu mənəvi səfərbərliyin mühüm tərkib hissəsi idi. Onun çıxış və paylaşımlarında Azərbaycan Ordusuna inam, şəhidlərimizin xatirəsinə ehtiram, hərbçilərimizin ailələrinə həssas münasibət, mülki əhalinin müdafiəsi və informasiya mübarizəsində hər bir vətəndaşın məsuliyyəti ön plana çəkilirdi.

2020-ci il noyabrın 8-də Şuşanın azad edilməsi Vətən müharibəsinin həlledici məqamlarından biri oldu. Qarabağın tacı, Azərbaycan mədəniyyətinin beşiyi olan Şuşanın azadlığı xalqımızın mənəvi Qələbəsini daha da ucaltdı. 44 günlük Vətən müharibəsindən sonra əldə edilmiş nailiyyətlərin möhkəmləndirilməsi, ölkəmizin suverenliyinin bütün ərazilərdə təmin olunması və Qarabağda separatizmin kökünün kəsilməsi növbəti strateji hədəflər idi.

2023-cü il aprelin 23-də Laçın rayonu ərazisində, Həkəri çayı üzərində sərhəd-buraxılış məntəqəsinin yaradılması Azərbaycanın öz suveren hüquqlarını həyata keçirmək istiqamətində atdığı mühüm addımlardan biri oldu. Dövlət sərhədinə nəzarətin təmin edilməsi Azərbaycanın ərazi bütövlüyünün və təhlükəsizliyinin qorunması baxımından xüsusi əhəmiyyət daşıyırdı.

2023-cü il sentyabrın 19-da Qarabağ iqtisadi rayonunda Ermənistan silahlı qüvvələrinin birləşmələrinin genişmiqyaslı hərbi təxribatlarının qarşısının alınması, qanunsuz silahlı birləşmələrin tərk-silah edilməsi, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi və konstitusiya quruluşumuzun bərpası məqsədilə lokal xarakterli antiterror tədbirlərinə başlanıldı. Sentyabrın 20-də əldə olunan razılaşma ilə əməliyyat dayandırıldı. Bununla Azərbaycan öz dövlət suverenliyini bütün ərazisində tam bərpa etdi. 2023-cü il oktyabrın 15-də Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Xankəndidə Azərbaycan bayrağını ucaltması dövlətçilik tariximizin ən yaddaqalan anlarından biri oldu. Bu mənzərə Azərbaycanın müstəqil dövlət kimi öz ərazisində tam hakimiyyətə malik olduğunu bütün dünyaya nümayiş etdirdi. Beləliklə, 2020-ci ildə ərazi bütövlüyümüzün bərpası ilə başlanan tarixi proses 2023-cü ildə dövlət suverenliyimizin tam təmin olunması ilə yeni mərhələyə yüksəldi.

2020-ci il dekabrın 3-də Azərbaycan Prezidentinin imzaladığı sərəncamla noyabrın 8-i Zəfər Günü elan edildi. Həmin il dekabrın 10-da Bakının Azadlıq meydanında keçirilən Zəfər paradı isə Azərbaycan dövlətinin və ordusunun qüdrətini nümayiş etdirən möhtəşəm tarixi hadisə oldu. Paradda üç min Azərbaycan hərbçisinin iştirakı, nümayiş etdirilən hərbi texnika və qənimətlər xalqımızın qürurunu daha da artırdı. 2021-ci il aprelin 12-də Hərbi Qənimətlər Parkının açılması Vətən müharibəsinin tarixini əks etdirən mühüm məkanlardan birinin yaradılması ilə nəticələndi.

Zəfər tarixinin yaddaşlarda yaşadılması istiqamətində daha bir mühüm addım Bakıda Zəfər parkının və Zəfər muzeyinin yaradılması oldu. 2024-cü il noyabrın 8-də Zəfər parkının açılışı keçirildi. 2025-ci il noyabrın 8-də Zəfər muzeyinin açılışı ilə bu istiqamətdə mühüm tarixi addım atıldı.

Azərbaycanın hərbi və siyasi müstəvidə əldə etdiyi tarixi nəticələr regionda yeni münasibətlər sisteminin formalaşmasına da zəmin yaratdı. Ölkəmiz müharibədən sonra da milli maraqlarını qətiyyətlə müdafiə edərək dayanıqlı sülhün və əməkdaşlığın təmin olunması istiqamətində fəaliyyətini davam etdirdi. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən diplomatik siyasətin mühüm nəticələrindən biri 2025-ci il avqustun 8-də Vaşinqtonda əldə olundu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə keçirilən görüşün nəticəsində Birgə Bəyannamə imzalandı. Həmin görüş çərçivəsində Azərbaycan və Ermənistan xarici işlər nazirləri iki ölkə arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair saziş layihəsini paraflaşdılar. ATƏT-in Minsk prosesi və onunla əlaqəli strukturlarının bağlanması ilə bağlı birgə müraciətin imzalanması da mühüm siyasi nəticələrdən biri oldu.

Vaşinqtonda əldə edilən razılaşmalar Azərbaycanın uzun müddətdir irəli sürdüyü sülh gündəliyinin beynəlxalq səviyyədə təsdiqi baxımından mühüm əhəmiyyət daşıyır. Bununla belə, sülh sazişinin imzalanması və ratifikasiyası üçün nəzərdə tutulan əlavə şərtlərin yerinə yetirilməsi, Ermənistanın konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılması istiqamətində zəruri dəyişikliklərin edilməsi vacib olaraq qalır. Birgə Bəyannamədə regionda nəqliyyat kommunikasiyalarının açılması, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsi də mühüm yer tutur. Ermənistan ərazisində həyata keçirilməsi nəzərdə tutulan "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" təşəbbüsü regionun nəqliyyat və iqtisadi əlaqələri üçün yeni imkanlar vəd edir.

Müharibədən sonra Azərbaycanın qarşısında dayanan əsas vəzifələrdən biri dağıdılmış ərazilərin bərpası, müasir infrastrukturun qurulması və keçmiş məcburi köçkünlərin təhlükəsiz, ləyaqətli yaşayışının təmin edilməsi idi. Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-quruculuq işlərinə başlanıldı. 2022-ci il noyabrın 16-da "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiq edildi. Böyük qayıdış Azərbaycanın 2030-cu ilədək müəyyən edilmiş beş Milli Prioritetindən biri kimi müəyyənləşdirildi. Bu proqramın əsas məqsədi doğma torpaqlarına qayıdan vətəndaşlarımız üçün müasir yaşayış şəraiti yaratmaq, iqtisadi fəallığı bərpa etmək, məşğulluğu təmin etmək və Qarabağla Şərqi Zəngəzuru ölkənin ümumi iqtisadi inkişafına inteqrasiya etməkdir.

Bu gün azad edilmiş ərazilərdə aparılan işlərə nəzər saldıqda, qarşıya qoyulmuş vəzifələrin ardıcıl şəkildə həyata keçirildiyini görürük. Yeni yaşayış komplekslər, məktəblər, xəstəxanalar, mədəniyyət obyektləri, məscidlər, yollar, dəmir yolları, tunellər və beynəlxalq hava limanları regionun simasını dəyişir. Tarixi abidələrimizin bərpası, şəhər və kəndlərimizin yenidən qurulması Qarabağın zəngin mədəni irsinin yaşadılması baxımından da böyük əhəmiyyət daşıyır.

Qarabağın gələcəyi təkcə yaşayış evlərinin tikilməsi ilə məhdudlaşmır. Burada iqtisadi həyatın canlandırılması, yeni iş yerlərinin açılması, təhsil və səhiyyə xidmətlərinin əlçatan olması da mühüm əhəmiyyət daşıyır.

Bütün bu işlər Azərbaycanın qarşıdakı illər üçün müəyyən etdiyi inkişaf strategiyasının tərkib hissəsidir. 2020-ci ildən 2026-cı il də daxil olmaqla, işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması üçün dövlət büdcəsindən 25 milyard manatdan artıq vəsait ayrılıb. 2027-ci ildə isə bu məqsədlə 3,4 milyard manat vəsait nəzərdə tutulur. Böyük qayıdışın davamlılığını təmin etmək üçün Prezident İlham Əliyevin 2025-ci il 30 may tarixli sərəncamı ilə II Dövlət Proqramının hazırlanması tapşırılıb.

8 Noyabr - Zəfər Günü Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılmış milli qürur səhifəsidir. Bu tarix bir daha göstərdi ki, güclü dövlət, qətiyyətli siyasi rəhbərlik, qüdrətli ordu və milli birlik bir araya gəldikdə ən mürəkkəb tarixi vəzifələrin öhdəsindən də gəlmək mümkündür. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan həm müharibə meydanında, həm diplomatik müstəvidə, həm də müharibədən sonrakı quruculuq prosesində öz gücünü nümayiş etdirdi. Bu möhtəşəm tarixi Qələbəyə görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə dərin minnətdarlığımızı bildiririk. Otuz ilə yaxın davam edən işğalın sona çatdırılması, Azərbaycanın ərazi bütövlüyünün və dövlət suverenliyinin bərpası, milli maraqlarımızın beynəlxalq müstəvidə qətiyyətlə müdafiəsi və bu gün Qarabağda aparılan genişmiqyaslı quruculuq işləri güclü siyasi iradənin, uzaqgörən rəhbərliyin və ardıcıl dövlət siyasətinin nəticəsidir.

Bu gün qarşımızda duran vəzifə əldə edilmiş tarixi nailiyyətləri qorumaq, dövlətimizin qüdrətini daha da artırmaq, azad edilmiş torpaqları inkişafın, rifahın və sülhün məkanına çevirməkdir. Qarabağda tikilən hər bir məktəb, açılan hər bir müəssisə, salınan hər bir yol, doğma yurduna qayıdan hər bir ailə Zəfərin davam edən tarixidir.

8 Noyabrın mənası həm də gələcək nəsillərə ötürülən böyük bir dərsdir: Vətənə bağlılıq, milli birlik, dövlətə sədaqət və müstəqilliyin qorunması hər birimizin məsuliyyətidir. Şəhidlərimizin bizə əmanət etdiyi bu torpaqlarda sülh, əmin-amanlıq və firavan həyatın təmin olunması ən böyük vəzifələrimizdəndir.

Hicran HÜSEYNOVA,
Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri

Üçtərəfli Bəyanat Azərbaycan Ordusunun və diplomatiyasının parlaq qələbəsi idi

2020-ci il sentyabrın 27-də torpaqlarımızın azadlığı uğrunda İkinci Qarabağ müharibəsi başlayanda ordumuzun cəsur zabit və əsgərləri bir andaca qələbə əzmi ilə yurdumuzun müdafiəsinə atıldılar. Ordumuzun gücü, qüdrəti qarşısında dayana bilməyən düşmən illərdən bəri möhkəmləndiyi mövqelərdən geri çəkildi.
Bütün istiqamətlərdə hücuma keçən Azərbaycan Ordusu bir-birinin ardınca Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlını, həmçinin böyük strateji əhəmiyyətə malik Şuşanı erməni quldurlarından azad etdi. 30 ilə yaxın davam edən işğal sona çatdı. Bu qələbə dövlət-xalq-ordu birliyinin nümayişi idi.

2020-ci il sentyabrın 27-də başlayan İkinci Qarabağ müharibəsi noyabrın 10-da üçtərəfli Bəyanatın imzalanması ilə başa çatdı. Bəyanat siyasi ekspertlər tərəfindən Azərbaycanın böyük diplomatik qələbəsi kimi qiymətləndirildi. Üçtərəfli Bəyanata əsasən, Qarabağa heç bir xüsusi status verilmirdi. Başqa sözlə, keçmiş DQMV tarixə qovuşmuş, Azərbaycan öz gücü, qüdrəti ilə regionda tarixin gedişini dəyişmişdi. Ən nəhayət, bir zamanlar "Qarabağ Ermənistandır, nöqtə", - deyən N.Paşinyan kapitulyasiya sənədinə imza atmaqla həm də işğalçı olduğunu təsdiq etmişdi.

Azərbaycan xalqı isə 30 ilə yaxın gözlədiyi Zəfər sevincini yaşadı. Xalqa müraciətlərində Prezident İlham Əliyevin milli şüara çevrilmiş "Qarabağ Azərbaycandır!" sözləri artıq reallıq idi. Həmin gün dövlətimizin başçısı xalqa müraciətində deyirdi: "…nə oldu bəs status? …yoxdur status və olmayacaq. Nə qədər ki, mən Prezidentəm, olmayacaq. Ona görə, bu sənədin çox böyük mənası var. Əminəm, hər bir Azərbaycan vətəndaşı hesab edir ki, onun həyatında bu günlər, bu dəqiqələr ən xoşbəxt günlər, dəqiqələrdir. Mən də xoşbəxtəm ki, bu xoş xəbərləri, bu müjdəni Azərbaycan xalqına verirəm. Xoşbəxtəm ki, bu tarixi sənədə imza atmışam. Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq! Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz!"

Üçtərəfli Bəyanat Azərbaycanın İkinci Qarabağ müharibəsində əldə etdiyi tarixi qələbəni beynəlxalq müstəvidə də rəsmiləşdirdi. Çünki bu sənəd özündə Ermənistan ordusunun Azərbaycan ərazilərindən tam çıxarılmasını, hərbi təhdidlərin dayandırılmasını və regionda yeni təhlükəsizlik sisteminin Azərbaycanın maraqları əsasında formalaşdırılmasını əks etdirirdi. Üçtərəfli Bəyanatın mühüm müddəalarından biri də Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonları arasında maneəsiz nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası idi. Yaxın tariximizdən məlumdur ki, ötən əsrin 80-ci illərinin sonlarından ermənilər həmin yolu bağlamışdılar.

Bu amil də xüsusi olaraq qeyd edilməlidir ki, bəyanat illərdən bəri davam edən status-kvonu tamamilə dəyişmişdi. Prezident İlham Əliyevin israrlı mövqeyi, polad iradəsi nəticəsində məğlub və çıxılmaz vəziyyətə düşən Ermənistanın hərbi və siyasi rəhbərliyi işğal edilmiş bütün torpaqlarımızdan qeyd-şərtsiz çıxmaq və bunun üçün çıxış qrafikini təqdim etməyə məcbur olmuşdu. Bəyanatdan sonra Ermənistan silahlı qüvvələrinin tör-töküntüləri Laçın, Kəlbəcər və Ağdam rayonlarını tərk etdilər. Azərbaycan Ordusunun və Azərbaycan diplomatiyasının qələbəsi nəticəsində bir güllə atılmadan, qan tökülmədən bu rayonlar erməni qəsbkarlarından azad olundu. Beləcə, ordumuzun döyüş meydanlarında qazandığı zəfər siyasi müstəvidə də qələbə ilə davam etdi.

Təəssüflər olsun ki, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatdan sonra Ermənistan öhdəliyini yerinə yetirmədi, işğalçı dövlət qoşunlarını və separatçı qüvvələrini Qarabağdan çıxarmadı. Əksinə, gizli şəkildə silah-sursat, o cümlədən minaları qanunsuz yollarla Qarabağa daşımağa, döyüş mövqelərini möhkəmləndirməyə çalışdı. Bu da Azərbaycanı Qarabağda qalmış erməni silahlı dəstələrinə qarşı 2023-cü il sentyabrın 19-20-də antiterror əməliyyatı keçirməyə məcbur etdi. Azərbaycan Ordusu Qarabağda məskunlaşmış erməni separatizminin kökünü birdəfəlik kəsmək, Ermənistan silahlı qüvvələrinin tör-töküntülərinin məhv və 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın müddəalarının icrasını təmin etmək üçün bölgədə lokal xarakterli antiterror tədbirlərinə başladı. 23 saat 43 dəqiqə davam edən uğurlu və qətiyyətli əməliyyat nəticəsində separatçılar ağ bayraq qaldıraraq təslim oldular. Bununla da Qarabağda separatizmin kökü birdəfəlik kəsildi, ölkəmiz regionda suverenliyini tam bərpa etdi.

Uğurla başa çatan əməliyyat zamanı separatçıların, xunta rejiminin rəhbərləri həbs olunaraq ədalət məhkəməsinə verildi. Gec də olsa, haqq-ədalət öz yerini tapdı. Bu quldurlar törətdikləri cinayətlərə görə layiqli cəzalarını aldılar.

İkinci Qarabağ müharibəsində torpaqlarımızın azad edilməsi uğrunda qazanılan Zəfər həm də uzun illər aparılan diplomatiyanın, milli iradənin və dövlətçilik strategiyasının uğurudur. Xalqımıza böyük sevinc bəxş etmiş bu Zəfər Ulu Öndər Heydər Əliyevin illər əvvəl müəyyənləşdirdiyi siyasi kursun, Müzəffər Ali Baş Komandan İlham Əliyevin həmin kursu uğurla davam etdirməyinin parlaq təntənəsidir.

Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan"

OTUZ İLLİK İŞĞALIN 44 GÜNLÜK ZƏFƏR YEKUNU



Dünyada mövcud olan bütün imperiyalar çöküb!

Qırmızı imperiyanın çöküşü də labüd idi!

On beş "qardaş respublika"dan yaranan, kommunizm ideologiyasına əsaslanan bu quruluşu xilas etmək üçün Moskvanın bütün cidd-cəhdləri, SSRİ-nin birinci və sonuncu prezidenti M.Qorbaçovun "yenidənqurma" oyunbazlığı heç bir fayda vermədi...

Nəhəng dövlətin çöküşü müttəfiq respublikalarda da fəsadsız ötüşmədi.

Ermənilər yaranmış vəziyyətdən bəhrələnmək, Dağlıq Qarabağı ələ keçirərək öz ərazilərini genişləndirmək niyyətlərini gerçəkləşdirmək üçün hərəkətə keçdilər...

M.Qorbaçovu arvadı R.Maksimovna vasitəsilə ələ alaraq mənfur niyyətlərini gerçəkləşdirməyə başladılar.

Bu, Kremlə də sərf edirdi...

Çünki zəngin yeraltı və yerüstü sərvətlərə malik Azərbaycanı əldən buraxmaq istəmirdi...

Daim "parçala, hökm sür" prinsipi ilə hərəkət edən Moskva yenidən Dağlıq Qarabağ münaqişəsini qızışdıraraq Ermənistana gizli və açıq dəstəyini göstərməyə başladı.

Belə bir vəziyyətdə Azərbaycanın həqiqi rəhbərindən, sınanmış oğlu Heydər Əliyevdən ayrı düşməsi, keçid dövrünü yaşayan ölkəyə maymaq, qorxaq, təcrübəsiz və səriştəsiz insanların başçılıq etmələri, əslində, Rusiyanın və Ermənistanın əlinə işləyirdi.

Nə doğru-düzgün siyasət yürüdüldü, nə vaxtında zəruri addımlar atıldı, nə də qabaqlama tədbirləri görüldü...

Naşı, xəyanətkar AXC-Müsavat cütlüyünün iqtidara gəlməsi, torpaqların müdafiəsi üçün vaxtında ordu yaradılmaması, Şuşa və Laçın kimi strateji əhəmiyyətli yaşayış məntəqələrinin xəyanət yolu ilə düşmənə verilməsi böyük faciələrə səbəb oldu!

Rusiyanın silahlandırdığı, üstəlik, hərbi əməliyyatlarda 102-ci orduya məxsus əsgər və zabitlərin birbaşa iştirakı sayəsində düşmən Azərbaycana məxsus yaşayış məntəqələrini bir-bir ələ keçirməyə başladı.

Eyni ssenari ilə Qaradağlı, Xocalı, Ballıqaya, Başlıbel, Bağans-Ayrım soyqırımları törədildi, mülki əhali ələ keçirilərək işgəncələrə məruz qoyuldu, öldürüldü.

İşğal ərazilərində soyqırımı, urbisid, ekosid həyata keçirildi, tarixi, mədəni abidələrimiz dağıdıldı, qəbiristanlıqlarımız yerlə yeksan edildi, dini abidələrimiz təhqir edildi, məscidlərimizdə malqara, donuz saxlanıldı.

* Bütün dünya Qarabağın Azərbaycan ərazisi olduğunu qəbul edirdi.

* Bütün dünya qondarma "dqr"i tanımırdı.

* Bütün dünya Qarabağda keçirilən qondarma "prezident" və "parlament" seçkilərini qəbul etmirdi.

* Bütün dünya Azərbaycanı haqlı tərəf sayırdı.

AMMA...

* Azərbaycana gələndə nə beynəlxalq hüquq işləyirdi;

* Nə BMT özünün qəbul etdiyi 4 qətnaməni yerinə yetirirdi;

* Nə beynəlxalq qurum və təşkilatlar obyektiv və qətiyyətli mövqe nümayiş etdirirdi;

* Nə məxsusi bu münaqişənin həlli məqsədilə yaradılan ATƏT-in Minsk qrupu qısa zamanda konkret nəticəyə gələrək məsələnin ədalətli həllinə kömək göstərirdi;

* Nə də həmsədr dövlətlər öz imkanlarını işə salaraq Ermənistana təzyiq edirdilər.

ƏKSİNƏ...

Həmsədr dövlətlərin hərəsi bir üsulla Ermənistana qulluq göstərirdilər.

* ABŞ işğalçıya yox, işğala məruz qalan Azərbaycana qarşı ədalətsiz 907-ci düzəlişi qəbul etdi;

* Rusiya bir neçə dəfə Ermənistana dəyəri 1 milyard dollardan artıq olan silah-sursat bağışladı;

* Fransanın parlamentariləri isə Azərbaycandan icazəsiz şəkildə vaxtaşırı Dağlıq Qarabağa səfərlər edir, erməni mövqeyini müdafiə edən qərəzli sənədlər qəbul edirdilər.

Bütün bunlardan ruhlanan Ermənistan uzandıqca uzanan "sülh danışıqları"na barmaqarası baxır, "dqr"ə müstəqillik tələb edir, qondarma qurumda vaxtaşırı "prezident" və "parlament" seçkiləri keçirməklə onun "müstəqilliyi"ni nümayiş etdirməyə can atırdı.

Ermənistanın yeni baş naziri N.Paşinyan isə həddini aşaraq "Qarabağ Ermənistandır - nöqtə" deməklə sülh danışıqlarının da mənasızlığını ortaya qoydu!

Artıq bıçaq sümüyə dirənmişdi...

❖ ❖ ❖

Daima düşmənə bir qarış torpaq belə güzəştə getməyəcəyini, ölkə ərazisində ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəyini açıq şəkildə bəyan edən Azərbaycan Prezidenti İlham Əliyev erməni müdafiəçilərinin "münaqişənin hərbi yolla həlli variantı yoxdur" demələrinə baxmayaraq ciddi və intensiv şəkildə ordu quruculuğu ilə məşğul olurdu.

Ordu quruculuğu ölkənin iqtisadiyyatı, insan resursları və hərbi yeniliklər ilə sıx bağlı olan məsələdir.

Həm də böyük vəsait qoyuluşunu tələb edir.

Həmin dövrdə isə neft və təbii qaz ixracı az olduğundan büdcəyə daxilolmalar da aşağı səviyyədəydi.

Dövlətin xərcləri isə çox idi.

* Məsələn, qaçqın və məcburi köçkünlərin həyat şəraiti ürəkaçan deyildi və onlar üçün yeni yaşayış komplekslərinin və şəhərciklərin yaradılması zəruriydi və bununla bağlı xüsusi dövlət proqramı da qəbul edilmişdi.

* Regionların enerji təchizatında vaxtaşırı fasilələrə yol verildiyindən məişətdə və kənd təsərrüfatında ciddi çətinliklər yaşanırdı.

* Transmilli layihələrin gerçəkləşdirilməsi də xeyli pul tələb edirdi.

* Regionların, xüsusən ucqar kəndlərin qazlaşdırılması da təxirəsalınmaz məsələlərdən idi.

Prezident İlham Əliyevin çoxcəhətli və yorulmaz fəaliyyəti sayəsində bütün bu problemlər vaxtında və uğurla öz həllini tapdı!

Ordu quruculuğu sahəsində də böyük nailiyyətlərə imza atıldı!

* Yeni gənclər nəsli tərbiyələndirilərək onların iştirakı ilə müasir ordu yaradıldı.

* Ən yeni texnologiyalara əsaslanan silah-sursatla təmin olundu.

* Müntəzəm şəkildə, nəzərdə tutulan hərbi əməliyyatların keçiriləcəyi şəraitə uyğun yerlərdə sistemli şəkildə təlimlər keçirildi.

* 2016-cı ilin 4 günlük Aprel döyüşlərində isə yeni ordu sınaqdan keçirilərək möhtəşəm uğurlara imza atıldı!

Lakin "qələbə" eyforiyasına qapılan, özünü "məğlubedilməz xalq" və "məğlubedilməz ordu" epitetləri ilə bəzəyən düşmən Aprel məğlubiyyətindən lazımi nəticələr çıxarmadı...

Azərbaycan Ordusunun əks-hücuma keçdiyi ilk dəqiqələrdən isə lovğalıqlarının, törətdikləri dağıdıcılıq əməllərinin və tökdükləri nahaq qanların bədəlini ödəməyə başladılar.

❖ ❖ ❖

Hələ də yazıçılarımız və kinematoqrafçılarımız II Qarabağ müharibəsində baş verən qəhrəmanlıqları, nadir hərbi əməliyyatları, əsgər və zabitlərimizin misilsiz şücaətlərini, xalq-iqtidar, xalq-ordu birliyinin parlaq nümayişini əks etdirən əsərlər yazaraq filmlər çəkməyiblər.

Halbuki qısa müddətdə - cəmi 44 gün davam edən hərbi əməliyyatlar zamanı Azərbaycan Ordusu Baş Sərkərdəsinin məharəti ilə elə bir Zəfərə imza atmışdır ki, onun barəsində neçə əsrlər boyu da yazılmağa, deyilməyə və göstərməyə ehtiyac var!

Müharibələr tarixində yeni səhifə açan və ən güclü dövlətlərin belə öyrənəcəyi nümunələri ortaya qoyan Azərbaycan hərbi əməliyyatların davam etdiyi müddətdə daha bir yeniliyə imza atdı:

* Hərbi əməliyyatların gedişini, düşmən mövqelərinin, hərbi texnikasının və canlı qüvvəsinin məhvini əks etdirən süjetlər televiziya kanalları vasitəsilə əyani şəkildə göstərilirdi.

* Biz öz evimizdə rahat oturduğumuz halda həm də "müharibə iştirakçısı"na çevrilir, qələbə və uğurlarımızı gözlərimizlə görürdük.

* Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətləri hamımızın səbirsizliklə gözlədiyi və qürurla izlədiyi informasiya dolu çıxışlar idi.

* Ordu ilə xalqın, ölkə rəhbəri ilə vətəndaşların sıx təması həm hərbi informasiyalara olan ehtiyacı təmin edirdi, həm də feyk xəbərlərin yayılmasının qarşısını alırdı.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqa 1 dekabr 2020-ci ildə etdiyi sonuncu müraciəti və 10 dekabr 2020-ci ildə Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradındakı nitqi hər bir azərbaycanlının qəlbində və yaddaşında əbədi həkk olunan qürur anlarıdır.

Prezidentimizin son müraciətindən bir neçə məqama diqqət yetirək:

"Bizim qələbəmiz tarixi Qələbədir. Biz bir neçə rayonu döyüş meydanında düşməndən azad etdik, üç rayonu düşməni məcbur edərək qaytardıq və beləliklə, Dağlıq Qarabağ münaqişəsini həll etdik. İndi artıq Dağlıq Qarabağ münaqişəsi yoxdur".

❖ ❖ ❖

"Bu müharibə bizim şanlı Qələbəmizdir. Biz fəxr edirik. Ancaq bizim vəzifəmiz ondan ibarətdir ki, erməni faşizmi bir daha bu bölgədə baş qaldırmasın. Əgər kimsə Ermənistana ikinci dövlət yaratmaq üçün ərazi vermək istəyirsə, versinlər, orada ikinci erməni dövləti yaratsınlar, öz ərazisinin bir hissəsini onlara versinlər".

❖ ❖ ❖

"Azərbaycana rəhbərlik edən Ulu Öndər və ondan sonra mən Azərbaycan xalqının maraqlarını hər şeydən üstün tutmuşuq. Ermənistan rəhbərləri kim olub? 20 il quldurlar - Koçaryan-Sarkisyan xunta rejimi, iki il yarım da kim olub, erməni xalqı özü bilir. Qatar getdi. Amma hələ də gec deyil. Hələ o qatara minə bilərsiniz, əgər bizim icazəmiz olsa, əgər bizim şərtlərimiz təmin olunsa. Bundan sonra belə olacaq, ancaq belə olacaq! Yeddi şərt qoyan Paşinyan, görəsən, indi hansı şərti qoya bilər və kimə şərt qoya bilər? Hanı o 7 şərt? Getdi işinə. Azərbaycan qondarma "Dağlıq Qarabağ"la danışıqlar aparmalıdır, hanı o şərt? Cəhənnəmə getdi. "Dağlıq Qarabağ Ermənistandır və nöqtə" - bunu, necə deyərlər, böyük həvəslə, bir qəhrəman kimi Xankəndidə bəyan etdi və hamı da ona əl çalırdı. Nə oldu? Qarabağ Ermənistandır? Gəlsin desin bunu. Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖

Azadlıq meydanı MDB-nin ən böyük meydanlarından biri sayılır.

Lakin Qələbə paradında iştirakçıların aşıb-daşan sevinc seli bu meydana sığmırdı.

Hər bir azərbaycanlı ailəsi mavi ekran qarşısında əyləşərək bu paradın iştirakçısına çevrilmişdi!

Dünyanın hər bir nöqtəsində yaşayan milyonlarla azərbaycanlı bu paradın təntənəsindən qürur və sevinc payı götürürdü.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin sonsuz fərəhlə söylədiyi bu sözlər hələ də yaddaşımızdadır:

"Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu. Bu 44 günün hər günü bizim şanlı tariximizdir. Hər gün Azərbaycan Ordusu irəli gedirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın, tarixi ədalət zəfər çalsın və buna nail olduq".

❖ ❖ ❖

"Mən 2003-cü ildə Prezident vəzifəsinə seçiləndə Konstitusiyamıza və müqəddəs Qurani-Kərimə əl basaraq and içmişdim ki, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Bu gün böyük qürur hissi ilə deyə bilərəm ki, Azərbaycan öz istəyinə nail oldu, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdi".

❖ ❖ ❖

"Biz bu qələbəni həm peşəkarlıq, qəhrəmanlıq hesabına, eyni zamanda milli ruh hesabına qazanmışıq. Biz haqlı idik, haqq-ədalət bizim tərəfimizdə idi. Bizim əsgər və zabitlərimiz hücuma keçəndə bir amalla yaşayırdı ki, öz doğma torpaqlarını işğalçılardan azad etsinlər".

İlham Əliyevin bu sözləri də Azərbaycan tarixinin qızıl səhifələrində əbədi yaşayacaqdır:

"Azadlıq meydanında paradlar çox keçirilib. Ancaq bu paradın xüsusi önəmi var. Bu, Zəfər paradıdır. Bu, tarixi hadisədir. Paradların birində mən demişdim ki, parada 2016-cı ildə Lələtəpə yüksəkliyində qaldırılmış bayraq gətiriləcək. Demişdim ki, gün gələcək və bu gün işğaldan azad edilən torpaqlarda qaldırılan Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və bu gün gəldi. Bu tarixi günün şahidi bizik, Azərbaycan xalqıdır. Biz bundan sonra ancaq və ancaq irəli gedəcəyik".

❖ ❖ ❖

44 günlük Vətən müharibəsində Azərbaycan üçqat qələbə qazandı!

* Həm hərb meydanında düşməni diz çökdürərək ona kapitulyasiya aktını imzalatdırdı;

* Həm diplomatiya sahəsində bütün təsir, təzyiq və təhdid cəhdlərinə sinə gərərək ortaya qoyduğu şərtlərə əməl olunmayanadək hərbi əməliyyatları dayandırmadı;

* Həm də informasiya cəbhəsində böyük üstünlük qazanaraq, bütün feykləri ifşa edərək əsl həqiqətləri dünya ictimaiyyətinə çatdırdı.

44 gün ərzində qazanılan Zəfər sonrakı müddətdə daha üç istiqamətdə möhkəmləndirildi:

* 2023-cü ilin 23 aprelində keçirilən hərbi əməliyyat sayəsində Həkəri çayı üzərindəki post ələ keçirildi, Laçın dəhlizi tam nəzarətə alınmaqla Azərbaycanın ərazi bütövlüyü təmin olundu;

* Həmin ilin 19-20 sentyabrında baş tutan antiterror əməliyyatı sayəsində Qarabağda qalan Ermənistan silahlı qüvvələrinin tör-töküntüləri və terrorçu qruplaşmaları ağ bayraq qaldıraraq təslim oldular, dinc və itkisiz şəkildə ərazilərimizi tərk etdilər, bununla da Dövlət Suverenliyimiz və Konstitusiya əsasları da bərpa olundu;

* Bir il sonra isə görəcəyi bir iş qalmayan Rusiya sülhməramlıları da ölkəmizdən çıxarıldı!

Mənəvi sahədə də üçqat qələbə baş verdi:

* Azərbaycan 30 il havada qalan BMT qətnamələrini öz gücü hesabına icra etdi;

* ATƏT-in Minsk qrupu sülh yolu ilə münaqişəni həll edə bilmədiyindən buna hərbi vasitələrlə nail oldu;

* Beynəlxalq hüquq "dəmir yumruq"la öz yerini tutdu!

Azərbaycan bütün düşmənlərinə və bədxahlarına qalib gəldi:

* Bütün gücünə və imkanlarına baxmayaraq, dünya ermənilik məğlubiyyətə uğradıldı;

* Xaricdəki bütün erməni diasporlarının gördükləri və görmək istədikləri işlər puça çıxarıldı;

* Ermənistanın dostlarının və havadarlarının da bütün dəstəkləri, hərbi və siyasi canfəşanlıqları havayı getdi!

Müzəffər Ali Baş Komandan İlham Əliyev ikiəsrlik Qarabağ münaqişəsinə 44 gün ərzində əbədi son qoymaqla düşmən üzərində mütləq, tam və qəti qələbəmizi təmin etdi!

"Dəmir yumruq" sayəsində qazanılan bu Zəfər İlham Əliyevin sərkərdəlik məharəti, xalqla iqtidarın möhkəm və sarsılmaz birliyi, əsgər və zabitlərimizin kütləvi qəhrəmanlıqları sayəsində gerçəkləşdi.

Yuxarıda deyilənlərə Müzəffər Ali Baş Komandan İlham Əliyevin 1 dekabr 2020-ci ildə televiziya ilə xalqa müraciətində qürurla səsləndirdiyi fikirlə yekun vururuq:

"Biz yeni reallıq yaratdıq, qələbə çaldıq, düşmənin başını əzdik, düşməni torpaqlarımızdan qovaraq yeni reallıq yaratdıq.

Hər kəs bu reallıqla barışacaq, məcbur olub barışacaq, necə ki, Ermənistan barışdı!"

Baş Sərkərdəmizin söylədiyi bu fikirlər artıq reallığa çevrilib!

Möhtəşəm Zəfərimizi bütün dünya qəbul edib!

Bəxtiyar SADIQOV



AZƏRBAYCANIN ŞƏRƏF VƏ QÜRUR TARİXİ

ŞANLI ZƏFƏR - 6 İL



Qürur məbədi

Azərbaycan xalqı üçün 2020-ci ilin payızı bir tale və şərəf sınağı oldu. 30 il boyunca sinəsində gəzdirdiyi torpaq nisgilini, ədalətsizliyin amansız sükutunu və işğalın ağır yükünü cəmi 44 gün ərzində param-parça edən ölkəmiz dünyaya yalnız hərbi qüdrətini deyil, həm də əyilməz iradəsini nümayiş etdirdi.

Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, rəşadətli Azərbaycan əsgərinin canı və qanı bahasına yazılan bu tarix hər bir vətəndaşın qəlbində silinməz izlər qoydu. Bu misilsiz Qələbənin, xalq-ordu birliyinin və dəmir iradənin gələcək nəsillərə ötürülməsi, milli yaddaşın dondurulub gələcəyə daşınması üçün paytaxtımızda möhtəşəm bir abidə ucaldı.

Zəfər Gününün 5-ci ildönümündə - 8 noyabr 2025-ci ildə rəsmi açılışı reallaşan Zəfər muzeyi, məhz həmin şanlı tarixin, çətin yolların və Böyük qayıdışın canlı şahidinə və müqəddəs ünvanına çevrildi. Bakının 8 Noyabr prospektində, Xəzərin sahilində ucalan Zəfər parkı ilə vəhdət təşkil edən bu müasir memarlıq kompleksi, sadəcə, müharibə eksponatlarının saxlandığı bir məkan deyil. Bura bütöv bir xalqın ədalət və dirçəliş fəlsəfəsini özündə yaşadan, hər bir daşında qəhrəmanlıq nəfəsi duyulan qürur məbədidir.

8 zalda cəmləşən böyük tarix

Zəfər muzeyi Azərbaycan Prezidenti İlham Əliyevin 3 dekabr 2020-ci il tarixli "Bakı şəhərində Vətən müharibəsi memorial kompleksinin və Zəfər muzeyinin yaradılması haqqında" sərəncamına əsasən yaradılıb. Dövlətimizin başçısı və birinci xanım Mehriban Əliyeva 2024-cü il noyabrın 8-də Zəfər parkının açılışında iştirak etmişlər. Həmin tarixdə parkın aşağısında Zəfər muzeyi artıq inşa edilmişdi, orada tərtibat işləri aparılırdı. 2025-ci il noyabrın 8-də Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı Zəfər Gününün 5-ci ildönümündə isə Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə muzeyin açılışı oldu.

Muzeyin ümumi konsepsiyası və dizaynı Heydər Əliyev Fondu tərəfindən müasir beynəlxalq muzey standartlarına uyğun şəkildə işlənmişdi. Bura şanlı Qələbənin hekayəsini - Azərbaycan xalqının illər boyu arzuladığı Vətənə qayıdış ümidinin gerçəkləşməsini və birliyin, gücün və səbrin ən ali təntənəsini təqdim edir. Muzeydə əzəli Azərbaycan torpaqlarının bütövlüyü uğrunda canından keçərək tarix yazan şəhidlərin əziz xatirəsi ehtiramla yad olunur. Möhtəşəm tikilinin ekspozisiyası beynəlxalq təcrübə və dünyada mövcud muzey konsepsiyaları əsas götürülməklə, həmçinin ən son texnologiyalar tətbiq edilməklə işlənilib. Girişdə şanlı Qələbənin rəmzinə çevrilmiş "Dəmir yumruq" instalyasiyası və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından cümlələr əks olunur. Eləcə də, muzeyi əhatə edən divarın üzərində ehtiram əlaməti olaraq 44 günlük Vətən müharibəsində şəhid olmuş 2914 qəhrəmanın adı həkk edilib.

Muzeyin daxili quruluşu hər biri dərin məna daşıyan 8 sərgi zalından ibarətdir. Təqdim olunan faktlar, foto və videomateriallar, interaktiv nümayişlər və xüsusi olaraq bu muzey üçün hazırlanmış eksponatlar, maketlər münaqişə haqqında həqiqətləri, 44 günlük Vətən müharibəsinin gedişi, şanlı Zəfər nəticəsində dövlət suverenliyinin bərpa olunması barədə məlumatları ziyarətçiyə dolğun çatdırmaqla yanaşı, həm də bu hadisələri hər bir kəsə yenidən yaşadır.



Muzeyin "Qarabağ və Şərqi Zəngəzur. Əsrlərin hekayəsi" adlı birinci zalında Qarabağın təbii gözəlliyi, tarixi memarlıq baxımından zənginliyi təqdim edilir. Zalın divarındakı kitab instalyasiyalarında Ümummilli Lider Heydər Əliyevin bölgənin sosial-iqtisadi inkişafına verdiyi töhfələrə dair geniş məlumatlar var. Zalın mərkəzində yerləşən interaktiv kitablar isə Qarabağın təbiəti, ədəbi irsi, musiqisi və xalq sənəti ilə yaxından tanış olmağa imkan yaradır.



Zəfər muzeyinin "Ermənistan-Azərbaycan münaqişəsi. Tarixə baxış" zalı Qarabağ münaqişəsinin ağrılı səhifələrini əks etdirir. Burada münaqişənin xronologiyası, Ulu Öndərin və dövlətimizin başçısının apardıqları ardıcıl siyasət nəticəsində torpaqlarımızın işğaldan azad olunması, sülh prosesi barədə materiallar yer alıb. Qarabağda işğal dövründə dağıdılmış binaların, yerlə yeksan edilmiş yaşayış yerlərinin taleyinə həsr olunan instalyasiya - viran qalmış ev və bu evin qalıqları altından baş qaldıran ağac isə həyatın yenidən dirçəlişinin rəmzidir.



"44 günlük Vətən müharibəsi. "Dəmir yumruq" əməliyyatı" adlı üçüncü zal Azərbaycan torpaqlarının azadlığı uğrunda aparılan qəhrəmanlıq mübarizəsini əks etdirir. Burada süni intellekt əsaslı videomateriallar, LED monitorlar və 3D holoqrafik ekranlar ziyarətçini birbaşa döyüş meydanının atmosferinə aparır. Azərbaycan Silahlı Qüvvələrinin rəşadəti, qəhrəmanlıq salnaməsi və Ali Baş Komandanın fərmanları nümayiş olunur. "Şanlı Zəfər. Şuşanın azad olunması" adlı dördüncü zalda Azərbaycanın hərb tarixində xüsusi yer tutan, misilsiz taktiki bacarıqla həyata keçirilmiş əməliyyatı təqdim olunur. Zalın mərkəzindəki Şuşa maketi döyüş meydanını əks etdirir, interaktiv monitorlar isə əməliyyatın gedişini və əsas taktiki məqamları ardıcıl izləməyə imkan yaradır.

Azərbaycan əsgər və zabitlərinin igidliyinə, fədakarlığına və yenilməz iradəsinə həsr olunan "Qəhrəmanlar yolu" zalı isə ziyarətçilərə torpaqların azadlığı uğrunda aparılan mübarizənin ruhunu hiss etdirir. Burada Vətən müharibəsində iştirak etmiş qəhrəmanlara təqdim olunan orden və medalların nümunələri sərgilənir. Növbəti zal "Qarabağ Azərbaycandır!" adlanır və xalqımız üçün milli bayrama çevrilən Zəfər Gününü, ümumxalq sevincini əks etdirir. Zalın mərkəzində Vətən müharibəsində şanlı Zəfərin və Qarabağın dirçəlişinin rəmzinə çevrilmiş Xarıbülbülün Murano şüşəsindən hazırlanmış instalyasiyası yerləşir. Böyük ekranlarda 30 illik həsrətə son qoyan Zəfərin yaşatdığı qürurverici və sevinc dolu anlar nümayiş olunur.

"Dövlət suverenliyinin bərpası. 20.09.2023" adlı yeddinci zal Azərbaycanın suverenliyinin bərpasına həsr olunub. Xəritə instalyasiyasında Qarabağın və Şərqi Zəngəzurun tam azad edildiyi, Azərbaycan tarixində yeni bir dövrün başlandığı nümayiş olunur. Muzey boyunca izlənilən yol 44 günlük Vətən müharibəsinin şanlı salnaməsi ilə davam edir və 8 noyabrda Şuşanın azad olunması ilə Azərbaycanın çoxdan gözlənilən Qələbəsi ilə tamamlanır. "Qarabağ və Şərqi Zəngəzur. Dirçəliş" adlı zal isə Qarabağın bərpasına və gələcək inkişafına həsr olunub.

"Danışan fotolar"

Muzeyin memarı və dizayneri Françesko Cordana layihənin fəlsəfəsini şərh edərkən bildirir ki, bu işin dəyəri daha çox daşıdığı tarixi və rəmzi xarakterlə ölçülür. Onun sözlərinə görə, əsas məqsəd yalnız şəhərin bir hissəsinin transformasiyasını təsəvvür etmək deyil, həm də bütöv bir ölkənin tarixini, mədəniyyətini və cəmiyyətin ortaq duyğularını ifadə edən simvolik bir məkan yaratmaq olub.

Muzeyin memarlığı fəzada müəyyən ssenari yaradır: forma və konturlardakı gizli rəmzləri hər bir ziyarətçi daxilə addımladıqca özü kəşf edir. Məhz bu xüsusiyyətinə görə Zəfər muzeyi, sadəcə, bir möhtəşəm bina yox, hər bir küncü memarlıq dilində danışan canlı ssenaridir. Ziyarətçi içəri addımladığı andan memarlıq formalarının, işığın və kölgənin köməyi ilə 30 illik həsrətin, müharibənin gərginliyinin və Qələbənin doğurduğu o möhtəşəm hisslərin birbaşa iştirakçısına çevrilir.

Mütəxəssislərin fikirlərinə görə, fəzadakı bu gizli ssenari özünü üç əsas mərhələdə büruzə verir. Birinci, daralan və sıxılan məkanlar kimi: muzeyin ilk zallarında tavanların vizual olaraq daha alçaq və konturların kəskin olması xalqın 30 il ərzində yaşadığı torpaq itkisini, qaçqınlıq ağrısını və sıxıntılı dövrü psixoloji olaraq hiss etdirir. İkinci dinamik xətlər və hərəkətlər kimi (Dəmir Yumruq): döyüş əməliyyatlarının nümayiş olunduğu bölmələrə keçdikcə memarlıq elementləri kəsik, sürətli və şaquli formalara çevrilir. Bu, hücumun dinamikasını, Azərbaycan Ordusunun sarsılmaz sürətini və sındırılmaz iradəsini vizual olaraq canlandırır. Sonuncu genişlənən fəza və işıq seli kimi (Zəfər və Azadlıq): Şuşanın azadlığı və Suverenlik zallarına çatdıqda məkan birdənbirə genişlənir, tavanlar ucalır və içəri bol işıq daxil olur. Bu memarlıq fəndi ziyarətçidə daxili bir rahatlıq, nəfəs alma və milli qürur hissi yaradır. Zəfər muzeyindəki formaların fəlsəfəsi ziyarətçini passiv izləyici olmaqdan çıxarır, daxilə doğru atılan hər addım tarixi yenidən yaşamaq və gizli rəmzləri duyğularla kəşf etmək deməkdir.

Kompleksin unikal memarlıq fəlsəfəsini formalaşdıran əsas struktur element 44 metrlik Zəfər tağıdır. İki böyük yolun kəsişməsində ucalan tağ 44 sütundan ibarətdir. Hər bir sütun Vətən müharibəsinin bir gününü tərənnüm edir və onun 44 metr hündürlüyü bu müqəddəs tarixin miqyasını vizuallaşdırır. Digər maraq doğuran element "Danışan fotolar" və süni intellektdir. Şəhidlərin, qazilərin və müharibə şahidlərinin fotoları rəqəmsal olaraq canlanır və öz hekayələrini ziyarətçiyə birbaşa birinci şəxsin dilindən danışır.

Xarıbülbül instalyasiyası: Murano şüşəsindən hazırlanan və muzeyin mərkəzində ucalan nəhəng Xarıbülbül kompozisiyası həm zərifliyi, həm də qırılmaz milli iradəni simvolizə edən vizual bir şah əsərdir.

Bir əsas faktı da qeyd edək ki, Zəfər muzeyi məkanca təcrid olunmuş bina deyil. O, Zəfər və Hərbi Qənimətlər parkları ilə elə birləşdirilib ki, bu əraziyə gələn insan bütöv bir qəhrəmanlıq kompleksinin içinə daxil olur. Bu üç məkan bir-birini tamamlayaraq milli yaddaşın coğrafi mərkəzini formalaşdırır.

İradə ƏLİYEVA,
"Azərbaycan"

Böyük Zəfərin əbədi təntənəsi

O gün Azərbaycan xalqının yaddaşına, sadəcə, qələbə xəbəri ilə deyil, həm də milli qürurun, sarsılmaz iradənin, Vətən sevgisinin, haqq və ədalət uğrunda mübarizənin rəmzi, bütöv bir xalqın birləşib qazandığı Zəfər günü kimi həkk olundu. 2020-ci il noyabrın 8-də - Vətən müharibəsinin 44-cü günündə Azərbaycan Ordusunun Şuşanı işğaldan azad etməsi ilə xalqımızın 30 ilə yaxın davam edən yurd həsrətinə son qoyulacağına, tarixi ədalətin bərpa olunacağına və bayrağımızın Qarabağın hər guşəsində dalğalanacağına inamı gerçəyə çevrildi. 8 Noyabr - Zəfər Günü 30 ilə yaxın davam edən yurd həsrətinin sona çatmasının, milli birliyimizin və dövlətimizin qüdrətinin təntənəsi oldu.

Zəfər Gününə aparan yol uzun, ağrılı, məşəqqətli idi. Bu yolun başlanğıcında doğma yurdlarından didərgin salınmış insanların göz yaşları, dağıdılmış evlərin, söndürülmüş ocaqların tüstüsü, şəhid analarının fəryadı, Vətən torpağını son nəfəsinədək qoruyan igidlərimizin rahatsız ruhları vardı.

Bir vaxtlar Qarabağın, Şərqi Zəngəzurun səfalı guşələrində qurulan ailələr, uşaq səsləri ilə canlanan evlər, bərəkətli süfrələr, saf bulaqlar, yaşıl meşələr uzun illər düşmən tapdağı altında qalmışdı. Qədim Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur bölgələrində yaşayan soydaşlarımızın arzuları yarımçıq qalmış, minlərlə ailənin taleyinə ağır köçkünlük həyatı yazılmışdı.

Vətən torpaqları həsrətli, yurd nisgilli illərimiz uzun sürdü. Ancaq Azərbaycan xalqı heç zaman Qarabağa və Şərqi Zəngəzura qayıtmaq inamını itirmədi. Məcburi köçkün adının ağırlığından əziyyət çəkən, yorulan soydaşlarımız bir gün yenidən ata-baba ocağının qapısını açmaq, uşaqlıq xatirələrinin yaşadığı küçələrdən keçmək, doğma yerlərin havasını udmaq, illərlə həsrətində olduqları Vətənə qovuşmaq ümidi ilə günü-günə caladılar. Çünki onlar üçün yurd keçmişi, bu günü, gələcəyi, nəsillərdən-nəsillərə ötürülən mənəvi mirasları idi.

Torpaqlarımızın işğalı xalqımızın yaddaşında sağalmaz yaraya çevrilmişdi. Birinci Qarabağ müharibəsində minlərlə soydaşımız şəhid olmuş, əsir və girov götürülmüş, doğma ev-eşiyindən didərgin düşmüşdü. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən keçmiş SSRİ-nin Xankəndidə yerləşən 366-cı motoatıcı alayının iştirakı ilə Xocalıda dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı isə insanlığa qarşı yönəlmiş ən ağır cinayətlərdən biri kimi tarixə yazılmışdı. Günahsız insanların, körpələrin, qadınların, qocaların amansızlıqla qətlə yetirilməsi xalqımızın yaddaşında heç zaman silinməyəcək faciə idi.

1994-cü ildə atəşkəs elan edilsə də, müharibənin ağrıları bitməmişdi. Ermənistan təcavüzkar siyasətini davam etdirirdi. İşğalçı ölkənin silahlı qüvvələri tərəfindən Azərbaycan Ordusunun mövqeləri, yaşayış yerləri intensiv olaraq atəşə tutulur, əsgər və zabitlərimiz, mülki vətəndaşlarımız şəhid olurdular.

30 ilə yaxın müddətdə Azərbaycan dövləti münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında, sülh yolu ilə həllinə çalışdı. Dünyanın nüfuzlu təşkilatlarının qəbul etdiyi sənədlərdə Azərbaycanın ərazi bütövlüyü tanınsa da, bu qərarların icrası təmin olunmurdu. İşğalçı dövlətə öz cinayətlərinə görə layiqli yeri göstərilmirdi. Yenə də Qarabağın, Şərqi Zəngəzurun şəhər və kəndləri viran qoyulur, tarixi-mədəni abidələrimiz dağıdılır, təbii sərvətlərimiz talan edilirdi.

Bütün bunlara baxmayaraq, Azərbaycan xalqının iradəsi sarsılmadı. Dövlətimiz gücləndi, ordumuz müasirləşdi, hərbi qüdrətimiz artdı. Ən başlıcası isə xalqımızın qəlbində haqqın və ədalətin bir gün mütləq qalib gələcəyinə inam yaşadı. Prezident, Ali Baş Komandan İlham Əliyev beynəlxalq tribunalardan, ən yüksək kürsülərdən Azərbaycanın mövqeyini qətiyyətlə ifadə edirdi. Torpaqlarımızın işğalı ilə heç zaman barışmayacağımız, ərazi bütövlüyümüzün bərpa ediləcəyi bəyan olunurdu.

Nəhayət, 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti təxribatı Vətən müharibəsinin başlaması ilə nəticələndi. Başqa yol qalmamışdı. Azərbaycan Ordusu Vətənin müdafiəsinə qalxdı. O gün Azərbaycanın hər yerində bir həyəcan, bir intizar, bir inam vardı. İnsanlar televiziya ekranları qarşısında dövlət başçısının müraciətini dinləyir, cəbhədən gələn xəbərləri səbirsizliklə gözləyirdilər. Ali Baş Komandanın qətiyyətli mövqeyi, Azərbaycanın haqq işinə inamı hər kəsə güc verirdi. Onun səsləndirdiyi fikirlər xalqın qəlbindəki duyğuların ifadəsinə çevrilirdi: "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Azərbaycanın müxtəlif bölgələrindən minlərlə gənc Vətənin müdafiəsinə yollandı. Onların hər birinin qəlbində torpaqlarımızı işğaldan azad etmək, bayrağımızı Qarabağın, Şərqi Zəngəzurun hər guşəsində dalğalandırmaq, xalqımızın yurd həsrətinə son qoymaq arzusu, amalı, məqsədi vardı. O gənclərin əksəriyyəti ömrünün bahar çağlarındaydı. Gələcəkləri ilə bağlı arzuları sonsuz idi. Ancaq Vətənin taleyi həll olunan məqamda heç biri şəxsi arzularını düşünmədi. Çünki onlar üçün ən böyük xoşbəxtlik Azərbaycanın bütövlüyünü görmək, işğal altında qalmış torpaqlarımızın azadlığına şahid olmaq idi.

Əsgər və zabitlərimiz döyüş meydanında yalnız Azərbaycanın hərbi qüdrətini deyil, mənəvi gücünü də nümayiş etdirdilər. Vətən sevgisinin, torpağa bağlılığın, milli qürurun necə böyük qüvvəyə çevrilə biləcəyini bütün dünyaya göstərdilər. Müasir silahlarla təchiz edilmiş peşəkar Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi ilə irəliləyərək düşmənin uzun illər ərzində yaratdığı, alınmaz hesab etdiyi sədləri yarıb keçdi. Birbirinin ardınca kəndlərimiz, qəsəbələrimiz, şəhərlərimiz işğaldan azad edildi.

Hər azad edilən yaşayış məntəqəsi xalqımızın qəlbində yeni bir ümid çırağı yandırırdı. Cəbhədən gələn xoş xəbərlər ailələrə sevinc gətirir, insanlarımızın qələbəyə inamını artırırdı. Hər gün Azərbaycan tarixinə yeni bir qəhrəmanlıq səhifəsi yazılırdı. Bu səhifələrdə igid əsgərlərimizin qanı, şəhidlərimizin müqəddəs xatirəsi, qazilərimizin fədakarlığı vardı.

Və nəhayət, noyabrın 8-də bütün Azərbaycanın ürəyini riqqətə gətirən tarixi xəbər yayıldı. Azərbaycan xalqının ruhunu, mədəniyyətini, milli kimliyini özündə yaşadan müqəddəs şəhər, Qarabağın tacı, musiqimizin, incəsənətimizin beşiyi Şuşa işğaldan azad edilmişdi.

Hələ Vətən müharibəsinin davam etdiyi günlərdə dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsində müxbirin Şuşa ilə bağlı sualına cavabı belə olmuşdu: "İşğal edilmiş torpaqların hər bir qarışı, hər bir şəhər bizim üçün doğmadır, əzizdir. Mənim üçün hər bir kəndin dəyəri, qiyməti o biri kəndlə müqayisədə, o biri şəhərlə müqayisədə eynidir, bərabərdir. Ancaq siz də yaxşı bilirsiniz ki, Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Bu, bizim tarixi şəhərimizdir, qədim mədəniyyət ocağıdır. Şuşa Azərbaycan xalqına bir çox istedadlı, dahi şəxslər bəxş edibdir. Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar".

Noyabrın 8-də Ali Baş Komandan İlham Əliyev Şuşanın işğaldan azad olunması müjdəsini xalqa Şəhidlər xiyabanından çatdırdı: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" Bu xoş xəbər bütün ölkəni Zəfər qüruruna, bayram sevincinə bürüdü. Bu qələbə Azərbaycan əsgər və zabitlərinin misilsiz cəsarətinin, döyüş ruhunun, Vətənə sonsuz sevgisinin təcəssümü idi. Onlar tarixə yalnız hərbi qələbə deyil, həm də əsl qəhrəmanlıq nümunəsi yazmışdılar.

44 gün davam edən Vətən müharibəsi 2020-ci il noyabrın 10-da Ermənistanın kapitulyasiyası ilə nəticələnən üçtərəfli Bəyanatın imzalanması ilə başa çatdı. Azərbaycan xalqı uzun illərdən bəri gözlədiyi tarixi qələbəyə qovuşdu. 30 ilə yaxın davam edən işğalın sona çatması, torpaqlarımızın böyük hissəsinin azad edilməsi milli tariximizin ən şanlı hadisələrindən biri oldu.

Bu Zəfər ilk növbədə şəhidlərimizin qanı bahasına qazanıldı. Onların hər biri bu torpağın azadlığı uğrunda həyatını fəda etdi. Bu gün Qarabağın hər qarışında onların müqəddəs xatirəsi yaşayır. Şəhidlərimizin analarının, ataları, övladları və doğmaları üçün qələbənin sevinci ilə yanaşı, heç zaman sönməyəcək bir həsrət var. Biz Zəfər Gününü qeyd edərkən həmin müqəddəs həsrəti, Vətən uğrunda canından keçənlərin əziz xatirəsini də ürəyimizdə yaşadırıq.

Qələbəmiz şəhidlərimizin bizə əmanətidir. Onların qanı ilə azad edilmiş torpaqlarda bu gün həyat yenidən canlanır. Xarabalığa çevrilmiş şəhər və kəndlərimizdə quruculuq işləri aparılır, o cümlədən yollar çəkilir, məktəblər, yaşayış evləri, sosial obyektlər inşa edilir. "Böyük qayıdış" proqramı çərçivəsində keçmiş məcburi köçkünlərimiz doğma yurdlarına dönürlər. İllər boyu başqa ünvanlarda yaşayan soydaşlarımız öz ata-baba torpaqlarında yeni həyat qururlar.

Bu gün biz qalib xalqın nümayəndələri kimi başımızı dik tuturuq. Çünki Azərbaycan xalqı ən ağır sınaqlardan keçərək öz iradəsini, mübarizə əzmini qoruyub saxlamışdı. Biz heç zaman torpaqlarımızın işğalı ilə barışmamış, haqqımızdan dönməmiş, ədalətin bərpasına inamımızı itirməmişdik.

8 Noyabr - Zəfər Günü Vətənə sədaqətin, milli həmrəyliyin, şəhidlərimizin müqəddəs amalının, Azərbaycan dövlətinin qüdrətinin rəmzidir. Bu gün bayrağımızın Qarabağda, Şərqi Zəngəzurda, Azərbaycanın bütün guşələrində qürurla dalğalanması hər birimizə böyük fəxarət yaşadır.

Qarabağ artıq həsrətimizin deyil, qürurumuzun ünvanıdır. Şuşa azadlıq nəğməmizin, Xankəndi suverenliyimizin, azad edilmiş bütün torpaqlarımız milli birliyimizin rəmzidir. Bu torpaqlarda tikilən hər ev, açılan hər məktəb, salınan hər bağ, ucaldılan hər bayraq Zəfərimizin davamıdır.

Zöhrə FƏRƏCOVA,
"Azərbaycan"

VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ



Zəfərin Xankəndi imzası

Üç il əvvəl qədim şəhərimizdə Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan Hərbi parad keçirilib

Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış, Xankəndi şəhərində Vətən müharibəsində əldə edilmiş Zəfərin üçüncü ildönümünə həsr olunmuş möhtəşəm Hərbi parad hər birimizin ürəyini qürur hissi ilə doldurdu. 8 noyabr 2023-cü ildə keçirilmiş bu tarixi parad Zəfər ordumuzun qüdrətinin nümayişi olmaqla yanaşı, xalqımızın haqq səsinin, suverenliyimizin tam bərpasının və tarixi ədalətin təntənəsinin təcəssümü idi.

O gün dünya Xankəndidə yaşanan zəfər təntənəsinə şahidlik etdi. Şəhərin mərkəzində ucalan ay-ulduzlu, üçrəngli bayrağımız məğrur-məğrur dalğalandıqca dosta sevinc, düşmənə gözdağı oldu. Xankəndidən ucalan qələbə marşının sədaları altında çiyin-çiyinə addımlayan igid oğullarımız başlarını dik tutaraq Müzəffər Ali Baş Komandan İlham Əliyevi, qalib Azərbaycan xalqını və müqəddəs şəhidlərimizin ruhunu böyük fəxarətlə salamladılar. "Qarabağ Azərbaycandır!" haqq nidasını bir daha dünyaya hayqırdılar.

Düz altı il əvvəl - 2020-ci il noyabrın 8-də Şuşada qazandığımız o misilsiz qələbənin sevincini 2023-cü ilin payızında Xankəndidə bir daha yaşadıq. 44 günlük Vətən müharibəsinin qürurlu nəticəsi idi ki, oktyabrın 15-də Müzəffər Ali Baş Komandan İlham Əliyev Xankəndidə, Xocalıda, Ağdərədə, Suqovuşanda və digər doğma yurdlarımızda üçrəngli bayrağımızı ucaltdı.

Azərbaycan xalqı indi yaşadığı bu qələbə coşqulu günlərə addım-addım qətiyyətlə, əzmlə yetişdi.

Xankəndidə keçirilən Hərbi parad xalqımız üçün həm də dərin rəmzi məna daşıyan tarixi hadisə idi. Hələ 1919-cu ildə Cümhuriyyət qurucuları da Xankəndidə Hərbi parad keçirmişdilər. 104 il sonra - 2023-cü ildə Qarabağın bu qədim yurdu özünün qürur tarixini yenidən yaşadı.

Vətən müharibəsinin üçüncü ildönümünə həsr olunmuş Xankəndidəki hərbi paradda Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev iştirak etdilər.

Paradda Silahlı Qüvvələrin heyətlərinin hərbi orkestrin müşayiəti ilə təntənəli keçidi oldu. Parad heyətləri Azərbaycan Dövlət Bayrağı və Şuşa şəhərinə sancılan - Qələbənin rəmzinə çevrilən Zəfər Bayrağı altında tribunaya doğru irəlilədilər. Ardınca Azərbaycan Ordusunun və qoşun növlərinin, lokal xarakterli antiterror tədbirlərində iştirak etmiş hərbi birləşmələrin döyüş bayraqları Xankəndi şəhərinin mərkəzi meydanına gətirildi. Sonra Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin parad heyətinin keçidi oldu. Əlahiddə Ümumqoşun Ordunun heyətləri tribuna önündən mətin addımlarla irəlilədilər...

Parad heyətlərinin keçidindən sonra antiterror tədbirləri zamanı müsadirə olunan hərbi texnikaların kiçik bir qismi qoşqular üzərində Xankəndi şəhərinin mərkəzi meydanına gətirildi. Müsadirə edilmiş hərbi texnikaların və nəqliyyat vasitələrinin nömrə nişanlarından hazırlanan və üzərində "Zəfər" sözü həkk edilən lövhə nümayiş olundu.





Təntənəli paradda çıxış edən qalib lider İlham Əliyev bir daha bəyan etdi: "Bu günü bizə bəxş edən müzəffər Silahlı Qüvvələrimiz döyüş meydanında cəsarət, qəhrəmanlıq, fədakarlıq göstərərək düşməni bizim əzəli torpaqlarımızdan qovmuşdur. Bu, böyük tarixi hadisədir. Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq Qələbə olmamışdır. Şuşa əməliyyatı, 44 gün ərzində apardığımız bütün digər hərbi əməliyyatlar, hərbçilərimizin şücaəti bir qəhrəmanlıq dastanıdır".

Xankəndidə ucalan zəfər sədaları, suverenliyimizin tam bərpa olunması tarixi ədalətin ən möhtəşəm təsdiqidir. 2023-cü il noyabrın 8-də qəhrəman oğullarımızın Xankəndinin Zəfər meydanından mətin addımlarla keçməsi bir daha göstərdi ki, bu qələbə əbədidir, bu torpaqlar azad və bölünməzdir. Qarabağda əbədi dalğalandırılan bayrağımız milli qürurumuzun, dəmir iradəmizin və sarsılmaz birliyimizin rəmzidir.

Yasəmən MUSAYEVA,
"Azərbaycan"

7 ZƏFƏR gündəliyi
7 noyabr 2020-ci il

Erməni əsgəri döyüşməkdən imtina edib

Noyabrın 7-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin mövqelərini və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutub. Döyüş əməliyyatları müxtəlif intensivlikdə əsasən cəbhənin Ağdərə, Ağdam və Xocavənd istiqamətlərində davam edib. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib.

Cəbhənin Ağdərə istiqamətində Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının müdafiə sahəsində döyüş mövqelərinin artilleriya atəşinə tutulması nəticəsində şəxsi heyət arasında ölən və yaralananlar olub. Düşmənin bir neçə avtomobil texnikası və minaatan qurğusu sıradan çıxarılıb.

Azərbaycan Ordusu bölmələri tərəfindən həyata keçirilən əməliyyat nəticəsində düşmənin 6-cı dağatıcı alayının 1-ci taboru bölmələrinin şəxsi heyəti arasında itkilər var. Düşmənin D-30 artilleriya diviziyonunun 3-cü batareyasının topları da məhv edilib.

Prezident İlham Əliyevdən xalqa müjdəli xəbər

Prezident İlham Əliyev rəsmi "Tvitter" (indiki "X") hesabında müjdəli xəbər paylaşıb: "Müzəffər Azərbaycan Ordusu Füzulinin Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar, Divanalılar, Cəbrayılın Yuxarı Məzrə, Yanarhac, Qubadlının Qəzyan, Balasoltanlı, Mərdanlı, Zəngilanın Beşdəli, Xocalının Qarabulaq, Moşxmaat, Xocavəndin Ataqut, Tsakuri kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"



Tərtər və Ağdamın kəndləri artilleriya atəşinə tutulub

Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər rayonunun Şıxarx qəsəbəsini, Qazyan və Hüsənli kəndlərini, Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndini və Ağdamın Çullu və Çıraqlı kəndlərini artilleriya atəşinə tutub.

Ermənistanın daha bir yalanı ifşa edilib

Ermənistan daha bir dezinformasiya yayıb. Guya Qubadlı rayonu ərazisindən Ermənistanın Qafan şəhəri yaxınlığındakı David Bek kəndi bölmələrimiz tərəfindən atəşə tutulub. Müdafiə Nazirliyi bildirib ki, bu, Ermənistan tərəfinin yaydığı təxribat xarakterli növbəti dezinformasiyadır. Əksinə, Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan ərazisindən Qubadlı rayonunun işğaldan azad olunmuş kəndlərini və Azərbaycan Ordusu bölmələrinin mövqelərini gün ərzində intensiv atəşə tutub. Ordumuz yalnız sərhədlərimiz çərçivəsində düşmənin atəş nöqtələrinə qarşı adekvat tədbirlər görüb.

Bərdə atəşə tutulub, bir nəfər həlak olub

Ermənistan silahlı qüvvələrinin bölmələri Bərdə rayonunun Əyricə kəndini atəşə tutub. Nəticədə bir nəfər kənd sakini həlak olub.

"Azərbaycan"



Peru mətbuatı Azərbaycanın Zəfər Günündən yazıb



Azərbaycanın Zəfər Günü ilə bağlı Perunun "larazon.pe" və "prensa21.com" portallarında məqalələr dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalələrdə Şuşanın azad edilməsinin tarixi dönüş nöqtəsi olduğu vurğulanıb: "Vətən müharibəsinin taleyini müəyyən edən əsas hadisələrdən biri Qarabağın mədəniyyət paytaxtı, hər bir azərbaycanlı üçün xüsusi mənəvi əhəmiyyət daşıyan Şuşa şəhərinin azad edilməsi oldu. XVIII əsrdə əsası qoyulan bu şəhər Azərbaycanın zəngin mədəniyyət və incəsənət ənənələrinin formalaşmasında mühüm rol oynayıb. Şuşa görkəmli bəstəkarların, şairlərin, musiqiçilərin və ziyalıların vətəni kimi Azərbaycan mədəniyyətinə misilsiz töhfələr verib".

Bildirilir ki, 2020-ci il noyabrın 8-də Şuşanın azad olunması yalnız hərbi qələbə deyil, həm də Azərbaycanın tarixi yaddaşının və milli kimliyinin bərpası baxımından mühüm hadisə olub. Şuşa Azərbaycan xalqı üçün nəsillər arasında qırılmaz mənəvi bağın, tarixi irsin və milli kimliyin rəmzidir. Məhz bu səbəbdən noyabrın 8-i həm Zəfər Günü, həm də Şuşa Şəhəri Günü kimi qeyd edilib.

Vurğulanıb ki, 44 günlük müharibə - milli həmrəyliyin və iradənin təntənəsidir. Vətən müharibəsi Azərbaycan xalqının birliyini, həmrəyliyini və öz suverenliyini qorumaq əzmini bütün dünyaya nümayiş etdirib. Bu ağır sınaq dövlətin və cəmiyyətin vahid məqsəd ətrafında birləşməsinin əhəmiyyətini bir daha ortaya qoyub.

Məqalələrdə tarixi Qələbənin əldə olunmasında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyinin mühüm rol oynadığı xüsusi vurğulanıb.

"Zəfər Günü, eyni zamanda Vətənin müdafiəsi uğrunda qəhrəmanlıq göstərən şəhidlərin əziz xatirəsinə ehtiram, qazilərin və müharibə veteranlarının fədakarlığına minnətdarlıq günüdür. Bu tarix xalqın azadlıq və suverenlik uğrunda mübarizəsinin yaddaşlarda əbədi yaşayacağını ifadə edir", - deyə məqalələrdə qeyd olunub.

Zəfər Günü Azərbaycan xalqının birliyinin, dövlətimizin gücünün və milli iradəmizin rəmzidir

Azərbaycan xalqının çoxəsrlik tarixində elə hadisələr var ki, onlar yalnız bir dövrün deyil, bütöv bir xalqın taleyini dəyişir. Qarabağın işğaldan azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpası məhz belə tarixi hadisələrdəndir. 2020-ci ildə qazanılmış 44 günlük Vətən müharibəsi və 2023-cü ildə suverenliyin ölkənin bütün ərazisində bərpası Azərbaycan tarixinin ən mühüm səhifələrindən biri kimi yadda qalmışdır.



Bu tarixi nailiyyətlərin əldə olunmasında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin siyasi iradəsi, qətiyyətli rəhbərliyi, strateji düşüncəsi və diplomatik fəaliyyəti mühüm rol oynayıb.

Qarabağ münaqişəsinin həlli Azərbaycan dövlətinin qarşısında duran ən mühüm vəzifələrdən biri idi. 1990-cı illərin əvvəllərində Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının bir hissəsi işğal edilib, yüz minlərlə soydaşımız doğma yurdlarından didərgin düşüb. İlham Əliyev 2003-cü ildə Prezident seçildikdən sonra Qarabağ məsələsini dövlət siyasətinin əsas prioritetlərindən biri kimi müəyyənləşdirdi. Onun rəhbərliyi ilə Azərbaycan həm diplomatik müstəvidə, həm də müdafiə sahəsində ardıcıl fəaliyyət göstərdi. Bu siyasətin mühüm istiqamətlərindən biri beynəlxalq hüququn imkanlarından istifadə etmək idi. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələri Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəkləyən, işğal olunmuş ərazilərdən qüvvələrin çıxarılmasını tələb edən mühüm sənədlər idi.

Prezident İlham Əliyev beynəlxalq tribunalarda dəfələrlə Azərbaycanın ərazi bütövlüyünün bərpasının vacibliyini vurğulayır, münaqişənin beynəlxalq hüquq normaları əsasında həll edilməsini tələb edirdi. Onun siyasi mövqeyinin əsasını Azərbaycanın ərazi bütövlüyünün heç bir halda müzakirə mövzusu ola bilməyəcəyi prinsipi təşkil edirdi.

Tarixi Zəfərin əldə edilməsində mühüm amillərdən biri də güclü və müasir ordunun formalaşdırılması idi. Prezident İlham Əliyevin prezidentliyi dövründə Azərbaycan Silahlı Qüvvələrinin maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirildi. Ordunun müasir silah və texnika ilə təchizatı, hərbi təhsil sisteminin inkişafı, peşəkar kadr hazırlığı və beynəlxalq hərbi əməkdaşlığın genişləndirilməsi istiqamətində mühüm addımlar atıldı. Bu hazırlığın nəticələri 2020-ci il Vətən müharibəsində aydın şəkildə özünü göstərdi. Beləliklə, Qarabağ Zəfəri yalnız döyüş meydanında əldə edilmiş hərbi uğur deyil, həm də uzun illər ərzində həyata keçirilmiş ordu quruculuğu siyasətinin nəticəsi idi.

27 sentyabr 2020-ci ildə Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı hərbi hücumundan sonra Azərbaycan Ordusu əks-hücum əməliyyatlarına başladı və müasir tariximizə tarixə 44 günlük Vətən müharibəsi kimi daxil olan müharibə başlandı. Müharibə dövründə Prezident İlham Əliyevin fəaliyyəti bir neçə istiqamətdə xüsusi əhəmiyyət daşıyırdı. Ali Baş Komandan İlham Əliyev hərbi əməliyyatların ümumi strateji idarə olunması və dövlətin müdafiə siyasətinin əlaqələndirir, xalqa müraciətləri ilə cəmiyyətdə ruh yüksəkliyinin və milli həmrəyliyi gücləndirir, xarici media qurumlarına müsahibələr vasitəsilə Azərbaycanın mövqeyini dünya ictimaiyyətinə çatdırırdı. 44 gün ərzində Azərbaycan Ordusu Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı şəhərləri də daxil olmaqla çoxsaylı yaşayış məntəqələrini və strateji yüksəklikləri azad etdi. Nəhayət, 8 noyabr 2020-ci ildə Şuşanın azad edilməsi müharibənin taleyini müəyyən edən ən mühüm hadisələrdən biri oldu. Bu həm hərbi, həm də mənəvi-siyasi baxımdan müstəsna əhəmiyyət daşıyırdı. Azərbaycan xalqının mədəniyyət paytaxtı hesab etdiyi bu şəhərin geri qaytarılması Zəfərin əsas rəmzlərindən birinə çevrildi. Şuşanın azad edilməsindən iki gün sonra, 10 noyabr 2020-ci ildə Azərbaycan, Rusiya və Ermənistan liderlərinin üçtərəfli Bəyanatı imzalandı. Sənəd əsasında hərbi əməliyyatlar dayandırıldı və Ağdam, Kəlbəcər, Laçın rayonlarının Azərbaycana qaytarılması razılaşdırıldı.

Bəyanatın şərtlərinə əsasən Ağdam rayonu 20 noyabr 2020-ci ildək, Kəlbəcər rayonu 25 noyabra, Laçın rayonu 1 dekabradək Azərbaycana təhvil verilməli idi və verildi. Bu sənədin imzalanmasında Prezident İlham Əliyevin siyasi və diplomatik fəaliyyəti mühüm rol oynadı. Müharibə meydanında qazanılmış üstünlüyün siyasi nəticəyə çevrilməsi Azərbaycanın əsas diplomatik uğuru idi.

2020-ci il Zəfərindən sonra Qarabağın bir hissəsində müvəqqəti Rusiya sülhməramlı kontingenti yerləşdirildi. Bu səbəbdən Azərbaycanın suverenliyinin ölkənin bütün ərazisində tam bərpası məsələsi gündəmdə qalmaqda davam edirdi. 19 sentyabr 2023-cü ildə Azərbaycan Qarabağda lokal xarakterli hərbi əməliyyata başladı. 20 sentyabrda əldə edilmiş razılaşmadan sonra separatçı silahlı birləşmələrin tərk-silah edilməsi və fəaliyyətlərinə xitam verilməsi nəzərdə tutuldu. Nəticədə Azərbaycan dövlətinin suverenliyi Qarabağın bütün ərazisində bərpa edildi. Bu hadisə 2020-ci ildə qazanılmış Zəfərin davamı və dövlət müstəqilliyinin ərazi baxımından bütövləşməsi kimi qiymətləndirilə bilər.

Bu Zəfər Azərbaycan əsgər və zabitlərinin qəhrəmanlığı, şəhidlərimizin fədakarlığı, qazilərimizin iradəsi, xalqımızın birliyi və dövlətin uzunmüddətli siyasətinin birgə nəticəsi idi.

Qarabağın azad edilməsi Azərbaycan xalqının milli iradəsinin, dövlətçiliyinin və müstəqilliyinin təntənəsidir. 44 günlük Vətən müharibəsində qazanılan Qələbə və 2023-cü ildə suverenliyin tam bərpası uzun illər davam edən mübarizənin mühüm nəticələridir.

Bu gün azad Qarabağda aparılan bərpa və quruculuq işləri, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı Zəfərin yeni mərhələsini təşkil edir. 8 Noyabr - Zəfər Günü Azərbaycan xalqının birliyinin, dövlətimizin gücünün və milli iradəmizin rəmzidir. Qarabağın azad edilməsi Azərbaycan tarixində Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş ən mühüm tarixi nailiyyətlərdən biri kimi qalacaqdır.

AZƏRTAC


Zəfər Günümüz mübarək!
Şuşa
Azercell
Azercell 30

GCM GLOBAL ENERGY AZERBAIJAN

"Global Energy Azerbaijan"
şirkəti və onun törəmə şirkətləri
Azərbaycan xalqını

"Absheron Operating Company"
"Binagadi Oil Company"
"Karasu Operating Company"
"Shirvan Operating Company"
"Neftechala Operating Company"

Zəfər Günü və Dövlət Bayrağı Günü
münasibətilə
təbrik edir,
xoş günlər və
firavan həyat arzulayır!



Azərbaycanın tarixi təcrübəsi - dondurulmuş münaqişədən tam qələbəyə

İkinci Dünya müharibəsindən sonra beynəlxalq münasibətlər sisteminin qarşısında duran əsas vəzifələrdən biri yeni müharibələrin qarşısını almaq, dövlətlərin ərazi bütövlüyünü qorumaq və münaqişələri sülh yolu ilə həll etmək idi. 1945-ci ildə Birləşmiş Millətlər Təşkilatının (BMT) yaradılması bu məqsədlərin hüquqi və siyasi əsaslarını formalaşdırdı.

Lakin sonrakı onilliklər göstərdi ki, beynəlxalq hüququn mövcudluğu heç də bütün münaqişələrin həllinə təminat vermir. Dünyanın müxtəlif regionlarında müharibələr dayandırılmış, atəşkəslər imzalanmış, danışıqlar aparılmış, beynəlxalq vasitəçilik mexanizmləri yaradılmışdı. Amma bir çox halda münaqişələrin əsas səbəbləri aradan qaldırılmamışdı. Bu tarixi mənzərəni müvəqqəti susmuş vulkanla müqayisə etmək olardı. Vulkanın səthində sakitlik yarana, tüstü görünməyə bilər. Lakin dərinlikdəki təzyiq qalırsa, onun yenidən püskürməsi təhlükəsi də olur. Dünyanın bir çox münaqişəsi bu gün də məhz belədir - silahlar susur, lakin siyasi, ərazi və ideoloji ziddiyyətlər yaşamaqda davam edir.

Koreya müharibəsi bunun ən aydın nümunələrindəndir. 1950-ci il iyunun 25-də başlayan müharibə 1953-cü il iyulun 27-də atəşkəslə dayandırıldı. Milyonlarla insanın həyatına son qoyan bu müharibədən sonra Koreya yarımadası iki dövlətə bölündü. İndiyədək tərəflər arasında yekun sülh müqaviləsi imzalanmayıb. Yəni müharibənin aktiv mərhələsi dayansa da, onun yaratdığı siyasi qarşıdurma 73 ildən artıqdır ki, davam edir.

Kipr adasında da oxşar mənzərədir. 1963-cü ildə başlayan icmalararası qarşıdurma, 1974-cü ildə baş verən hadisələr və Türkiyənin hərbi müdaxiləsi nəticəsində adanın faktiki bölünməsi ilə nəticələndi. BMT-nin yaratdığı bufer zona onilliklər ərzində hərbi toqquşmaların qarşısını almağa kömək etsə də, adanın siyasi birləşməsi məsələsi həll edilməmiş qalır. Kipr İtkin Şəxslər Komitəsinin məlumatlarına görə, 1963-1974-cü illərin hadisələri ilə əlaqədar 2002 nəfər itkin düşmüş şəxs kimi qeydə alınıb.

1947-ci ildən başlayan Kəşmir münaqişəsi Hindistan və Pakistan arasında dəfələrlə müharibələrə, sərhəd toqquşmalarına və ciddi siyasi böhranlara səbəb olmuşdur. Xüsusilə 1989-cu ildən etibarən bölgədə silahlı qarşıdurmaların genişlənməsi on minlərlə insanın həyatına son qoymuşdur. 1991-ci ildə atəşkəs əldə edilən Qərbi Sahara münaqişəsində də əsas siyasi məsələ həll olunmadığından 2020-ci ildə silahlı qarşıdurma yenidən alovlanmışdı. Bütün bunlar bir həqiqəti əks etdirir - atəşkəs müharibənin dayandırılmasıdır, amma həlli deyil.

Azərbaycanın Ermənistanla yaşadığı Qarabağ münaqişəsi də uzun müddət bu tarixi modelin tərkib hissəsi olmuşdu. Münaqişənin müasir mərhələsi 1988-ci ildə Ermənistanın ərazi iddiaları və Dağlıq Qarabağda separatçı hərəkatın güclənməsi ilə başlamışdı. 1991-1994-cü illərdə baş verən Birinci Qarabağ müharibəsi nəticəsində Azərbaycanın əraziləri işğal edilmiş, yüz minlərlə insan doğma yurdlarından didərgin salınmışdı. 1994-cü il mayın 12-də atəşkəs əldə edilsə də, Azərbaycan torpaqları işğal altında qalmış, separatçı qurum fəaliyyətini davam etdirmiş, məcburi köçkünlər evlərinə qayıda bilməmişlər. Müharibənin aktiv mərhələsi dayansa da, münaqişənin özü həll olunmamış qalırdı.

1993-cü ildə BMT Təhlükəsizlik Şurası Qarabağ münaqişəsi ilə əlaqədar 822, 853, 874 və 884 saylı 4 qətnamə qəbul etdi. Bu sənədlərdə hərbi əməliyyatların dayandırılması, işğal olunmuş ərazilərdən qüvvələrin çıxarılması və Azərbaycanın ərazi bütövlüyünə hörmət edilməsi ilə bağlı mühüm müddəalar yer alırdı. Lakin beynəlxalq hüququn bu tələbləri uzun illər icrasız qaldı.

Azərbaycan təxminən 27 il ərzində münaqişənin sülh yolu ilə həllinə üstünlük verərək ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlarda iştirak etsə də, vasitəçilik prosesi işğalın aradan qaldırılmasına və münaqişənin yekun həllinə gətirib çıxarmadı. Prezident İlham Əliyev dəfələrlə bəyan etmişdi ki, Ermənistan danışıqları uzatmaqla mövcud status-kvonu qorumağa çalışır.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi bu tarixi dalanın sonunu gətirən dönüş nöqtəsi oldu. Azərbaycan Ordusu işğal olunmuş ərazilərin mühüm hissəsini azad etdi. Noyabrın 8-də Şuşanın azad edilməsi müharibənin həlledici hadisələrindən biri oldu. Noyabrın 10-da imzalanan üçtərəfli Bəyanatla hərbi əməliyyatlar dayandırıldı, Ağdam, Kəlbəcər və Laçın rayonlarının Azərbaycana qaytarılması təmin edildi.

Amma 2020-ci il qələbəsi hələ bütün problemlərin aradan qalxması demək deyildi. Qarabağda separatçı idarəetmə strukturları və silahlı birləşmələr mövcudluğunu davam etdirirdi. Azərbaycan isə bölgədə dövlət suverenliyini tam təmin etməyə qərarlı idi. 2023-cü il sentyabrın 19-da Azərbaycan Qarabağda lokal xarakterli antiterror tədbirlərinə başladı. Sentyabrın 20-də əldə edilən razılaşmadan sonra hərbi əməliyyatlar dayandırıldı, separatçı silahlı birləşmələrin fəaliyyəti sona çatdı. Bununla da Azərbaycan dövlətinin suverenliyi bütün ölkə ərazisində tam bərpa edildi.

Burada Azərbaycanın qələbəsinin mütləq və tam olması məsələsinin mahiyyəti üzə çıxır. Mütləq qələbə hərbi məqsədlərə nail olmaq, qarşı tərəfin əvvəlki hərbi-siyasi mövqeyini qorumaq imkanlarını aradan qaldırmaqdır. Tam ərazi-siyasi həll isə işğalın sona çatması, separatçı idarəetmənin ləğvi və dövlət suverenliyinin bütün ərazidə təmin edilməsidir. Azərbaycan bu baxımdan tarixi nəticə əldə etdi. Bu nailiyyətin arxasında güclü dövlət quruculuğu, iqtisadi inkişaf, müasir ordu, hərbi texnologiyaların tətbiqi, diplomatik fəaliyyət və siyasi iradə dayanırdı.

Separatizm harada baş qaldırmasından asılı olmayaraq, bütöv regionun gələcəyini təhlükə altına alır. O, cəzasız qalanda paralel idarəetmə strukturları yaradır, silahlı qüvvələr formalaşdırır, münaqişəni illər boyu davam etdirir. Qarabağda onilliklər ərzində mövcud olmuş separatçı sistem də Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına, regional iqtisadi əməkdaşlığa və Cənubi Qafqazın təhlükəsizliyinə mane olurdu.

Azərbaycan hərbi qələbədən sonra da sülh gündəliyinə sadiq qaldı. Prezident İlham Əliyev Ermənistanla münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin hazırlanması təşəbbüslərini davam etdirdi. 2025-ci il avqustun 8-də Vaşinqtonda, ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Azərbaycan və Ermənistan xarici işlər nazirləri Sülh və Dövlətlərarası Münasibətlərin Qurulması haqqında sazişin mətnini parafladılar. Həmin gün imzalanan Vaşinqton Bəyannaməsi regional sülh və əməkdaşlıq istiqamətində mühüm siyasi mərhələ oldu. Bu hadisə Azərbaycanın hərbi qələbəni siyasi və diplomatik sülh gündəliyi ilə tamamlamaq iradəsini nümayiş etdirdi.

Azərbaycanın təcrübəsi beynəlxalq münasibətlər tarixi baxımından mühüm nəticə ortaya qoyur. Koreyada atəşkəs siyasi bölünməni aradan qaldırmadı, Kiprdə bufer zona adanın birləşməsini təmin etmədi, Kəşmirdə atəşkəslər ərazi mübahisəsini həll etmədi, Qərbi Saharada uzunmüddətli sakitlik münaqişənin yenidən alovlanmasına mane ola bilmədi, Azərbaycan isə 2020-ci və 2023-cü illərdə öz ərazi bütövlüyünü və dövlət suverenliyini bərpa etdi. Bu, Azərbaycanın tarixi qələbəsinin ən mühüm nəticələrindəndir.

Amma hərbi qələbənin uzunmüddətli siyasi uğura çevrilməsi üçün sülhün möhkəmləndirilməsi, humanitar problemlərin həlli və qarşılıqlı etimadın yaradılması vacibdir. Çünki davamlı sülh silahların susması ilə yanaşı, gələcək nəsillərin təhlükəsiz və firavan yaşamasının qarantıdır. Tarix göstərir ki, dünyanın bir çox münaqişəsində silahlar müvəqqəti sussa da, dərinlikdəki ziddiyyətlər yenidən alovlanır. Odur ki, ən böyük qələbə torpaqları azad etmək deyil, həmin torpaqlarda gələcək nəsillərin müharibəsiz yaşayacağı təhlükəsiz gələcək qurmaqdır. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin səyləri də məhz münaqişəsiz, sülh və əmin-amanlıq şəraitində yaşayan Cənubi Qafqazın formalaşmasına yönəlib.

Elşən QƏNİYEV,
"Azərbaycan"

Milli birliyin, Vətən sevgisinin və tarixi qürurun təcəssümü

Tarixdə elə günlər var ki, onlar bütöv bir xalqın taleyini dəyişən, milli yaddaşına əbədi həkk olunan dönüş nöqtəsidir. Vətən müharibəsi Azərbaycan xalqı üçün məhz belə bir tarixi hadisə oldu. Bu müharibə yalnız torpaqlarımızın işğaldan azad edilməsi uğrunda aparılan hərbi əməliyyat deyildi. Bu, illərlə qəlbimizdə daşıdığımız nisgilin, içimizdə böyütdüyümüz ümidin, heç zaman sönməyən Vətən sevgisinin və milli iradəmizin təntənəsi idi. Azərbaycan xalqının 44 gün ərzində təkcə döyüş meydanında deyil, həm də arxa cəbhədə nümayiş etdirdiyi birlik nəticəsində illərlə həsrətində olduğumuz torpaqlarımıza qovuşduq, gələcək nəsillərə başıuca, qalib bir dövlətin vətəndaşı olmaq səadətini bəxş etdik.

Otuz ilə yaxın müddət ərzində Qarabağ bizim üçün yalnız xəritədəki coğrafi məkan deyildi. Qarabağ bir nisgil idi, yarımçıq qalmış arzular, doğma yurduna dönə bilməyən insanların gözlərində donub qalmış kədər idi. Bir zamanlar Şuşanın küçələrində gəzən, Ağdamın bağlarında böyüyən, Füzulinin, Cəbrayılın, Zəngilanın, Qubadlının, Kəlbəcərin, Laçının gözəlliklərini yaşayan insanlar illərlə həmin yerlərə yalnız xatirələrində qayıda bilirdilər. Doğma evinin açarını onilliklər boyu qoruyub saxlayan, bir gün o qapını yenidən açacağına inanan insanlar vardı. Hər bayramda, hər ailə məclisində, hər xoş gündə onların qəlbində bir boşluq yaşayırdı.

Biz işğal dövründə böyüyən bir nəslin nümayəndələri olaraq hər dəfə Qarabağın adı çəkiləndə içimizdə həm kədər, həm də bir gün o torpaqlara qayıdacağımıza dair sarsılmaz inam yaranırdı. Bu inam illər keçdikcə zəifləmədi, əksinə, milli yaddaşımızın ayrılmaz hissəsinə çevrildi. Biz Qarabağı görmədən sevən, onun həsrətini orada yaşamadan duyan nəsillər yetişdirdik.

2020-ci ilin payızında tarix dəyişdi. Sentyabrın 27-də başlayan Vətən müharibəsi xalqımızın uzun illər gözlədiyi ədalətin bərpasına aparan yol oldu. Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə döyüş meydanında böyük qəhrəmanlıq nümayiş etdirdi. Hər gün cəbhədən gələn xəbərlər xalqımızın ürəyində yeni ümidlər oyadırdı. Bir-birinin ardınca işğaldan azad edilən yaşayış məntəqələrinin adları səsləndikcə illərlə içimizdə yığılan kədər qürura çevrilirdi. Cəbrayılın, Füzulinin, Zəngilanın, Qubadlının azad edilməsi, nəhayət, noyabrın 8-də Şuşadan gələn Zəfər müjdəsi tariximizə silinməz hərflərlə yazıldı.

Bu tarixi qələbənin əldə olunmasında Ali Baş Komandanın siyasi iradəsi, qətiyyəti və strateji rəhbərliyi mühüm rol oynadı. Prezident İlham Əliyev müharibə dövründə xalqın dəstəyinin və inamının onun üçün nə qədər əhəmiyyətli olduğunu belə ifadə etmişdi: "Mən xalqın dəstəyini hiss edirdim, xalqın inamını görürdüm. Məni heç nə dayandıra bilməzdi". Bu fikirlər Vətən müharibəsində siyasi rəhbərliklə xalq arasında formalaşan etimadın, qarşılıqlı inamın və ortaq məqsəd ətrafında birləşməyin əhəmiyyətini aydın şəkildə ifadə edir.

Həmin günlərdə siyasi baxışları, sosial vəziyyətləri, yaşları, peşələri fərqli olan insanları yalnız bir amal birləşdirdi - Vətən. Ön cəbhədə əsgərlərimiz döyüşür, arxa cəbhədə milyonlarla insan onların qələbəsinə inanır, ordumuza mənəvi dəstək göstərirdi. Azərbaycan bayrağı hər evin, hər küçənin, hər ürəyin qürur rəmzinə çevrilmişdi. Həmin 44 gündə xalqımız bir daha sübut etdi ki, milli maraqlar və Vətənin taleyi qarşısında birləşməyi bacaran cəmiyyətin iradəsini sarsıtmaq mümkün deyil. Bu birlik gücümüzün yalnız hərbi və iqtisadi imkanlarla deyil, həm də xalqın öz dövlətinə inamı ilə ölçüldüyünü göstərdi. Prezident İlham Əliyev də 44 günlük Vətən müharibəsinin nəticələrini qiymətləndirərkən xalqın həmrəyliyini və Azərbaycan Ordusunun qəhrəmanlığını xüsusi vurğulamışdı: "Azərbaycan xalqı birlik, həmrəylik göstərdi. Azərbaycan Ordusu rəşadət, qəhrəmanlıq, peşəkarlıq göstərdi. Bütün xalqımız bir yumruq kimi birləşib, düşmənə sarsıdıcı zərbələr vurub öz tarixi torpaqlarını işğalçılardan azad etmişdir". Bu tarixi qiymətləndirmə bir daha göstərir ki, Zəfərin təməlində güclü liderlik, xalqın sarsılmaz iradəsi və ordumuzun misilsiz qəhrəmanlığı dayanırdı. Məhz lider, xalq və ordu birliyi Azərbaycanın tarixində yeni səhifə açdı.

Qazanılan Zəfər Azərbaycanın dövlətçilik tarixində yeni mərhələnin başlanğıcı oldu. Ərazi bütövlüyünün bərpası ölkəmizin suverenliyi, təhlükəsizliyi və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət daşıyırdı. Çünki güclü dövlət yalnız iqtisadi potensialı, müasir ordusu və beynəlxalq nüfuzu ilə deyil, öz torpaqlarını qorumaq, milli maraqlarını müdafiə etmək qabiliyyəti ilə də xarakterizə olunur. Vətən müharibəsində əldə edilən qələbə Azərbaycanın müstəqil dövlət kimi iradəsini, siyasi qətiyyətini və gücünü bütün dünyaya nümayiş etdirdi. 2023-cü ilin sentyabrında ölkəmizin bütün ərazisində suverenliyimizin tam bərpa edilməsi isə bu tarixi prosesin mühüm yekunu oldu. Bununla da Azərbaycanın gələcək inkişafı, işğaldan azad edilmiş ərazilərin dirçəldilməsi və milli təhlükəsizliyinin möhkəmləndirilməsi üçün yeni imkanlar yarandı.

Zəfər tarixini yazan qəhrəmanlarımızın hər biri xalqımızın qəlbində əbədi yaşayacaq. Onlar Vətənin azadlığı uğrunda həyatlarını fəda etdilər. Kimisi yenicə ailə qurmuşdu, kimisi övladının böyüməsini görmək istəyirdi, kimisi valideynlərinin yeganə ümidi idi. Onların hər birinin arzuları, gələcəyə dair planları vardı. Ancaq Vətən çağıranda şəxsi arzularını xalqının taleyindən üstün tutmadılar.

Biz Qarabağın işğalını, yurd həsrətini, doğma torpaqlara gedə bilməməyin ağrısını yaşamış nəsillik. Biz illərlə televiziyadan tarixi ərazilərimizin azadlıq xəbərini gözləmiş, xəritədə işğal altında göstərilən rayonlarımızın adlarını ürək ağrısı ilə oxumuşuq. Ancaq bizdən sonra gələn nəsillər Qarabağı işğal altındakı torpaq kimi deyil, Azərbaycanın azad, abad, inkişaf edən bölgəsi kimi tanıyacaqlar. Onlar Şuşaya, Xankəndiyə, Laçına, Kəlbəcərə səfər edərkən bizim yaşadığımız nisgili yaşamayacaqlar. Qarabağ onların yaddaşında əlçatmaz arzu deyil, doğma Vətənin ayrılmaz parçası olacaq. Bu, Qələbəmizin ən qiymətli mənəvi bəhrəsidir.

O da var ki, gələcək nəsillərin bu ağrını yaşamaması tarixi unutması demək deyil. Əksinə, onlar bugünkü azadlığın hansı çətinliklər və fədakarlıqlar hesabına qazanıldığını bilməlidirlər. Şəhidlərimizin həyat yolu, qazilərimizin qəhrəmanlığı, xalqımızın birliyi, dövlətimizin qətiyyəti gənc nəslin vətənpərvərlik tərbiyəsinin əsas mənəvi dayaqlarından olmalıdır. Çünki Zəfəri qazanmaq nə qədər böyük məsuliyyətdirsə, onu qorumaq, gələcək nəsillərə ötürmək də bir o qədər müqəddəs vəzifədir. Bu gün uşaqlarımıza ötürməli olduğumuz ən mühüm dəyər yalnız Qələbə sevinci deyil, həm də Vətənə sədaqət, dövlətə bağlılıq, milli birlik və sülhün qədrini bilmək hissidir.

8 Noyabr - Zəfər Günü bizim üçün yalnız qazanılmış böyük qələbənin ildönümü deyil, həm də gələcəyə ünvanlanan mühüm bir mesajdır. Bu tarix hər birimizə xatırladır ki, Vətənin taleyi qarşısında məsuliyyət yalnız müharibə dövrü ilə məhdudlaşmır. Azad torpaqların inkişafına töhfə vermək, milli dəyərlərimizi qorumaq, dövlətimizin gücünü və nüfuzunu daha da artırmaq hər bir vətəndaşın mənəvi borcudur. Zəfərin əsl mənası isə bu tarixi uğuru gələcək nəsillərin firavanlığına, təhlükəsizliyinə və xoşbəxtliyinə çevirməkdədir.

Ülkər XASPOLADOVA,
"Azərbaycan"



Qalib dövlətin sülh qətiyyəti

Azərbaycan xalqının 30 illik torpaq həsrətinə son qoyan 44 günlük Vətən müharibəsi və 2023-cü il sentyabrın 19-20-də keçirilən lokal xarakterli antiterror tədbirləri Cənubi Qafqazın geosiyasi mənzərəsini kökündən dəyişdi.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu döyüş meydanında misilsiz qəhrəmanlıq göstərərək BMT Təhlükəsizlik Şurasının 27 il boyunca kağız üzərində qalan qətnamələrini öz gücü ilə icra etdi. Bu tarixi Zəfər təkcə ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam təmini deyil, həm də müasir beynəlxalq münasibətlər sistemində yeni sülh modelinin təməli oldu.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Əgər sülh yolu ilə həll üçün bütün ümid itir, ancaq həqiqət və ədalət, beynəlxalq hüquq sizin tərəfinizdədirsə, sülhə nail olmaq üçün gücdən istifadə etmək zəruridir. Məhz belə də oldu. Biz əvvəlcə güc tətbiq etməklə, daha sonra isə siyasi yollarla Ermənistanla sülhə nail olduq. Bu da müasir tarixdə, - müasir dedikdə son onilliklər nəzərdə tuturam, - nadir bir təcrübədir - ölkə özü güc tətbiq edərək suverenliyini və ərazi bütövlüyünü bərpa etdi".

Regiona uzunmüddətli sabitlik gətirən əsas güc

Azərbaycan müharibədən sonra məğlub tərəfə beynəlxalq hüquqa əsaslanan sülh müqaviləsi təklif edən nadir dövlətlərdən biri kimi tarixdə yer aldı. İkinci Qarabağ müharibəsindən sonra rəsmi Bakı normallaşma üçün İrəvana 5 baza prinsipi təqdim etdi. Sülh müqaviləsinin mətni faktiki olaraq məhz Azərbaycanın təşəbbüsü və diplomatik iradəsi ilə formalaşdırıldı. Azərbaycan bununla sübut etdi ki, həm hərb meydanında, həm də diplomatik masada öz şərtlərini diktə edən və regiona uzunmüddətli sabitlik gətirən əsas gücdür.

Faktdır ki, artıq tarixin arxivinə gömülmüş ATƏT-in Minsk qrupu münaqişəni həll etmək yox, onu onilliklər boyu dondurmağa çalışmaq istiqamətində fəaliyyət göstərdi. Azərbaycanın diplomatik qətiyyəti nəticəsində məhz bu qurumun yarıtmaz fəaliyyətinə və üçüncü tərəflərin qərəzli müdaxilələrinə son qoyuldu. İki ölkə arasında birbaşa masa arxasında əldə olunan razılaşmalar sayəsində sərhədlərin delimitasiyası prosesinə start verildi, Qazax rayonunun 4 kəndi döyüşsüz qaytarıldı.

Azərbaycanın liderliyi ilə irəlilədilən sülh prosesi 2025-ci il avqustun 8-də Vaşinqton Sammitində öz məntiqi nəticəsinə çatdı. ABŞ Prezidenti Donald Trampın evsahibliyi və iştirakı ilə Prezident İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında baş tutan Zirvə görüşü ölkəmizin diplomatik zəfəri kimi yaddaşlara həkk olundu. "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş"in mətni rəsmən paraflandı. Azərbaycan və Ermənistan liderləri tərəfindən, habelə şahid qismində ABŞ Prezidenti tərəfindən imzalanmış Birgə Bəyannamədə, Azərbaycan və Ermənistan münaqişənin artıq keçmişdə qaldığını təsdiqlədilər. Bununla iki ölkə arasında beynəlxalq sərhədlərin toxunulmazlığı və ərazi əldə olunması üçün güc tətbiq etmənin yolverilməzliyi əsasında qonşuluq münasibətlərinin qurulması üçün şərtlərin yarandığı bəyan edildi.

İki ölkənin XİN rəhbərlərinin birgə müraciəti əsasında dekabrın 1-də ATƏT Minsk prosesini və onunla bağlı strukturları rəsmən ləğv etdi. Vaşinqton Zirvə görüşünün ən mühüm nailiyyətlərindən biri də Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə bağlayacaq Zəngəzur dəhlizinin (TRIPP) açılması üzrə razılıq əldə edilməsi oldu. Bu layihə Orta dəhlizin ən vacib halqasına çevrilərək Avrasiya nəqliyyat xəritəsini yenidən tərtib edir.

Ötən ilin avqustunda Prezident İlham Əliyev Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibə verən zaman Zəngəzur dəhlizinin (TRIPP) əhəmiyyətini belə izah edib: "...Biz daha güclü tranzit ölkə olmağa çalışırıq. Biz istəyirik ki, ərazimizdən keçən dəhlizlər daha çox yükdaşıma qabiliyyətinə malik olsun. Bu, pul gətirir, iş yerləri açır və siyasi imkanlar vəd edir. Söhbət Ermənistanın uzun illər özünü məhrum etdiyi imkanlardan gedir. Beləliklə, bu nəqliyyat marşrutu - qısaltması TRIPP kimi səslənən "Beynəlxalq Sülh və Rifah Naminə Tramp Marşrutu" daha bir tarixi nailiyyət olacaq".

Regionda de-fakto sülh

Azərbaycan Ermənistana qarşı tətbiq edilən bütün tranzit məhdudiyyətlərini aradan qaldırıb. Bu özü də sübut edir ki, Azərbaycan qalib tərəf kimi bölgədə daimi sülh yaratmaqda son dərəcə qətiyyətlidir. Öz gücü və milli iradəsi ilə beynəlxalq hüququ bərpa edərək Cənubi Qafqazda de-fakto sülhü bərqərar edən ölkəmiz regionda əməkdaşlıq üçün geniş üfüqlər açıb.

İndi ən əsas vəzifə bu nailiyyəti de-yure sülh müqaviləsinə çevirməkdir. Bunun üçün İrəvanın qarşısında duran əsas tələb Ermənistan konstitusiyasında Azərbaycana qarşı olan ərazi iddialarının rəsmən ləğv edilməsidir.

Prezident İlham Əliyev Vaşinqtonda sülh müqaviləsinin mətninin paraflanandan sonra media nümayəndələrinə müsahibəsində bu mövqeyi qətiyyətlə vurğulamışdır: "Təbii ki, Ermənistanın, necə deyərlər, ev tapşırıqları da var. Bildiyiniz kimi, onların konstitusiyasında Azərbaycana qarşı ərazi iddiası məsələsi imkan vermədi ki, bu gün sülh sazişi imzalansın. Amma bu dəyişikliklər ediləndən sonra artıq sülh sazişi istənilən vaxtda imzalana bilər. Lakin bu gün mən bəzi suallara münasibətimi bildirəndə dedim ki, bir halda Azərbaycan və Ermənistan rəhbərləri bu paraflamanı Ağ Evdə etməyi qəbul ediblərsə, deməli, hesab etmək olar ki, artıq bölgəmizə dayanıqlı sülh gəlib".

Azərbaycanın ortaya qoyduğu sülh strategiyası lokal çərçivədən çıxaraq qlobal təhlükəsizlik arxitekturasının tərkib hissəsinə və dünyadakı münaqişələrin həlli üçün istinad olunan nümunəyə çevrilib.

Prezident İlham Əliyev Ümumdünya İqtisadi Forumu çərçivəsində bu ilin yanvarında "Sülh Şurasının Nizamnaməsi" (Board of Peace Charter) sənədini imzalayaraq bu qurumun təsisçi üzvlərindən biri oldu. Bu, Bakının sülh strategiyasının qlobal miqyasda qəbulunun göstəricisidir.

Ölkəmizin rəhbərinin Əbu-Dabidə "Zayed İnsan Qardaşlığı Mükafatı" kimi nüfuzlu mükafata layiq görülməsi regionda onilliklər boyu davam edən münaqişəyə və humanitar əzablara son qoyan sülh sazişinin paraflanmasına verilən yüksək beynəlxalq qiymətdir.

Bir sözlə, Azərbaycan öz hərbi gücü, sarsılmaz iradəsi və müdrik diplomatiyası ilə sübut etdi ki, düzgün yürüdülən siyasət sayəsində həm beynəlxalq ədaləti bərpa etmək, həm də bütün region üçün firavan sülh erasını başlatmaq mümkündür.

Yasəmən MUSAYEVA,
"Azərbaycan"



Xankəndidə "Zəfər zəngi" filmi nümayiş olunub

2020-ci il noyabrın 8-də Şuşa şəhərinin işğaldan azad edilməsi Vətən müharibəsində tarixi Qələbənin əldə olunmasında həlledici mərhələ oldu. Bu Zəfər Azərbaycan xalqının iradəsinin, qəhrəman Azərbaycan Ordusunun gücünün və şəhidlərimizin müqəddəs fədakarlığının təntənəsidir.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, bu fikir Xankəndi şəhərində 8 Noyabr- Zəfər Gününə həsr olunmuş tədbirdə səsləndirilib.

Azərbaycan Respublikası Prezidentinin Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında xüsusi nümayəndəliyinin və Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin birgə təşkilatçılığı ilə baş tutan tədbirdə şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Afət Telmanqızı Zəfər Gününün Azərbaycan xalqının tarixində müstəsna əhəmiyyətə malik olduğunu bildirib. Diqqətə çatdırılıb ki, bu gün azad edilmiş torpaqlar doğma insanların nəfəsi ilə isinməkdədir. Xankəndidə, Şuşada, Xocalıda, Ağdərədə və digər ərazilərdə həyat yenidən canlanır, genişmiqyaslı quruculuq və bərpa işləri Azərbaycanın qələbədən tərəqqiyə doğru inamlı addımlarını nümayiş etdirir.

Sonra tədbir iştirakçılarına Əməkdar jurnalist Afət Telmanqızının ssenari müəllifliyi ilə çəkilmiş, 44 günlük Vətən müharibəsini, tarixi Qələbəni və Zəfər ruhunu özündə əks etdirən "Zəfər zəngi" filmi nümayiş olunub.

Tədbir Zəfər Gününün xalqımızın milli yaddaşında əbədi yaşayacağına, Azərbaycanın müstəqilliyinin və ərazi bütövlüyünün daim qorunacağına dair çağırışlarla yekunlaşıb.

Zəfər davam edir

Qarabağ və Şərqi Zəngəzurda quruculuq, qayıdış və inkişaf salnaməsi yazılır

Əslində Azərbaycanın 44 günlük Vətən müharibəsindəki Zəfərinə hərbi-siyasi qələbə, ərazi bütövlüyümüzün bərpası, eləcə də milli birliyimizin, tarixi ədalətin və xalqımızın sarsılmaz iradəsinin təntənəsi kimi baxılmalıdır. Bu möhtəşəm hadisənin gerşək mahiyyəti işğaldan azad edilmiş torpaqlarda həyatın yenidən canlandırılması, yüz minlərlə insanın doğma yurduna qayıdışının təmin edilməsi və 30 il ərzində dağıdılmış ərazilərin yenidən qurulması prosesində daha aydın görünür.

Təsəvvür edin: işğal dövründə şəhər və kəndləri yerlə yeksan olunmuş, infrastrukturu məhv edilmiş, ərazisi genişmiqyaslı mina çirklənməsinə məruz qalmış bir coğrafiyada dövlət eyni vaxtda minatəmizləmə, yol və kommunikasiya xətlərinin çəkilməsi, hava limanlarının, elektrik stansiyalarının, məktəblərin, xəstəxanaların, yaşayış komplekslərinin tikintisi, sosial infrastrukturun yaradılması, bir sözlə, "Böyük qayıdış" proqramının icrası kimi nəhəng vəzifələri həyata keçirir. Üstəlik, bütün bunlar qısa tarixi zaman kəsiyində əsasən Azərbaycanın öz resursları, maliyyə imkanları hesabına reallaşdırılır.

Danılmaz faktdır ki, Qarabağ və Şərqi Zəngəzurda aparılan quruculuq işləri regionun uzunmüddətli sosial-iqtisadi inkişafına, dayanıqlı yaşayış mühitinin formalaşdırılmasına və yeni iqtisadi imkanların yaradılmasına xidmət edir. Bu mənada Zəfərdən sonra başlanan quruculuq mərhələsi Azərbaycanın qarşısında duran ən böyük tarixi missiyadır. Əldə olunan qələbənin real nəticələrini insanların doğma torpaqlarına qayıdışında, yenidən canlanan şəhər və kəndlərdə, qurulan yeni həyatın özündə görmək mümkündür.

İşğaldan azad edilmiş ərazilərdə quruculuq prosesinin kökündə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uzunmüddətli dövlət strategiyası, güclü siyasi iradə, eləcə də bütöv və əlaqələndirilmiş inkişaf modeli dayanır. Məqsəd burada müasir infrastruktur yaratmaq və insanların təhlükəsiz, layiqli yaşayışını təmin etməkdir. Ona görə də çəkinmədən deyə bilərik ki, Böyük qayıdış azad edilmiş torpaqlarda həyatın yenidən qurulmasına, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışına xidmət edən vacib dövlət layihəsidir. Təbii ki, bərpa-quruculiq işləri Qarabağ və Şərqi Zəngəzurun ölkənin gələcək inkişafında layiqli yer tutmasına zəmin yaradır. Bu baxımdan, "Böyük qayıdış" proqramı Zəfərin yaratdığı imkanların real nəticələrə çevrilməsinin və Azərbaycanın gələcəyə hesablanmış inkişaf siyasətinin aydın təzahürüdür.

Böyük qayıdış həm də doğma yurda dönən insanların taleyində, yenidən alovlanan ocaqların tüstüsündə təcəssüm edən mənəvi qələbədir. Onilliklər boyu doğma yurd həsrəti ilə yaşayan keçmiş məcburi köçkünlərin qayıdışı onların evlərlə təmin olunması fonunda sosial həyatın yenidən qurulması deməkdir. Bu məqsədlə yaşayış məntəqələri, sosial obyektlər və infrastruktur yaradılır, məşğulluq imkanları formalaşdırılır, təhlükəsiz və dayanıqlı məskunlaşma təmin edilir. Qayıdışın mərhələli və sistemli təşkili isə prosesin müvəqqəti köç deyil, doğma torpaqlarda yeni həyatın başlanğıc nöqtəsi olmasına xidmət edir.



Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda həyata keçirdiyi quruculuq missiyası miqyasına və qarşıya qoyulan vəzifələrin mürəkkəbliyinə görə beynəlxalq aləmdə də maraq doğurur. Söhbət təxminən 20 min kvadratkilometr ərazidə işğalın ağır nəticələrinin aradan qaldırılmasından, mina təhlükəsinin neytrallaşdırılmasından, yaşayış məntəqələrinin və iqtisadi infrastrukturun yenidən qurulmasından gedir. Bu cür genişmiqyaslı və nəhəng quruculuq işlərinin qısa müddətdə vüsət alması Azərbaycanın iqtisadi potensialını, dövlətin təşkilatçılıq imkanlarını və milli resurslarını ümumi məqsəd naminə səfərbər etmək qabiliyyətini nümayiş etdirir.

Rəqəmlər bu işlərin əhatə dairəsini daha aydın göstərir. 2026-cı il oktyabrın 14-nə olan məlumata görə, işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması üçün dövlət büdcəsindən 25,5 milyard manat vəsait ayrılıb, 300 min hektardan artıq torpaq mina və partlamamış hərbi sursatlardan təmizlənib. Artıq 47 yaşayış məntəqəsinə 40 mindən çox məcburi köçkün qayıdıb. Ümumilikdə isə azad edilmiş ərazilərdə yaşayan, işləyən və təhsil alanların sayı 100 minə yaxınlaşıb.

Beləliklə, Azərbaycan paralel olaraq, həm işğalın ağır mirasını aradan qaldırır, həm də müasir inkişaf modelinə əsaslanan yeni yaşayış məkanı yaradır. Bu təcrübə Zəfərdən sonrakı quruculuğun iqtisadi, humanitar, sosial və dövlətçilik baxımından əhəmiyyətli olduğunu sərgiləyir. Qısa müddətdə inşa edilən avtomobil və dəmir yolları, tunellər, körpülər, beynəlxalq hava limanları azad edilmiş əraziləri nəqliyyat baxımından əlçatan edir. Üstəlik də Azərbaycanın regional logistika imkanlarını genişləndirir. Füzuli, Zəngilan və Laçın beynəlxalq hava limanlarının istifadəyə verilməsi, Horadiz-Ağbənd dəmir yolu xəttinin inşası bu mənada strateji əhəmiyyət kəsb edir.

Enerji, su və kommunikasiya sistemlərinin yenilənməsi, alternativ enerji mənbələrinin inkişafı, eləcə də "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqi regionda müasir yaşayış modelinin formalaşmasına imkan verir. Unutmaq olmaz ki, infrastruktur layihələri regional iqtisadi əlaqələrin genişlənməsi, tranzit imkanlarının artması, turizm, kənd təsərrüfatı və sənayenin inkişafı üçün yeni perspektivlər açmaqla yanaşı, bölgənin ölkə iqtisadiyyatına daha fəal inteqrasiyasına da xidmət edir. Bu, Qarabağ və Şərqi Zəngəzurda yaradılan infrastrukturun ölkənin gələcək iqtisadi inkişafında mühüm rol oynayacağını göstərir.


Zəfərin əsl böyüklüyü həm də ondadır ki, Azərbaycan azad etdiyi torpaqlarda insanların gələcəyə inamını, doğma yurda bağlılığını, illərlə yarımçıq qalan arzularını yenidən dirçəldir. Hər açılan məktəb, salınan yol, inşa edilən yeni bina bu tarixi qələbənin davam edən salnaməsidir. Bu gün Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən layihələr Azərbaycanın gələcək nəsillərə ötürdüyü tarixi mirasdır. Çünki əsl Zəfər yalnız torpağı azad etmək deyil, onu yenidən yaşatmaq, inkişaf etdirmək və firavan yurda çevirməkdir.

Azərbaycan 6 il əvvəl qazandığı şərəfli və möhtəşəm Zəfərlə öz tarixinin yeni səhifəsini açdı. Bu gün isə həmin səhifəyə quruculuğun, qayıdışın və inkişafın salnaməsini yazır.

Züleyxa ƏLİYEVA,
"Azərbaycan"

Həm əfsanə, həm həqiqət

Noyabrın 7-də "Neft Daşları"nın 77 yaşı tamam olur



Azərbaycanı haqlı olaraq dünya neft sənayesinin beşiyi adlandırırlar. Bu tarixi və strateji statusu 1846-cı ildə Bakıda -Bibiheybətdə mexaniki üsulla ilk sənaye neft quyusunun qazılması və neft hasil edilməsi haqqında məlumatdan başlayaraq bir sıra mühüm faktlar təsdiqləyir. Bununla yanaşı, mütləq o da qeyd olunmalıdır ki, dünyada dəniz neftinin erası da məhz Azərbaycandan başlanıb.

Noyabrın 7-də bu tarixi hadisənin 77 ili tamam olur. Belə ki, 1949-cu ilin həmin günündə Xəzərdə - dənizin açıq qoynunda ilk neft quyusu fontan vurub.

İlk dəniz quyusunun məkanı olan "Neft Daşları" yatağını Xəzərin sularından baş qaldıran çıxıntıların - qara daşların yaxınlığında müşahidə ediblər. Tarix bu yatağın "doğuluş"unu öz yaddaşında belə qoruyub saxlayır: "...1948-ci ildə 23 nəfərdən ibarət ilk dəniz neftçiləri dəstəsi birinci quyunun kəşfiyyatına başladı. Böyük neft təşkilatçısı Sabit Orucovun, geoloq Ağaqurban Əliyevin və qazma sahəsində zəngin təcrübəyə malik mühəndis Yusif Səfərovun təklifi ilə əlavə xərclərə yol verməmək və işçi qüvvəsinə qənaət etmək üçün Bakı gəmi təmiri zavodlarından istifadədən silinmiş 7 iritonnajlı gəmi gətirilərək "Qara daşlar"ın yanında basdırıldı. Süni buxta yaradıldı. Beləcə, buranı "Yeddi gəmi adası" deyə çağırmağa başladılar. Qəhrəmanlıq mücəssəməsi olan əfsanəvi "Yeddi gəmi adası" Xəzərin fatehlərini fırtınalardan qoruyan sığınacağa və dənizin dərin qatlarına nüfuz etmək üçün istinad nöqtəsinə çevrildi... Usta Mixail Kaveroçkinin başçılıq etdiyi qazmaçılar briqadasının 1 nömrəli quyudan götürdüyü nümunə 100 tona yaxın ilk neft fontanının yaxınlaşmasından xəbər verirdi. 1949-cu il noyabrın 7-də quyu fontan vurdu".

Neft Daşları deyəndə hər kəs gözü önündə öz təsəvvüründə yaratdığı, yaxud eşitdikləri və ekranlarda gördüklərinə əsaslandığı bir mənzərə canlandırır. Lakin Neft Daşları elə bir məkandır ki, onu gərək öz gözlərinlə görəsən. Bunu ən düzgün və ən aydın ifadə edən Ulu Öndər Heydər Əliyev olub: "Neft Daşlarında işləyən hər bir kəs ən böyük hörmətə layiq bir insandır. Orada işləməyən, oranı görməyən, oranı ziyarət etməyən insan bunu təsəvvür edə bilməz".

Yeri gəlmişkən, Ulu Öndər burada dəfələrlə olmuş, estakada və meydançaları gəzmiş, dənizin qoynunda hünər göstərən neftçilərlə görüşmüş, bir sözlə, Neft Daşlarını sevmiş, "Neft Daşları Azərbaycan neftçilərinin qəhrəmanlıq abidəsidir",- demişdi

Beləliklə, "Neft Daşları" ilk növbədə karbohidrogenlərlə zəngin dəniz yatağıdır. Bu yataq Xəzər dənizinin akvatoriyasında, Abşeron neftli-qazlı rayonunda, Bakı şəhərindən 110, Pirallahı adasından 50 kilometrlik məsafədə yerləşir. Yataq "Neft Daşları" NQÇİ (Neft və Qazçıxarma İdarəsi) tərəfindən istismar olunur. 1951-ci ildən "Neft Daşları"nın, 1963-cü ildən isə "Palçıq Pilpiləsi"nin sənaye əhəmiyyətli işlənməsinə başlanıb. Həmin vaxtdan indiyədək bu yataqlardan fasiləsiz olaraq neft və qaz çıxarılır. SOCAR-ın təqdim etdiyi son məlumatlara əsasən, "Neft Daşları" yatağından işlənilməsinə başlanandan bəri 182,4 milyon tondan çox neft və 14,3 milyard kubmetr səmt qazı hasil olunub. Qazılan quyuların sayı isə 1986-dır və onlardan 409-u fəaliyyətdədir.

Son illər ərzində "Neft Daşları" və "Palçıq Pilpiləsi" yataqlarında onlarca stasionar dəniz özülü, geniş sahəsi olan estakadayanı meydançalar, estakadalar inşa edilib. Bütün qurğuların saz vəziyyətdə olması daim diqqət mərkəzindədir. Odur ki, mütəmadi olaraq yataqların ərazisində cari təmir işləri də həyata keçirilir.

Neft Daşlarını əfsanəyə bənzətsələr də, o, əsl həqiqətdir, işləyən, yaşayan, qurub-yaradan şəhərdir. Lakin Neft Daşları mədən-şəhərdir. Çünki burada məktəblər, uşaq bağçaları, ailələrin yaşadığı mənzillərdən ibarət evlər yoxdur. Beş və doqquzmərtəbəli yataqxanalar, yeməkxanalar, vertolyot meydançası, tibbi-sanitar hissə, mağazalar var. Bu şəhərdə yalnız neftçilər yaşayır, həm də təkcə əmək növbələri günlərində. Neftçilər dedikdə təkcə dənizin dərin qatlarından "qara qızıl"ı çıxaranlar deyil, böyük neftçi "ailə"sinin bütün üzvləri - geoloqlar, kəşfiyyatçılar, qazmaçılar, inşaatçılar, rabitəçilər, energetiklər, nəqliyyatçılar və xidmət sahələrində çalışanlar nəzərdə tutulur. Onlar "Neft Daşları" Neft və Qazçıxarma İdarəsinin, eləcə də neçə-neçə digər müəssisə və təşkilatın nümayəndələridir. Növbələşərək işləyirlər - bir həftə dənizdə, növbəti həftə quruda, ev-eşiklərində olurlar.

Neft Daşlarının bir möcüzəsi də yamyaşıl parkları, gül-çiçəyi, ikimərtəbəli "Çay evi", idman zalıdır… Təsəvvür edək ki, bunların hamısı açıq dənizin qoynunda, polad meydançaların üstündədir.

Neft Daşlarının hər uğuru Xəzərin fırtınalı qoynunda ekstremal şəraitdə işləyən Azərbaycan neftçisinin fədakar əməyinin, ona hərtərəfli qayğısını getdikcə artıran Azərbaycan dövlətinin dəstəyinin nəticəsidir. Prezident İlham Əliyev dəfələrlə burada olub. Dövlət başçısının diqqət və qayğısı sayəsində "Möcüzələr adası" son illər xeyli abadlaşıb gözəlləşərək dünyanı təəccübləndirməkdə davam edir. Dəniz neftçilərinin məişət şəraitinin yaxşılaşdırılması istiqamətində əməli işlər görülüb.

Bu, sadə, lakin olduqca böyük bir həqiqətdir ki, əgər "Neft Daşları" öz məqamında istismara daxil olmasaydı, "Azəri", "Çıraq", "Günəşli","Şahdəniz" kimi yataqların "dünyaya gəlişi" nə vaxt olardı, bilinmir…

"Neft Daşları" yatağının kəşf edilməsi təkcə keçmiş SSRİ-ni əhatə edən Xəzərdə, Oxot, Barents dənizlərində, Qara dənizdə deyil, həm də dünyanın bütün dəniz və okeanlarında - Meksika körfəzində, Şimal dənizində axtarış-kəşfiyyat işlərinin inkişafına güclü təkan verdi. Hazırda dünya üzrə axtarış-kəşfiyyat işlərinin və karbohidrogen hasilatının əhəmiyyətli hissəsi dəniz akvatoriyalarının payına düşür. Okean və dəniz şelflərində işlərin miqyası sürətlə genişlənir. Bütün bu işlər 77 il əvvəl "Neft Daşları"ndan start götürüb.

Flora SADIQLI,
"Azərbaycan"



Neft sənayesinin inkişafında əvəzsiz rolu olmuşdur

Böyük alimlərin həyatını yalnız bioqrafiya tarixləri ilə anlatmaq çətindir. Onların yaşadığı illər, tutduğu vəzifələr, aldığı mükafatlar bir insanın fəaliyyətini müəyyən qədər təsvir edir, ancaq onun düşüncə dünyasını tam açmır. Akademik Azad Xəlil oğlu Mirzəcanzadə də belə şəxsiyyətlərdən idi. O, mürəkkəb fiziki prosesləri riyazi dillə izah edən, nəzəri biliklə istehsalat təcrübəsi arasında möhkəm əlaqə quran, eyni zamanda müəllimliyi elmi yaradıcılığın ayrılmaz hissəsi sayan alim kimi tanındı.

Azərbaycanın neft tarixi təkcə quyuların qazılması və sənaye müəssisələrinin qurulması tarixi deyil. Bu tarix həm də insan düşüncəsinin təbiətin mürəkkəb qanunlarına nüfuz etməsi, müşahidəni hesaba, təcrübəni nəzəriyyəyə çevirməsi ilə bağlıdır. Mirzəcanzadənin fəaliyyətinə bu mənzərədən baxanda onun Azərbaycan elminin inkişafındakı yerini daha aydın görmək olur. O, neft yatağını yalnız sərvət mənbəyi kimi deyil, çoxsaylı fiziki amillərin qarşılıqlı təsirdə olduğu mürəkkəb sistem kimi araşdırırdı.

1928-ci ildə Bakıda dünyaya göz açan gələcək akademikin gəncliyi sürətli sənayeləşmə və ağır müharibə illərinə təsadüf etdi. O dövrdə neft mühəndisliyi ölkənin ən çətin, eyni zamanda böyük intellektual hazırlıq tələb edən sahələrindən idi. Mirzəcanzadə 1944-1949-cu illərdə Azərbaycan Sənaye İnstitutunun neft-mədən fakültəsində təhsil aldı və dağ mühəndisi ixtisasına yiyələndi. Təhsil aldığı sahənin praktik mahiyyəti onun sonrakı elmi axtarışlarının istiqamətinə də təsir göstərdi.

Gənc tədqiqatçı elmi fəaliyyətinin başlanğıcından hesablamaya, hadisənin mahiyyətini açan modelə və nəticənin təcrübə ilə yoxlanılmasına xüsusi maraq göstərdi. Bu xüsusiyyətlər sonralar onun elmi məktəbinin də başlıca cizgilərinə çevrildi. Sual verməyi bacarmaq, mövcud izahla kifayətlənməmək və mürəkkəb məsələni sadələşdirmədən anlaşıqlı hala gətirmək onun elmi metodunun mahiyyətini təşkil edirdi.

Mirzəcanzadə haqqında danışarkən onun elmə münasibətini də xatırlamaq lazımdır. Elm onun üçün hazır cavablar toplusu deyildi; elmi nəticə yalnız ardıcıl şübhə, yoxlama və düşüncə nəticəsində yaranırdı. Bu mövqe həm laboratoriyada, həm də auditoriyada eyni dərəcədə qiymətli idi. Onun həyat yolunda elmin nəzəri tərəfi ilə insanın intellektual tərbiyəsi bir-birindən ayrılmırdı.

Azad Mirzəcanzadənin elmə gəlişi qeyri-adi sürətlə baş verdi. O, 1951-ci ildə texnika elmləri üzrə namizədlik, 1957-ci ildə doktorluq dissertasiyası müdafiə etdi. 1959-cu ildə professor elmi adını aldı, 1962-ci ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 1968-ci ildə isə həqiqi üzvü seçildi. Bu tarixlər gənc alimin qabiliyyətini göstərir, lakin onun nüfuzunun əsas səbəbi təqdim etdiyi elmi ideyaların məzmununda idi.

O, 1948-ci ildən Azərbaycan Elmlər Akademiyasının Neft İnstitutunda və Neft Ekspedisiyasında müxtəlif vəzifələrdə çalışaraq laboratoriya işini, tədqiqatın təşkilini və mədən şəraitində alınan nəticələrin şərhini yaxından öyrəndi. Sonrakı illərdə neftçıxarma üzrə elmi-tədqiqat qurumlarında və mexanika laboratoriyalarında fəaliyyət göstərdi. Müxtəlif institutlardakı işi ona eyni problemin həm nəzəri, həm texnoloji, həm də təşkilati tərəfini görmək imkanı yaratdı.

1960-cı illərdən Mirzəcanzadənin fəaliyyəti daha geniş elmi mühitlə əlaqələndi. SSRİ Elmlər Akademiyasının Mexanika Problemləri İnstitutunda və neft sənayesi ilə birgə laboratoriyalarda apardığı işlər Bakı elmi məktəbinin ideyalarının başqa elmi mərkəzlərlə mübadiləsinə şərait yaratdı. Sonralar neft-qaz dinamikası üzrə laboratoriyalara rəhbərlik etməsi tək bir problemin həllindən daha böyük vəzifə idi: nəzəriyyə, eksperiment və sənaye təcrübəsini bir tədqiqat proqramında birləşdirmək.

Bu yolun diqqət çəkən cəhəti alimin praktik mühəndislikdən uzaqlaşmadan fundamental elmə yönəlməsidir. O, konkret mədən məsələsini həll edərkən daha ümumi qanunu axtarırdı. Belə bir axtarış elmi nəticəni bir texnoloji şəraitin hüdudlarından çıxarır, ona yeni tətbiq sahələri qazandırırdı.

Mirzəcanzadənin mühüm tədqiqat istiqamətlərindən biri qeyri-Nyuton mayelərinin və özlü-plastik sistemlərin hərəkəti idi. Adi təsəvvürdə maye axını sadə görünür: təzyiq fərqi yaranır, maye hərəkət edir. Əslində isə, bəzi neftlər, emulsiyalar və qazma məhlulları axın zamanı mürəkkəb davranış göstərir. Onların özlülüyü deformasiya sürətindən asılı dəyişə və hərəkətin başlanması üçün müəyyən gərginlik həddi tələb oluna bilər. Klassik sadələşdirilmiş yanaşmalar belə halları həmişə düzgün təsvir etmir. Alimin bu sahədəki işləri neft çıxarılmasının mühəndislik əsaslarını daha dəqiq başa düşməyə kömək etdi.

Reologiya, yəni materialların axma və deformasiya xüsusiyyətlərini öyrənən elm onun tədqiqatlarında mühüm yer tuturdu. Bu istiqamət yalnız nəzəri maraq daşımırdı. Qazma zamanı məhlulun quyudakı davranışı, ağır neftin hərəkəti, neftin laydan çıxarılması prosesində baş verən dəyişikliklər birbaşa istehsalat təhlükəsizliyinə və iqtisadi nəticəyə təsir göstərirdi. Riyazi model gerçək şəraitə nə qədər yaxın olarsa, texniki qərarın əsaslandırılması da bir o qədər etibarlı olur.

Mirzəcanzadənin elmi düşüncəsində ayrıca düsturu tətbiq etməkdən daha vacib bir məsələ vardı: həmin düsturun hansı şərtlərdə doğru olduğunu anlamaq. Məsələn, ideal maye üçün çıxarılan nəticəni mürəkkəb tərkibli neftə olduğu kimi köçürmək ciddi xəta yarada bilər. Deməli, tədqiqatçı əvvəlcə maddənin xassələrini müəyyən etməli, sonra uyğun fiziki modeli seçməli və yalnız bundan sonra hesablama aparmalıdır.

Bu yanaşmanın elmi dəyəri onun ümumiliyindədir. Yeni texnologiyalar ortaya çıxdıqda belə, mayenin xassəsini ölçmək, qanunauyğunluğu müəyyənləşdirmək, model qurmaq və nəticəni yoxlamaq prinsipləri dəyişmir. Mirzəcanzadənin tədqiqatları neft sənayesini məhz belə ardıcıl elmi düşüncəyə söykəməyin nümunəsi idi.

Mirzəcanzadənin tədqiqatlarının bir hissəsi qaz-kondensat yataqlarının işlənməsi, neft hasilatında qeyri-stasionar proseslər və mürəkkəb hidrodinamik hadisələrlə bağlı idi. Qaz-kondensat sistemində təzyiq azaldıqca maye fazanın ayrılması kimi proseslər baş verə bilər. Belə dəyişikliklər hasilata təsir göstərdiyindən yatağın davranışını anlamaq üçün həm termodinamik, həm də hidrodinamik yanaşmalar lazımdır. Alimin adı ilə bağlı elmi istiqamətlərin genişliyi bu qarşılıqlı əlaqələri araşdırmaq istəyindən doğurdu.

Texnoloji qərarın elmi əsaslandırılması həm də müxtəlif ssenariləri müqayisə etməyə imkan verir. Bir rejimin üstünlüyü yalnız ilkin nəticə ilə deyil, zaman ərzində sistemin necə dəyişməsi ilə ölçülməlidir. Bunun üçün eksperiment, statistik məlumat və riyazi modellər birlikdə istifadə olunur. Mirzəcanzadə istehsalat proseslərini təsadüfi dəyişikliklər yığını kimi qəbul etmirdi; qanunauyğunluqların tapılacağına və hesablamalarla izah ediləcəyinə inanırdı.

Bu baxış bu gün də aktualdır. Rəqəmsal modelləşdirmə və verilənlərin təhlili mühəndisin əlində yeni vasitələr yaradıb. Ancaq kompüterin verdiyi nəticənin etibarlılığı hələ də ilkin fiziki fərziyyənin doğruluğundan asılıdır. Mirzəcanzadənin elmi irsində qiymətli olan məhz bu metodoloji dərsdir: dəqiq hesablamanın əsasında düzgün qoyulmuş sual dayanmalıdır.

Fundamental elmlə tətbiqi tədqiqat arasında bəzən süni sərhəd çəkilir. Guya biri yalnız abstrakt qanunlarla, digəri isə gündəlik texniki məsələlərlə məşğuldur. Mirzəcanzadənin fəaliyyəti bu bölgünün nə qədər şərti olduğunu göstərirdi. O, təcrübədən çıxan sualı nəzəri təhlilə aparır, nəzəri nəticəni yenidən texnoloji şəraitdə yoxlamağa çalışırdı. Beləliklə, elmi bilik qapalı sxemə deyil, davamlı düzəliş prosesinə çevrilirdi.

Alimin tədqiqatlarında hidrodinamika, mexanika, riyazi modelləşdirmə və eksperimentin planlaşdırılması bir-birinə bağlanırdı. Mürəkkəb istehsalat problemi qarşısında təkcə daha çox ölçmə aparmaq kifayət etmir; hansı parametrlərin ölçülməli olduğunu da seçmək lazımdır. Riyazi eksperiment metodlarının tətbiqi dəyişənlər arasındakı əlaqələri üzə çıxarmağa, lazımsız sınaqların sayını azaltmağa və nəticələrin izahını yaxşılaşdırmağa imkan verirdi.

Elmin gücü bəzən gözə görünən qurğuda, bəzən də həmin qurğunun işləməsini mümkün edən düzgün izahda təzahür edir. Sənayedə tətbiq olunan qərarın arxasında uzun illərin araşdırması, uğursuz təcrübələr, yenidən işlənmiş fərziyyələr dayana bilər. Mirzəcanzadənin fəaliyyəti elmi əməyin bu çox zaman görünməyən tərəfini xatırladır. Mühəndislik qərarını etibarlı edən yalnız təcrübəli mütəxəssisin intuisiyası deyil, nəticənin hansı səbəbdən alındığını açıqlayan bilikdir.

Onun təxminən 500 elmi əsər və 50-dən çox ixtira ilə bağlı geniş irsi nəzəri marağının istehsalat məsələləri ilə sıx bağlı olduğunu göstərir. Bununla belə, elmi fəaliyyətin səviyyəsini sırf nəşrlərin sayı ilə ölçmək düzgün olmazdı. Mirzəcanzadənin daha dərin töhfəsi ayrı-ayrı məsələlərə tətbiq edilə bilən tədqiqat üsulları formalaşdırmasında idi.

Mirzəcanzadə üçün müəllimlik elmi işdən ayrılmış əlavə məşğuliyyət deyildi. Onun pedaqoji fəaliyyəti hələ gənclik illərində başlamışdı. Sonralar Azərbaycan Dövlət Universitetində nəzəri mexanika-



dan dərs dedi, 1959-cu ildən isə neft təhsili sahəsində uzunmüddətli kafedra rəhbərliyini davam etdirdi. Elmi araşdırmanın inceliklərini tələbəyə başa salmaq onun peşə həyatının mühüm hissəsinə çevrildi.

Yaxşı müəllim informasiyanı yadda saxlatmaqla kifayətlənmir, tələbəyə həmin informasiyanın nə üçün lazım olduğunu göstərir. Xüsusilə mühəndis hazırlığında bu fərq həlledicidir. Tələbə bir tənliyi əzbərləyə bilər, amma onun hansı fərziyyələrlə əldə olunduğunu bilmirsə, real məsələ ilə qarşılaşanda çətinlik çəkəcək. Mirzəcanzadənin elmi-metodiki mövqeyini səciyyələndirən cəhətlərdən biri düşünmə mədəniyyətini yetişdirməyə çalışması idi.

Onun rəhbərliyi altında çoxsaylı alimlər yetişmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının bioqrafik məlumatlarında 250-dən çox fəlsəfə doktoru səviyyəli tədqiqatçının və 100 elmlər doktorunun hazırlanması qeyd edilir. Bu rəqəmlər yalnız bir pedaqoqun məhsuldarlığını göstərmir; eyni zamanda müəyyən tədqiqat ənənəsinin müxtəlif elmi müəssisələrə yayılmasını ifadə edir. Müəllimin təsiri məhz yetirmələri müstəqil elmi yol tutduqda davam edir.

Elmi məktəb yaratmaq üçün bacarıqlı tələbələri ətrafına toplamaq hələ kifayət deyil. Müxtəlif xarakterli insanların bir-birindən öyrənə bildiyi mühit qurmaq, gənc tədqiqatçıya səhv etmək və səhvini düzəltmək imkanı vermək, düşüncənin səviyyəsini yüksək saxlamaq lazımdır. Belə bir mühitdə müəllimin şəxsiyyəti, onun sual vermə tərzi, elmi vicdana münasibəti yazılı proqram qədər təsirli olur.

Mirzəcanzadənin orta məktəblərdə dəqiq elmlərin tədrisinə marağı onun təhsilə baxışının universitet sərhədləri ilə məhdudlaşmadığını göstərirdi. Riyazi düşüncə birdən-birə ali məktəbdə formalaşmır. Onun təməli daha əvvəl, məktəblinin hər nəticə üçün əsas axtarmağa başladığı illərdə qoyulur. Alimin pedaqoji fəaliyyətinin davamlı dəyəri elə bu düşüncə vərdişinə verdiyi əhəmiyyətdədir.

Azad Mirzəcanzadə elmi laboratoriyadan kənarda da ölkənin intellektual həyatında məsuliyyət daşıdı. 1992-2001-ci illərdə Azərbaycan Ali Attestasiya Komissiyasına, 1993-2001-ci illərdə isə Dövlət Elm və Texnika Komitəsinə rəhbərlik etdi. Bu vəzifələrdə fəaliyyət elmi nəticənin qiymətləndirilməsi, yüksəkixtisaslı kadr hazırlığı və elmi potensialın qorunması kimi mürəkkəb məsələlərlə bağlı idi. Tədqiqatçı üçün belə işlər yeni məsuliyyət müstəvisi açır: yalnız öz araşdırmasının deyil, bütövlükdə elmi mühitin taleyi haqqında düşünmək tələb olunur.

Elmi ictimaiyyətin etimadı ilə dövlət idarəçiliyinin tələbləri həmişə asan uzlaşmır. Akademik nüfuz dərin biliyə əsaslanırsa, idarəçilik konkret qərar, meyar və prosedur tələb edir. Elm təşkilatçısının qarşısında duran vəzifə yaradıcı tədqiqatın sərbəstliyini qoruyarkən onun keyfiyyətinə cavabdehlik yaratmaqdır. Mirzəcanzadənin müxtəlif elmi strukturlara rəhbərliyi onun fərdi tədqiqatdan daha geniş institutlaşma prosesində iştirakını göstərir.

Görkəmli alimin fəaliyyəti dövlət səviyyəsində də qiymətləndirilmişdi. O, Azərbaycan Dövlət mükafatlarına layiq görülmüş, elmi nailiyyətlərinə görə müxtəlif mükafatlar almış, 1998-ci ildə "İstiqlal" ordeni ilə təltif edilmişdi. Bu təltiflər ictimai ehtiramın ifadəsidir. Lakin alimin həyatı üçün daha səciyyəvi göstərici onun tədqiqatlarının elmi dövriyyədə qalması və yetişdirdiyi mütəxəssislərin fəaliyyətini davam etdirməsidir.

Böyük alim haqqında danışanda onu qüsursuz və mübahisəsiz simvola çevirmək asandır. Halbuki elmin təbiəti mübahisə, yenidən baxış və düzəliş tələb edir. Mirzəcanzadənin irsinə ehtiram onun hər yanaşmasını dəyişməz həqiqət kimi təqdim etməkdə deyil, yaratdığı ideyaları öyrənməkdə, onların tətbiq sərhədlərini müəyyənləşdirməkdə və yeni biliklərlə zənginləşdirməkdədir. Əsl elmi ehtiram davam edən müzakirədir.

O, 2006-cı ilin iyulunda Bakıda vəfat etdi. Geridə nəşrlər, ixtiralar və yetişdirdiyi alimlərdən ibarət geniş irs qaldı. Bu irsin ayrı-ayrı hissələri müxtəlif nəsillərin tədqiqatlarında yaşamağa davam edir.

Azad Mirzəcanzadənin həyatına bütöv baxanda üç məqam xüsusilə seçilir: mühəndislik məsələlərini fundamental elmi problem kimi qoymaq bacarığı, nəticəni yoxlayan tədqiqat mədəniyyəti və bilik ötürməyə məsuliyyətli münasibət. Bunlar ayrı-ayrı keyfiyyətlər kimi görünsə də, əslində, bir dünyagörüşünün hissələridir. Nəzəriyyənin dəyərini təcrübədə axtaran alim tədrisdə də hazır cavabdan çox düşüncə yoluna əhəmiyyət verir.

Bu gün elmi hesablama vasitələri Mirzəcanzadənin ilk tədqiqat illəri ilə müqayisəolunmaz dərəcədə inkişaf edib. Böyük verilənlər bazaları, mürəkkəb simulyasiyalar və avtomatlaşdırılmış ölçmə sistemləri əvvəllər aylarla aparılan hesablamaları qısa müddətdə yerinə yetirə bilir. Ancaq texnologiyanın sürəti elmi sualın düzgün qoyulması zərurətini azaltmır. Əksinə, böyük həcmdə nəticə alan tədqiqatçı üçün hansı məlumatın mənalı olduğunu ayırd etmək daha vacib olur. Mirzəcanzadənin metodoloji təcrübəsi buna görə müasir təhsil üçün də əhəmiyyətlidir.

Onun irsinin mühüm hissəsi neft-qaz mühəndisliyi ilə bağlı olsa da, verdiyi intellektual dərs daha genişdir. Hər bir tətbiqi sahə bəzən tez nəticə vəd edən sadə üsula meyil göstərir. Alimin işi isə xatırladır ki, davamlı nəticə üçün hadisənin quruluşunu, onu doğuran səbəbləri və modelin məhdudiyyətlərini bilmək lazımdır. Elmin məsuliyyəti yalnız nəticə çıxarmaq deyil, nəticənin etibarlılıq sərhədini də göstərməkdir.

Mirzəcanzadənin kitabları, elmi məqalələri və onun haqqında yazılmış tədqiqatlar yeni nəslin alimlə tanışlığı üçün imkan yaradır. Bu mənbələri yalnız xatirə xarakterli material kimi oxumaq kifayət deyil. Onları elm tarixinin sənədləri, elmi problemlərin necə qoyulduğunu və hansı üsullarla həll edildiyini göstərən mətnlər kimi araşdırmaq daha məhsuldardır. Belə yanaşma alimin adını mərasim nitqlərindən çıxarıb canlı elmi müzakirəyə qaytarır.

Azad Mirzəcanzadənin həyatının əsas mənası onun çətin suallardan yayınmamasında idi. Bir laboratoriyada başlanan axtarışın böyük elmi məktəbə çevrilməsi təsadüfən baş vermir. Bunun üçün uzunmüddətli zəhmət, intellektual cəsarət və bilik qarşısında məsuliyyət lazımdır. O, məhz bu xüsusiyyətlərlə Azərbaycan elm tarixində yer tutdu: təkcə öz dövrünün problemlərini araşdıran alim kimi deyil, həm də sonrakı nəsillərə düşünməyi öyrədən müəllim kimi.

Azad QURBANOV,
BDU-nun İnformatika kafedrasının baş müəllimi, dosent

"Zəfərdən doğan işıq" adlı tədbir keçirilib







Zəfərin 6-cı ildönümü münasibətilə "Azərenerji" Səhmdar Cəmiyyətin Baş İdarəetmə Kompleksində yerləşən 500 nəfərlik Energetiklərin Mədəniyyət Mərkəzində ölkə energetiklərinin tədbiri keçirilib. Tədbirdə "Azərenerji", "Azərişıq" ASC-lərin və bir sıra universitetlərin rəhbərləri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə foyedə təşkil olunan "Zəfər işığında" adlı maket və fotoşəkil sərgisi ilə tanış olublar.

Rəsmi hissə Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və Vətən uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Ardınca Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən enerji quruculuğunu, həmin torpaqların ölkənin vahid enerjisisteminə inteqrasiyasını və "yaşıl enerji" zonasına çevrilməsi istiqamətində görülən işləri əks etdirən "Zəfərdən doğan işıq" adlı sənədli film nümayiş olunub.

"Azərenerji" ASC-nin sədri Baba Rzayev çıxışında Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan tarixi Zəfərin Azərbaycan xalqının taleyində-ki müstəsna əhəmiyyətindən danışıb. Bildirib ki, haqq savaşımız olan 44 günlük Vətən müharibəsi və əldə edilən möhtəşəm Qələbə tariximizin ən şanlı səhifələrindən birinə çevrilib.

Baba Rzayev müharibə dövründə energetiklərin də ön cəbhədə olduğu kimi, arxa cəbhədə də böyük fədakarlıq nümayiş etdirdiyini bildirib. Qeyd edib ki, səhmdar cəmiyyətin 183 əməkdaşı Vətən müharibəsində iştirak edərək qəhrəmanlıq və şücaət göstərib. Onlardan 2 nəfəri şəhidlik zirvəsinə ucalıb, 12 əməkdaşın ailə üzvü Vətən uğrunda canından keçib. Bununla yanaşı, energetiklər müharibənin ən gərgin günlərində gecə-gündüz çalışaraq ölkənin enerji təchizatının fasiləsizliyini təmin edib, enerji sistemində hər hansı bir çatışmazlığa yol verməyiblər.

İşğaldan azad edilmiş ərazilərdə son altı ildə həyata keçirilən enerji quruculuğuna toxunan Baba Rzayev bildirib ki, bu müddət ərzində "Azərenerji" tərəfindən həmin ərazilərdə 50-dən artıq enerji obyekti istifadəyə verilib. Onların sırasında 40-a yaxın su-elektrik stansiyası, 330 və 110 kV-luq 15-ə yaxın yarımstansiya, eləcə də 1000 kilometrdən artıq elektrik ötürmə xətti var.

Hazırda 8 ərazidə su-elektrik stansiyasının, 3 ərazidə isə 110 kV-luq yarımstansiyanın tikintisi davam etdirilir və yekunlaşmaqdadır. "Bir zamanlar dağıntılara və xarabalıqlara çevrilmiş, bu gün isə gündən-günə abadlaşan Qarabağ və Şərqi Zəngəzur məhz yaradılan müasir enerji infrastrukturu sayəsində işığa qovuşur, dirçəlir və yenidən qurulur", - deyə Baba Rzayev vurğulayıb.

Çıxışda azad edilmiş ərazilərdə fəaliyyətə başlayan su-elektrik stansiyalarında istehsal olunan "yaşıl enerji"nin göstəriciləri də diqqətə çatdırılıb. Bildirilib ki, indiyədək bu stansiyalarda 2 milyard kilovat-saata yaxın ekoloji cəhətdən təmiz elektrik enerjisi istehsal edilib. Bunun nəticəsində 400 milyon kubmetr təbii qaza qənaət olunub, 725 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınıb.

Tədbirdə çıxış edən digər natiqlər də Böyük Zəfərin tarixi əhəmiyyətindən, qazanılan Qələbədən sonra işğaldan azad edilmiş ərazilərdə başlanan genişmiqyaslı bərpa və quruculuq prosesindən bəhs ediblər. Vurğulanıb ki, bu proses Azərbaycanın iqtisadi və texnoloji imkanlarını, dövlətimizin qüdrətini, xalqımızın birliyini və həmrəyliyini nümayiş etdirir.

Sonda 44 günlük Vətən müharibəsində qəhrəmanlıq göstərmiş "Azərenerji" əməkdaşlarına hədiyyələr təqdim olunub.

Zəfər ruhunu əks etdirən bayram konserti ilə tədbirə yekun vurulub.

"Azərbaycan"

Torpağımızın göz yaşı Zəfərlə silindi

8 Noyabr hər birimiz üçün əziz gündür. Çünki həmin gün xalqımız illərdən bəri intizarında olduğu Zəfərinə qovuşdu. Vətən müharibəsində Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə torpaqlarımızı erməni işğalından azad etdi. Buna görə də qürur və iftixarla deyə bilərik ki, 8 Noyabr Zəfər Günü tariximizin ən şərəfli səhifələrindən biri yox, birincisidir.



Bu əlamətdar gün münasibətilə Bakı şəhər Tofiq Məmmədov adına 239 nömrəli orta məktəbdə tədbir keçirilib. "Əsir torpağın göz yaşı Zəfərlə silinər!" adlı tədbir şəhidlərin ruhunun birdəqiqəlik sukutla yad edilməsi və Dövlət himni ilə başladı.

Məktəbin direktoru Nisə Fərəcova çıxış edərək bildirdi ki, Zəfər Günü hamımız üçün yaddaqalan, müqəddəs bir gündür. Çünki 2020-ci ildə rəşadətli Azərbaycan Ordusu Qarabağda və Şərqi Zəngəzurda Ermənistan silahlı qüvvələrini darmadağın edərək xalqımıza qələbə sevinci yaşatdı. Ordumuz 30 ilə yaxın davam edən erməni işğalına son qoydu. Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə hərbçilərimiz böyük qəhrəmanlıq və hünər göstərdilər. Bir zamanlar məktəbimizin şagirdi olmuş oğullar da yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə ön sıralarda vuruşdular. Təəssüflər olsun ki, onların bir neçəsi şəhid oldu. Biz həmişə onların adlarını əziz tutur, xatirələrini hörmətlə anırıq. 6-cı ildir ki, xalqımız Zəfər Gününü böyük qürur və iftixar hissi ilə qeyd edir. Belə xoş və sevinc dolu anları, günləri xalqımıza yaşatdıqlarına görə Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə, şəhidlərimizə və qazilərimizə dərin minnətdarlığımızı bildiririk.



Doğmalarını, əzizlərini Qarabağ müharibəsində itirmiş Mərifət Həsənova, Nahidə Teymurova, Gülsüm Əhədzadə və başqaları çıxış edərək Azərbaycanın tarixinə qızıl hərflərlə yazılmış Zəfər Günündən danışdılar, bu tarixi günün əhəmiyyətini qürur hissi ilə tədbir iştirakçılarına çatdırdılar.

Çıxışlar başa çatdıqdan sonra tədbir bayram ovqatı ilə davam etdi. Şagirdlərin ifasında tədbir iştirakçılarına gözəl anlar, xoş duyğular yaşadan ədəbi-bədii kompozisiya nümayiş olundu. Şagirdlərdən Məryəm Süleymanlı, Tamerlan Niftəliyev, Məryəm Məmmədli, Süleyman Məmmədli, Zəhra Həsənova, Ayam Sadıqova, Ayxan Musayev, Zəhra Baxışzadə, şəhid övladları Uğur və Ləman Əhədzadə və başqaları Zəfəri, qəhrəmanlığı və vətənpərvərliyi tərənnüm edən şeirlər söylədilər. Məktəbin 6-cı sinif şagirdi Arzu Məhərrəmli isə "Qarabağ can, Qarabağ" mahnısını ifa etdi.

Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan"

Respublika Uşaq Kitabxanasında maarifləndirici tədbir

8 Noyabr - Zəfər Günü münasibətilə Respublika Uşaq Kitabxanası ilə 1 nömrəli Uşaq İnkişaf Mərkəzinin birgə əməkdaşlığı çərçivəsində maarifləndirici tədbir keçirilib.



Kitabxanadan AZƏRTAC-a bildirilib ki, tədbirdə əvvəlcə Dövlət Himni səsləndirilib.

Kitabxana əməkdaşları iştirakçılara Zəfər Gününün tarixi əhəmiyyəti, Azərbaycan Ordusunun qəhrəmanlığı və şücaəti haqqında ətraflı məlumat veriblər.

Proqram çərçivəsində uşaqların ifasında Vətənə həsr olunmuş şeirlər səsləndirilib. İştirakçılar öz çıxışları ilə doğma torpağa, Vətənə və Zəfərə olan sevgi və qürurlarını ifadə ediblər. Tədbirin davamında uşaqların iştirakı ilə "Xarıbülbül" mövzusunda yaradıcılıq üzrə ustad dərsi təşkil olunub. Uşaqların yaradıcı bacarıqlarının nümayiş olunduğu ustad dərsi tədbirə xüsusi rəng qatıb.

"Nida qoyulan tarix"

8 Noyabr - Zəfər Günü münasibətilə Azərbaycan İstiqlal Muzeyində "Nida qoyulan tarix" adlı tədbir keçirilib.

Muzeydən AZƏRTAC-a bildirilib ki, görüşün əsas məqsədi Azərbaycan xalqının şanlı Zəfər tarixini yad etmək, Vətən uğrunda döyüşmüş qəhrəmanlarımızın fədakarlığını ehtiramla anmaq və gənc nəsildə vətənpərvərlik ruhunu gücləndirməkdir.

Tədbir çərçivəsində Vətən müharibəsi qaziləri Abbas Abbaslı və baş leytenant Kamil Musavi çıxış edərək döyüş xatirələrini bölüşüb, Vətən müharibəsi zamanı yaşadıqları hadisələr və Zəfərə aparan yol haqqında fikirlərini iştirakçıların diqqətinə çatdırıblar.

Çıxışlarda Azərbaycan Ordusunun yüksək döyüş qabiliyyəti, peşəkarlığı, qəhrəmanlığı və əsgər-zabit heyətinin göstərdiyi misilsiz şücaət xüsusi vurğulanıb. Həmçinin Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən və məqsədyönlü siyasətinin, qətiyyətli rəhbərliyinin tarixi Qələbənin əldə olunmasında mühüm rol oynadığı qeyd edilib.

Proqramın bədii hissəsində Zəfər Gününün ruhunu, Vətənə məhəbbəti və qəhrəmanlıq duyğularını əks etdirən musiqi və bədii çıxışlar təqdim olunub.

Hava yağıntılı olacaq

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə fasilələrlə yağış yağacağı proqnozlaşdırılır. Gündüz yarımadanın ayrı-ayrı yerlərində qısamüddətli intensiv olacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-şərq küləyi axşam mülayim şimal-qərb küləyi ilə əvəzlənəcək.



Havanın temperaturu gecə 8-11, gündüz 15-18 dərəcə isti olacaq. Atmosfer təzyiqi 761 millimetr civə sütunundan 754 millimetr civə sütununa enəcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensiv xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Arabir güclənən qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 8-12, gündüz 14-17 dərəcə isti, dağlarda gecə 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti, gündüz 2-6 dərəcə isti olacaq.

"BAKIENERJİTİKİNTİ" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə!

"BAKIENERJİTİKİNTİ" ASC-nin (VÖEN 1800317591) İdarə Heyəti cəmiyyətin səhmdarlarının növbəti illik ümumi yığıncağının keçiriləcəyini elan edir.

Yığıncaq 11 dekabr 2026-cı il saat 14:00-da Bakı şəhəri, Sabunçu dairəsi - 37 ünvanında keçiriləcəkdir.

Qeydiyyat: saat 08:00-dan 12:00-dək.

Gündəlik:

1. *Cəmiyyətin 2025-ci il üzrə fəaliyyəti haqqında İdarə Heyətinin hesabatı.*
2. *Cəmiyyətin 2025-ci il üzrə illik maliyyə hesabatlarının və auditor rəyinin təsdiq edilməsi.*
3. *Təftiş Komissiyasının hesabatı.*
4. *Xalis mənfəətin bölüşdürülməsi və dividendlərin ödənilməsi haqqında.*

Yığıncaqda iştirak üçün səhmdarlar şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər. Səhmdarların nümayəndələri isə şəxsiyyət vəsiqəsi ilə yanaşı, qanunvericiliyə uyğun rəsmiləşdirilmiş etibarnamə də təqdim etməlidirlər. Hüquqi şəxs olan səhmdarların nümayəndələri səlahiyyətlərini təsdiq edən sənəd təqdim edirlər.

Əlaqə telefonu: (055) 219-88-79
E-poçt: :info@betasc.com

İdarə Heyəti

Bilmək istəyirəm

Məcburi köçkün üçün dövlət rüsumu ilə bağlı hansı güzəştlər nəzərdə tutulub?

Şahbaba MƏMMƏDOV,
Hacıqabul rayonu

Sualınıza cavab olaraq bildiririk ki, dövlət rüsumu - dövlət orqanları və müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumlar tərəfindən hakimiyyət səlahiyyətlərinin icrası zamanı göstərilən və hüquqi nəticələrin yaranmasına səbəb olan xidmətlərə və hüquqi hərəkətlərə görə (sənədlərin tərtibi, qeydiyyatı, razılıqların verilməsi və s.) ödənilən haqdır (ödənişdir).

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə məcburi köçkün statusuna malik şəxslər üçün bir neçə güzəşt nəzərdə tutulmuşdur. Belə ki, sözügedən qanuna görə, məhkəmədə verilən iddialar üzrə (maddə 9.1.20), mənzil və ya ev (evin bir hissəsi) alqı-satqısı və dəyişdirilməsi ilə bağlı notariat hərəkətləri üzrə (maddə 11.1.3), həmçinin Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün şəxsiyyət vəsiqəsinin verilməsinə görə (maddə 15) məcburi köçkünlər dövlət rüsumu ödəməkdən azad olunurlar.

Mənim rəsmi iş yerim var və 18 yaşım bu ilin sonunda tamam olacaq. Bir ay əvvəl ilk əmək məzuniyyətinə çıxdım və mənə cəmi 21 təqvim günü məzuniyyət hesablandı. Sonradan eşitdim ki, 18 yaşı tamam olmayanlara qanunla 35 gün məzuniyyət düşür. İş yerində isə mənə dedilər ki, sənə nə qədər düşürsə, o qədər də hesablanıb. Bilmək istəyirəm, məzuniyyətə çıxdığım vaxt hələ 18 yaşım olmadığı üçün mənə qanunla neçə gün məzuniyyət verilməli idi?

Teymur BAĞIRZADƏ,
Mingəçevir şəhəri

Sualınıza cavab olaraq bildiririk ki, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 119-cu maddəsinin 1-ci hissəsinə əsasən, yaşı 16-dan az olan işçilərə 42 təqvim günündən, 16 yaşından 18 yaşınadək olan işçilərə isə 35 təqvim günündən az olmayaraq əmək məzuniyyəti verilməlidir.

Qanunvericiliyin bu tələbinə uyğun olaraq, əmək məzuniyyətinin müddəti işçinin məzuniyyətə çıxdığı tarixdəki yaşına uyğun müəyyən edilməlidir. Belə ki, məzuniyyətə çıxdığınız vaxt 18 yaşınız tamam olmadığına və 16-18 yaş kateqoriyasına aid olduğunuza görə sizə 21 deyil, 35 təqvim günü müddətində əmək məzuniyyəti verilməli idi.

Beləliklə, 14 təqvim günü məzuniyyət hüququnuzun təmin edilmədiyi görünür. Bu məsələ ilə bağlı işəgötürənə müraciət edərək məzuniyyət hüququnuzun bərpasını tələb edə bilərsiniz.

Əgər işəgötürən əmək məzuniyyətinin müddətinin düzgün hesablanmadığını aradan qaldırmazsa, hüquqlarınızın müdafiəsi üçün Dövlət Əmək Müfəttişliyi Xidmətinə və ya məhkəməyə müraciət edə bilərsiniz.

Sualları cavablandırdı:
Paşa SƏFƏROV,
Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü

ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri Anar Rzayevə anası

TÜNZALƏ XANIMIN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Şəki Apellyasiya Məhkəməsinin kollektivi Ali Məhkəmənin hakimi İspəndiyar Şəfiyevə atası

ƏSƏD ŞƏFİYEVİN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri Anar Rzayevə anası

TÜNZALƏ RZAYEVANIN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Şəki Rayon Məhkəməsinin sədri Ceyhun Əhmədov, hakimləri və kollektivi Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi İspəndiyar Şəfiyevə atası

ƏSƏD ŞƏFİYEVİN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

Qəbul otağı	- 539-68-71,	Beynəlxalq həyat, idman və informasiya şöbəsi	- 539-63-82, 432-37-68
Baş redaktor müavinləri	- 538-86-86, 538-35-55		
Məsul katib	- 539-43-23,	Humanitar siyasət şöbəsi	- 538-56-60, 434-55-58
Məsul katib müavinləri	- 539-44-91,	İctimai əlaqələr şöbəsi	- 539-49-20, 538-31-11,
Parlament və siyasət şöbəsi	- 539-84-41, 539-21-00,	Kompüter mərkəzi	- 538-20-87,
İqtisadiyyat şöbəsi	- 538-42-32	Mühasibatlıq	- 539-59-33

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru

www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3277
Sifariş 1470

Qiyməti 60 qəpik